RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 194 (9649) 7 sentyabr 2024-cü il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# 1 nömrəli tərəfdaş təchizatçı

◆ Azərbaycan Prezidenti İlham Əliyevin İtaliyaya işgüzar səfəri




## Prezident İlham Əliyev Beynəlxalq Çernobbio Forumunda "Yeni geosiyasi şəraitdə Azərbaycanın rolu" adlı sessiyada çıxış edib

Sentyabrın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Dünya, Avropa və İtaliya haqqında bilgilər" mövzusuna həsr olunmuş Beynəlxalq Çernobbio Forumunda "Yeni geosiyasi şəraitdə Azərbaycanın rolu" adlı sessiyada çıxış edib.

AZƏRTAC xəbər verir ki, tədbirin iştirakçılarını salamlayan **moderator** dedi:

- Hər kəsi bu mötəbər forumda salamlayıram. Prezident Mattarella çıxışında Avropanın rolu və onun qlobal kontekstdə əhəmiyyətindən danışdı. İcazənizlə, bizim hörmətli ilk çıxışçımıza söz verim. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkəsinin bu ssenariyə uyğun olaraq hansı mövqedə olduğu barədə danışacaq. Zati-aliləri, söz Sizindir.

Dövlətimizin başçısı sessiyada çıxış etdi.

→ 2

## Azərbaycan-İtaliya iqtisadi əlaqələri: öndə enerji tərəfdaşlığıdır



İtaliyanın Cənubi Qafqaz ölkələri arasında əsas ticarət tərəfdaşı Azərbaycandır. Belə ki, onun Cənubi Qafqaz ölkələri ilə ticarət dövriyyəsinin 85 faizi Azərbaycanın payına düşür.

İqtisadi əməkdaşlıq bir sıra sahələri əhatə etsə də, öndə enerji tərəfdaşlığıdır. Prezident İlham Əliyevin İtaliyaya işgüzar səfəri bu tərəfdaşlığın inkişafına yeni bir təkan verəcək. Belə ki, yeni layihələr üçün yollar açılır. Əməkdaşlığın bünövrəsi möhkəm olduğuna görə perspektivlər də böyük, gözləntilər də çoxdur. Məlumdur ki, İtaliya xeyli vaxtdır Azərbaycandan xam neft və neft məhsullarının ixracında ən iri ticarət tərəfdaşına çevrilib. Son illərin ən möhtəşəm meqalayihələrindən olan "Cənub qaz dəhlizi"nin axırıncı məntəqəsi də məhz İtaliyadır. Yəni bu dəhliz Azərbaycandan başlayaraq Gürcüstanın,Türkiyənin, Yunanıstanın, Albaniyanın ərazisindən və Adriatik dənizinin altından 3500 kilometr yol keçərək İtaliya torpağına çatır və orada bu ölkənin "Snam Rete Gas" şirkətinin istismar etdiyi qaz nəqliyyatı şəbəkəsi ilə birləşir.

→ 3

## "Azərbaycan-İtaliya münasibətləri yüksək səviyyədədir"

İtaliya ilə son 10 ildə ticarət dövriyyəsinin dəyəri 2 dəfə artaraq 17 milyard dollara çatıb. Keçən il ölkələr arasında ticarət dövriyyəsinin həcmi 15 milyard 685 milyon ABŞ dolları təşkil edib. Hesabat dövründə Azərbaycandan İtaliyaya 15 milyard 208 milyon dollar dəyərində məhsul göndərilib. Enerji sahəsində əməkdaşlığın vacibliyi, neft şirkətləri arasında bağlanan müqavilələrin davamlı olması hər iki ölkə üçün faydalıdır. Bu gün TAP layihəsi həm İtaliyanın, həm də Avropa İttifaqının enerji təhlükəsizliyində mühüm əhəmiyyətə malikdir və Avropanın 10 ölkəsinin enerji təchizatında mühüm rol oynayır.

→ 3

## Məkrdən əl çəkə bilməyən Fransa

### Azərbaycana səyahət xəbərdarlığı Parisin çirkin siyasətinin növbəti təzahürüdür

Fransa müstəqilliyini qazandığı zamandan etibarən Azərbaycana qarşı qərəzli siyasət yürüdüb. ATƏT-in keçmiş Minsk qrupunun tərkibində vasitəçiliyi dövründə artıq tarixdə qalmış Qarabağ münaqişəsinin həlli istiqamətində heç bir iş görməyib. Azərbaycanın torpaqlarının sonsuzadək işğalda qalmasına səy göstərib. Buna görə də Paris Vətən müharibəsinin regionda yaratdığı yeni reallıqları qəbul edə bilmir. Çünki yalan vədlərlə erməni lobbisindən qopardığı pullar əlindən çıxıb.

Elə Fransanın Avropa və Xarici İşlər Nazirliyinin Azərbaycana səyahət xəbərdarlığı ilə bağlı əsassız və qərəzli bəyanatı da erməni lobbisinin gözünə kül üfürmək cəhdindən başqa bir şey deyil.

Azərbaycan Xarici İşlər Nazirliyinin adıçəkilən qərəzli bəyanatla bağlı şərhində bildirilir ki, Fransa tərəfindən verilmiş bu cür əsassız və qərəzli qərar və bəyanat bu ölkənin Azərbaycanla münasibətləri daha da gərginləşdirmək niyyətindən xəbər verir.

Vətəndaşların əsassız olaraq saxlanıldığı və həbs edildiyi barədə Fransanın Avropa və Xarici İşlər Nazirliyinin iddialarının heç bir əsası yoxdur. Bu əsassız bəyanat reallığın təhrif olunmasıdır.

Bildirilir ki, Azərbaycanda indiyə qədər yalnız Fransa Respublikasının vətəndaşı Martin Rian ötən ilin 4 dekabr tarixində Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 276-cı maddəsində (casusluq) nəzərdə tutulmuş əməlin törədilməsində şübhəli bilinərək tutulub. Bundan əlavə, digər Fransa vətəndaşı Klerk Teo Hüqonun Bakı metrosunda törətdiyi əmələ görə saxlanıldığı məlumdur.

Bunun əksinə, Fransa tərəfindən Azərbaycan jurnalistlərinin Fransaya, hətta digər Şengen ölkəsi ərazilərinə səyahətləri zamanı tətbiq etdiyi maneələr Fransanın təbliğ etdiyi "insan hüquqlarına" tamamilə zidd olduğu aydındır.



→ 8

## Paytaxtın ilk "yaşıl məkan"ı

Xatırladaq ki, Filarmoniya bağı 1830-cu illərdə Bakı komendantı R.R.Xovenin təşəbbüsü ilə yaradılıb. Məhz qubernatorun təşəbbüsü ilə yaradıldığı üçün əvvəllər "Qubertnator bağı" kimi tanınıb. O, Lənkəran və İrandan gələn bütün gəmi sahiblərinin, tacirlərin qarşısına bir şərt qoyub ki, getdiyiniz yerlərdən bir neçə çuval qara torpaq gətirməlisiniz. Torpaq gətirməyənlər isə cərimələnirdilər. Sahibkarlar tərəfindən Lənkəran və İrandan gətirilən torpaqların sayəsində bağda əvvəlcə meyvə ağacları, sonra bəzək kolları əkilir. Kasıb camaatın bağda dincəlməsinə həftədə bir dəfə icazə verilirdi. Varlıların isə istirahəti limitsiz idi, ürəkləri istədikləri vaxt bağa girib-çıxa bilərdilər. Hətta bağın girişinə xüsusi elan da vurulubmuş: "Əsgərlərin və itlərin daxil olması qadağandır!"

1859-cu ildə bağda bir yenilik edilir. Rəqs meydançası düzəldilir, axşamlar orkestr çalmağa başlayır.



→ 6

## Yeni baş nazir təyinatı Fransada çaxnaşma yaratdı

### Seçkilərdə qalib gəlmiş solçular kütləvi etirazlara başlayırlar

Fransa Kommunistlərinin (PCF) milli katibi Fabyen Russel üçün isə Makronun seçimi, "zorla çevriliş" və "demokratiyanın inkarı"dır. Onun sözlərinə görə, fransızlar dəyişiklik istəyirlər. Ona görə də solçu alyans ölkə sakinlərinin buna nail olması üçün hər şeyi edəcək. PCF-nin milli katibi çıxışını bu sözlərlə yekunlaşdırıb: "Biz hökumətin istefasından başlayaraq, Fransanın maraqlarına uyğun olmayan siyasətlərə qarşı mübarizə aparmaq üçün əlimizdə olan bütün vasitələrdən istifadə edəcəyik".

Fransa Milli Assambleyasında RN qrupunun prezidenti Marin Le Pen isə deyib: "Biz yeni hökumət başçısından "Milli Birlik" Partiyasına səs verən 11 milyon fransıza hörmət etməsini, onların şəxsiyyətinə və ideyalarına hörmətlə yanaşmasını tələb edəcəyik".

→ 8

## "Cücələr" payızda sayılacaq

### Qlobal iqtisadiyyatı çənginə alan savaşlara "davam", yoxsa "tamam" deyiləcək?

Müharibə isə günü-gündən şiddətlənir, coğrafiyası genişlənir. Qərb Şərqin hərbi gücü olan Rusiyanı diz çökdürmək üçün savaşı onun ərazisinə keçirmək istəyir. Ancaq şimal qonşumuzun başı daşdan-daşa dəyib. Yaxşı anlayır ki, bu savaşda uduzsa, keçmiş SSRİ-nin taleyini yaşayacaq. "Lazım gələrsə, nüvə silahından da istifadə edəcəyik" - xəbərdarlığı da bununla bağlıdır.

İndi dünyada baş verən müharibələrə siyasi, ideoloji, hərbi və təhlükəsizlik kontekstində don geyindirməyə çalışsalar da, onun iqtisadi mahiyyətini gizlətmək mümkün deyil. Məsələn, Rusiya-Ukrayna savaşına Qərbdə müstəqillik, dövlət suverenliyi və ərazi bütövlüyü kontekstində qiymət verilir, Rusiya tərəfi isə onu özünün təhlükəsizlik kontekstindən dəyərləndirir. Ancaq konfliktin kökündə Ukraynanın təbii sərvətlərinin idarə olunması faktı nə Qərb tərəfindən, nə də Rusiya tərəfindən etiraf edilir. Bu yaxınlarda Rusiyanın keçmiş prezidenti, indiki Təhlükəsizlik Şurası sədrinin müavini D.Medvedyev Ukraynanın faydalı qazıntılarının ümumi dəyərinin 14,8 trilyon dollar civarında olduğunu söyləyib və bunun 7,3 trilyon dollarlığının Donetsk və Luqanskının payına düşdüyünü qeyd edib. Üstündən də keçmiş dövlət başçısı Qərbin buna sahib çıxmaq istədiyini bəyan edib.

→ 8

Azərbaycan Prezidenti İlham Əliyevin İtaliyaya işgüzar səfəri

# 1 nömrəli tərəfdaş təchizatçı

## Prezident İlham Əliyev Beynəlxalq Çernobbio Forumunda "Yeni geosiyasi şəraitdə Azərbaycanın rolu" adlı sessiyada çıxış edib

### Prezident İlham Əliyevin çıxışı









- Hörmətli xanımlar və cənablar.

Əvvəlcə dəvətə görə təşkilatçılara təşəkkürümü bildirmək istəyirəm. Mən ikinci dəfədir ki, Çernobbio Forumunda iştirak edirəm və iki il əvvəl buradakı iştirakımla bağlı xoş təəssüratlarım var. Bir daha dəvətə görə təşəkkür edirəm.

Mən buraya Romadan gəldim. Dünən mənim Prezident Mattarella ilə görüşüm oldu. O, bu səhər burada da gözəl nitqlə çıxış etdi. Dünən həmçinin mənim Baş nazir Meloni ilə də görüşüm oldu. Görüşlər və müzakirələr zamanı biz bir daha ikitərəfli münasibətlərimizin strateji xarakterini təsdiq etdik. Uzun illər ərzində Azərbaycan və İtaliya strateji tərəfdaşlar kimi fəaliyyət göstərirlər. Müvafiq bəyannamə təqribən 10 il əvvəl qəbul edilib. Bizim əməkdaşlığımız bir çox sahəni əhatə edir. Bizim müntəzəm siyasi təmaslarımız var. Bu, 2020-ci ildən bəri mənim İtaliyaya 3-cü səfərimdir. Prezident Mattarella 2018-ci ildə Azərbaycana səfər etmişdir. Yüksəksəviyyəli siyasi təmaslarımız bizim yaxın siyasi tərəfdaş olduğumuzu nümayiş etdirir.

Bizim ticarət əməkdaşlığımız olduqca fəaldır. İtaliya Azərbaycanın dünyada bir nömrəli ticarət tərəfdaşıdır. Ötən il bizim ticarət dövriyyəmiz 16 milyard ABŞ dollarına yaxın olub. Biz artım üçün potensialı yalnız enerji sektorunda deyil, digər sahələrdə də görürük. Azərbaycan İtaliyanın bir nömrəli neft və ikinci ən böyük qaz təchizatçısıdır. Bu da bizim əməkdaşlığımızın vacib hissəsidir.

Bu gün enerji təchizatı onu aydın şəkildə nümayiş etdirir ki, enerji təhlükəsizliyi milli təhlükəsizliyin ayrılmaz parçasıdır. Azərbaycandan İtaliyayadək uzanan, "Cənub qaz dəhlizi" adlanan 3500 kilometrlik inteqrasiya edilmiş boru kəməri sistemi bu gün 10 ölkənin enerji təhlükəsizliyini təmin edir. Hazırda 10 ölkə Azərbaycandan qaz alır və onlardan 7-si Avropa İttifaqının üzvüdür. Bu səbəbdən Avropa Komissiyası Azərbaycanı ümumavropa qaz təchizatçısı və etibarlı tərəfdaş adlandırır.

Qeyd etdiyim kimi, boru kəmərinin başlanğıcı Azərbaycandadır və İtaliyaya qədər uzanır. Ancaq marşrut boyu mövcud olan əlavələr və interkonnektorlar sayəsində bu kəmər geniş Avropa və Avrasiya coğrafiyasını əhatə edir. Burada da artım üçün güclü potensial var. Bu gün biz ən azı üç Avropa ölkəsi ilə qaz təchizatına dair danışıqlar aparırıq.

Bizim ikitərəfli əlaqələrimiz, əlbəttə ki, enerji və ticarətlə məhdudlaşmır. Biz hazırda humanitar məsələlər üzərində fəal şəkildə işləyirik. Artıq İtaliya-Azərbaycan Universiteti fəaliyyətə başlayıb və bu, bizim əməkdaşlığımızın şaxələndirilməsinin gözəl nümunəsidir. İtaliyanın beş aparıcı universiteti - Luiss, Sapienza, Bolonya, Milan və Turin universitetləri və onların Azərbaycandan olan tərəf-müqabilləri bu müştərək təsisatı yaradıb. Bu, bizim gələcək əməkdaşlığımız üçün mühüm əhəmiyyət kəsb edəcək. Çünki orada bu gün təhsil alan və gələcəkdə təhsil alacaq tələbələr İtaliya ilə təbii bağlantı rolunda çıxış edəcəklər. Onlar italyan dilində səlis danışacaq, italyan mədəniyyətini və italyan xalqının geniş tarixi irsini daha yaxından tanıyacaqlar.

Mən giriş sözümü ikitərəfli münasibətlərimizin əhəmiyyətinin vurğulanması ilə başladım. Çünki bu onun göstəricisidir ki, münasibətlər qarşılıqlı etimad və hörmət, qarşılıqlı maraqların nəzərə alınması üzərində qurulursa, o zaman tərəqqinin şahidi oluruq. Bu, bir-birindən uzaqda, fərqli qitələrdə yerləşən ölkələr arasında münasibətlərin necə qurulmalı olduğunun nümunəsidir.

Geosiyasi vəziyyətə gəldikdə, - bir halda ki, mənim çıxışım "Yeni geosiyasi şəraitdə Azərbaycanın rolu" mövzusuna həsr edilib, - əvvəlcə qeyd etmək istəyirəm ki, təkcə Qafqazda deyil, daha geniş regionda baş vermiş ən böyük geosiyasi dəyişiklik Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpası oldu. Bu, həqiqətən onu nümayiş etdirdi ki, beynəlxalq hüququn aliliyi o zaman təmin edilə bilər ki, burada hüquqi çərçivə ilə yanaşı, həmçinin cəsarət və real güc də var.

Bizim beynəlxalq səviyyədə tanınmış ərazilərimiz 30 il ərzində Ermənistanın işğalı altında idi. Beynəlxalq təşkilatların çoxsaylı qərar və qətnamələrinə, o cümlədən Ermənistan qoşunlarının bizim torpaqlarımızdan dərhal çıxarılmasını tələb edən və hüquqi öhdəlik yaradan BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinə baxmayaraq, işğal davam etmişdir. ATƏT bu məsələ ilə məşğul olacaq xüsusi bir qrup da yaratmışdır və həmin qrup 28 il ərzində sıfır nəticə hasil etmişdir. Bu, onu nümayiş etdirir ki, ədaləti və sülhü təmin etmək üçün təkcə beynəlxalq hüquq kifayət deyil. Masa üzərində digər amillər də olmalıdır.

O zaman işğal altında olan ərazilərimizin böyük hissəsi 2020-ci ildə 44 günlük Vətən müharibəsi nəticəsində azad edildi. Lakin məsələ bununla bitmədi, çünki separatçılar Azərbaycanın suverenliyinə xələl gətirməyə davam edirdilər. Bu məsələdə sonuncu nöqtə ötən ilin sentyabrında qoyuldu və Azərbaycanın suverenliyi tam şəkildə bərpa edildi. Münaqişəyə, nəhayət, son qoyuldu və bu, məhz belə də olmalı idi.

Bu, bu gün ərazi bütövlüyünü və suverenliyini bərpa etmək istiqamətində uğura nail olmaqda çətinlik çəkən bir çox ölkə üçün yaxşı nümunədir. Azərbaycan öz nümunəsi ilə onu nümayiş etdirdi ki, beynəlxalq hüquq, güclü siyasi iradə, cəmiyyətin səfərbər olması və fiziki güc ciddi siyasi dəyişikliklə nəticələnə bilər. Beləliklə, Sovet İttifaqının süqutundan sonra ilk dəfədir ki, biz Cənubi Qafqazda sülhə nail ola bilərik. Bu, mümkündür - Azərbaycan və Ermənistan arasında sülh danışıqları çərçivəsində baş verən hadisələr, sülh müqaviləsinin bəndlərinin təqribən 80 faizinin razılaşdırılması, sərhədin delimitasiyası prosesinin başlanması və hətta kiçik addım hesab oluna bilən 13 kilometrlik hissəsinin demarkasiyasının, - halbuki sərhədin uzunluğu 1000 kilometrdən artıqdır, - özü belə düzgün istiqamətdə atılan addımdır.

Beləliklə, biz ümid edirik ki, sülh danışıqlarının başlanmasına dair Azərbaycanın təşəbbüsü sülh sazişinin imzalanması ilə nəticələnəcək. Bu isə təkcə Cənubi Qafqaz deyil, dünyanın bütün regionları üçün əhəmiyyətli olacaqdır. Bu, 30 il ərzində münaqişədə olmuş iki ölkənin birgə çalışaraq sülhə nail olmasının nümunəsi ola bilər. Baxmayaraq ki, burada işğaldan əziyyət çəkmiş və ərazisinin təqribən 20 faizinin tamamilə dağıdıldığı ölkə məhz Azərbaycandır.

Burada giriş sözümdə qeyd etmək istədiyim sonuncu məqam ondan ibarətdir ki, iki aydan sonra biz ən böyük iqlim konfransına - COP29-a evsahibliyi edəcəyik. Bununla bağlı qərar ötən ilin dekabrında verildi və bizim hazırlıq üçün bir ildən az vaxtımız var idi. Burada ən vacib məqam ondan ibarətdir ki, bu qərar 200-ə yaxın ölkə arasında konsensusa əsaslanırdı. Biz bunu Azərbaycana olan ehtiramın təzahürü hesab edirik. Tarixdə ilk dəfə COP bizim regionumuzda keçiriləcək.

Biz qlobal arenada müxtəlif aktorlar arasında körpülərin qurulması üzərində fəal çalışırıq. Hər kəsə məlumdur ki, iqlim mövzusu ölkələri və xalqları ayıran bir mövzudur. Qarşılıqlı iddialar və ittihamlar var - kim planetimizə xələl gətirməkdə daha çox günahkardır, kim daha çox ödəməlidir və sair. Yəni beynəlxalq arenada qlobal aktor olmasaq belə, zənnimcə qlobal Cənub və qlobal Şimal arasında körpülərin qurulması mümkündür.

Bununla yanaşı, onu da vurğulamaq istərdim ki, bir çox Avropa ölkəsi ilə fəal əməkdaşlığa malik olmağımız, - yeri gəlmişkən Avropa İttifaqının 10 üzvü rəsmi olaraq Azərbaycanın strateji tərəfdaşıdır, - 120 ölkəni birləşdirən Qoşulmama Hərəkatına 4 il sədrliyimiz onu nümayiş etdirir ki, biz yaxşı nəticə hasil edə biləcək ölkəyik.

Bunlar mənim giriş sözümdə toxunmaq istədiyim mövzular idi. Bir daha bu auditoriya qarşısında çıxış etmək imkanına görə təşəkkürümü bildirirəm.

**Moderator:** Siz körpülərin qurulması haqqında danışdınız. Rusiya-Ukrayna münaqişəsinə son qoyulması kontekstində müzakirələrdə ölkənizi necə görürsünüz? Hər hansı rolunuz və ya təklifləriniz ola bilərmi? Çünki hazırda bir sıra təkliflər və platformalar mövcuddur.

**Prezident İlham Əliyev:** Nəzəri cəhətdən bu mümkündür. Çünki Rusiya və Ukrayna ilə yanaşı, biz 70 il ərzində Sovet İttifaqının tərkib hissəsi olmuşuq. Bizim xalqlararası və siyasi səviyyədə şaxələndirilmiş münasibətlərimiz var. Bu gün bizim Rusiya və Ukrayna ilə çox yaxşı münasibətlərimiz var. Biz Ukrayna da daxil olmaqla, bütün ölkələrin ərazi bütövlüyünü və suverenliyini güclü şəkildə dəstəkləyirik.

Bununla yanaşı, biz Rusiyaya qarşı sanksiyalar kampaniyasına qoşulmamışıq və belə bir niyyətimiz yoxdur. Beləliklə, biz praqmatik münasibətlərin mövcudluğu fonunda rol oynaya bilərik. Biz heç vaxt bunun təşəbbüskarı olmamışıq, çünki bu işdə yaxından iştirak etmək istəyənlər kifayət qədərdir. Ancaq bizim iştirakımıza zərurət yaranarsa, buna hazırıq.

Burada deyə bilərəm ki, Ukrayna ərazisində qazın tranzitinin davam etdirilməsi ilə bağlı Rusiya, Ukrayna və Avropa təsisatları tərəfindən bizə müraciət edildi. Bir neçə aydır ki, biz ümumi məxrəcə gəlmək üçün böyük səylər göstəririk. Məlumdur ki, bu tranzit dayanarsa, - bu isə dekabr ayına təsadüf edəcək, - bir neçə Avropa İttifaqı ölkəsi təbii qazın fiziki əlçatanlığı ilə bağlı ciddi çətinliklərlə üzləşəcək. Biz, sadəcə, həmin ölkələri və Ukraynanı dəstəkləmək istəyirik. Çünki qazın tranziti dayandığı halda Ukraynanın qazpaylayıcı sistemi tamamilə iflic olacaqdır.

Bizdə müəyyən nikbinlik var. Çünki biz bu kontekstdə hər iki ölkə ilə təmasdayıq və görürük ki, ciddi irəliləyiş üçün zəmin var. Ancaq tərəfimdən təfərrüatların açıqlanması erkən olar. Burada uğura nail ola bilsək, zənnimcə, biz bütün regionu viran edən bu müharibəyə son qoymaq üçün əlavə addımlar ata bilərik.

**Moderator:** Yəni burada müəyyən imkanlar var?

**Prezident İlham Əliyev:** Bəli, hazırda hər iki ölkə Rusiya qazının tranziti müqaviləsinin uzadılması və Azərbaycan qazının Rusiya və Ukrayna ərazisindən Avropaya nəqli ilə bağlı müzakirələri Azərbaycan vasitəsilə aparır.

**Moderator:** Prezident Əliyev, bizimlə birlikdə olduğunuza görə Sizə təşəkkür edirəm. Ancaq Sizə bu sualı mütləq verməliyəm. Bu günlərdə ölkəniz Avropa Şurasının Parlament Assambleyasının bir sıra üzvlərini arzuolunmaz şəxs elan edib. Onların sırasında 5 italyan deputat da var. Bu, körpülərin qurulması, diplomatiyanın əhəmiyyəti və təmasların genişləndirilməsi ruhuna bir qədər ziddir.

**Prezident İlham Əliyev:** Bu suala görə təşəkkür edirəm, çünki bu məsələ ilə bağlı müəyyən anlaşılmazlıq var. Bu suala ətraflı cavab vermək üçün mən 20 il keçmişə qayıtmaq istəyirəm. Azərbaycan o zaman, 2001-ci ildə Avropa Şurasına üzv olub. O zaman parlamentin üzvü idim və Azərbaycanın Avropa Şurasının Parlament Assambleyasındakı nümayəndə heyətinin ilk rəhbəri idim. Yəni biz 2001-ci ildən etibarən orada idik. Bu illər enişli-yoxuşlu olub, əməkdaşlığımızın fəal mərhələsi də, Avropa Şurasının Parlament Assambleyası tərəfindən tənqid olduğumuz dövrlər də olub. Biz Avropa konvensiyalarının əksəriyyətinə qoşulmuşuq. Biz Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarını icra edirik və sair.

Lakin bu ilin yanvar ayında baş vermiş hadisə qırmızı xəttin keçilməsi olub. Bu, nədən baş verdi? Giriş sözümdə qeyd etdiyim kimi, ötən il suverenliyimizi tam şəkildə bərpa etdik. Ötən ilin sentyabrında Azərbaycan torpağında separatçılığın kökü kəsildi. Biz bu gün Ukraynanın etməyə çalışdığından fərqli heç bir şey etməmişik. Ukrayna bu gün Qərbin çox geniş dəstəyinə rəğmən uğursuz şəkildə ərazi bütövlüyünü bərpa etməyə çalışır. Biz özümüz isə heç bir dəstək olmadan ərazi bütövlüyümüzü bərpa etdik.

Bundan, sadəcə, bir neçə ay sonra Avropa Şurasının Parlament Assambleyası bizim nümayəndə heyətini səsvermə hüququndan məhrum etdi. Bu, suverenliyimizi bərpa etdiyimiz üçün bizə qarşı tətbiq edilən sanksiya idi. Biz öz torpağımızda döyüşdük və hər hansı təcavüzə əl atmadıq.

Buna səs verənlər bizi Avropa Şurasında görmək istəməyənlərdir. Yəni Azərbaycanın qərarı adekvat idi. Bizim qərarımız buna cavab idi. Onlar tərəfindən qərarın dəyişdiriləcəyi və bizim hüquqlarımızı bərpa etdikləri təqdirdə, gələn ilin yanvar ayında belə bir fürsət olacaqdır, bizim tətbiq etdiyimiz qadağa aradan qaldırılacaq. Mən təəssüf edirəm ki, İtaliya parlamentinin üzvləri bu qərarın lehinə səs veriblər. Səmimi desəm, mən 70-dən artıq şəxsdən ibarət bu siyahıda olanların adlarını bilmirəm. Ancaq vəziyyəti yaxşılaşdırmaq üçün imkan var. Bizim nümayəndə heyətimizin fəaliyyəti bərpa edilməlidir və o zaman bu qadağa aradan qaldırılacaq.

**Moderator:** Cavabınıza görə təşəkkür edirəm. İstənilən halda körpülərin qurulması qarşılıqlı tədbirlərin tətbiqindən daha münasib yoldur. Prezident Əliyev, bizimlə birlikdə olduğunuza görə bir daha təşəkkür edirəm.

◆ Azərbaycan Prezidenti İlham Əliyevin İtaliyaya işgüzar səfəri

# 1 nömrəli tərəfdaş təchizatçı

## Prezident İlham Əliyev Çernobbio şəhərində İtaliyanın "Ansaldo Energia" şirkətinin baş icraçı direktoru ilə görüşüb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 6-da Çernobbio şəhərində İtaliyanın "Ansaldo Energia" şirkətinin baş icraçı direktoru Fabrizio Fabbri ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, söhbət zamanı "Ansaldo Energia" şirkətinin hazırda Mingəçevirdə Azərbaycanın ən böyük istilik-elektrik stansiyasının yenidən qurulmasında iştirakı məmnunluqla qeyd olundu. Orada 1280 meqavat gücündə yeni tikilən stansiya üçün "Ansaldo Energia" şirkəti tərəfindən istehsal olunan dörd ədəd qaz turbininin Azərbaycana gətirilərək quraşdırılmaqda olduğu vurğulandı. Bildirildi ki, layihənin bu ilin sonunda və ya gələn ilin əvvəlində yekunlaşdırılması nəzərdə tutulur.

Görüşdə "Ansaldo Energia" şirkəti ilə, o cümlədən "yaşıl enerji" sahəsində fəaliyyətin həyata keçirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı. Qeyd olundu ki, bu şirkət Azərbaycanın enerji sisteminin təkmilləşdirilməsində iştirakda çox maraqlıdır. Bu xüsusda, şirkətin "Azərenerji" ASC ilə əməkdaşlıq etmək niyyətində olduğu vurğulandı.

Azərbaycanın Energetika Nazirliyi və "Azərenerji" ASC ilə "Ansaldo Energia" şirkəti arasında əməkdaşlıq haqqında müqavilələrin imzalandığı xatırlandı, birgə fəaliyyətin gələcəkdə də davam etdiriləcəyinə əminlik bildirildi.

## Prezident İlham Əliyev Çernobbio şəhərində Səudiyyə Ərəbistanı Krallığının investisiya naziri ilə görüşüb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 6-da İtaliyanın Çernobbio şəhərində Səudiyyə Ərəbistanı Krallığının investisiya naziri, Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında Hökumətlərarası Müştərək Komissiyanın həmsədri Xalid bin Əbdüləziz Əl-Falih ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Xalid bin Əbdüləziz Əl-Falih Səudiyyə Ərəbistanı Krallığının Ali rəhbərliyinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Səudiyyə Ərəbistanı Krallığının Ali rəhbərliyinə çatdırmağı xahiş etdi.

Xalid bin Əbdüləziz Əl-Falih Azərbaycana səfərlərini və dövlətimizin başçısı ilə görüşlərini məmnunluqla xatırladı.



Söhbət zamanı iki ölkə arasında xüsusilə enerji sektorunda əməkdaşlıq məsələləri, o cümlədən Səudiyyə Ərəbistanı Krallığının "Acwa Power" şirkətinin fəaliyyəti müzakirə olundu. Hazırda Azərbaycanda və regionda ən böyük külək enerjisi stansiyasının tikintisinin davam etdirildiyi qeyd olundu, gələn ilin sonunda həmin stansiyanın istifadəyə veriləcəyi bildirildi. "Acwa Power" şirkəti ilə Azərbaycanın Energetika Nazirliyi arasında ölkəmizdə ilk dəfə 200 MVa saxlama güclərinin yaradılması ilə bağlı razılaşmaya uyğun olaraq birgə fəaliyyətin həyata keçirildiyi vurğulandı, bu işlərin COP29-dək başa çatdırılmasının nəzərdə tutulduğu qeyd edildi.

Görüşdə "Acwa Power" şirkətinin Azərbaycandan Avropaya "yaşıl enerji"nin ixracı sahəsində əməkdaşlıqda maraqlı olduğu diqqətə çatdırıldı. Bununla bağlı Azərbaycanın Energetika Nazirliyi və "Acwa Power"in Xəzər dənizində külək enerjisi layihələri üzərində iş apardıqları qeyd edildi, bunun da növbəti mərhələdə "yaşıl enerji"nin ixracı üçün mənbə kimi rol oynayacağı vurğulandı.

## Prezident İlham Əliyevin İtaliyaya işgüzar səfəri başa çatıb

**Sentyabrın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliyaya işgüzar səfəri başa çatıb.**

AZƏRTAC xəbər verir ki, Milanın Malpensa Hava Limanında Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı İtaliyanın rəsmi şəxsləri yola saldılar.




## Azərbaycan-İtaliya iqtisadi əlaqələri: öndə enerji tərəfdaşlığıdır

**Azərbaycan və İtaliya arasında iqtisadi əlaqələr getdikcə genişlənir. Bunu ilk növbədə iki ölkə arasında ticarət dövriyyəsini əks etdirən rəqəmlərdən görmək olur. Keçən il Azərbaycanın İtaliya ilə ticarət dövriyyəsinin həcmi 15,7 milyard dollar olub ki, bunun da əsasını ölkəmizin ixracatı təşkil edib. Bu ilin yanvar-iyul aylarında isə ticarət dövriyyəsinin həcmi 6,2 milyard dollara çatıb.**

İtaliyanın Cənubi Qafqaz ölkələri arasında əsas ticarət tərəfdaşı Azərbaycandır. Belə ki, onun Cənubi Qafqaz ölkələri ilə ticarət dövriyyəsinin 85 faizi Azərbaycanın payına düşür.

İqtisadi əməkdaşlıq bir sıra sahələri əhatə etsə də, öndə enerji tərəfdaşlığıdır. Prezident İlham Əliyevin İtaliyaya işgüzar səfəri bu tərəfdaşlığın inkişafına yeni bir təkan verəcək. Belə ki, yeni layihələr üçün yollar açılır. Əməkdaşlığın bünövrəsi möhkəm olduğuna görə perspektivlər də böyük, gözləntilər də çoxdur. Məlumdur ki, İtaliya xeyli vaxtdır Azərbaycandan xam neft və neft məhsullarının ixracında ən iri ticarət tərəfdaşına çevrilib. Son illərin ən möhtəşəm meqalayihələrindən olan "Cənub qaz dəhlizi"nin axırıncı məntəqəsi də məhz İtaliyadır. Yəni bu dəhliz Azərbaycandan başlayaraq Gürcüstanın,Türkiyənin, Yunanıstanın, Albaniyanın ərazisindən və Adriatik dənizinin altından 3500 kilometr yol keçərək İtaliya torpağına çatır və orada bu ölkənin "Snam Rete Gas" şirkətinin istismar etdiyi qaz nəqliyyatı şəbəkəsi ilə birləşir.

"Cənub qaz dəhlizi"nin sonuncu seqmenti olan TAP (Trans-Adriatik Qaz Boru Kəməri) ölkələrimiz arasında enerji əməkdaşlığını möhkəmləndirən vacib amildir. Bu kəmər 2020-ci il dekabrın 31-dən qaz nəql edir və İtaliyanın enerji təhlükəsizliyinə öz töhfəsini verir. Təkcə keçən il TAP-la İtaliyaya təqribən 10 milyard kubmetr qaz ixrac olunub. Qeyd edək ki, ölkəmizlə Avropa İttifaqı arasında əldə edilən razılaşmaya əsasən, 2027-ci ilə qədər Azərbaycan qazının tədarükü ildə azı 20 milyard kubmetrə çatmalıdır. Bu həcmin Avropaya ixrac edilməsində "Cənub qaz dəhlizi"nin ayrılmaz hissəsi - TAP-ın da rolu böyük olacaq. Onu da xatırladaq ki, indi bu dəhliz yeni interkonnektorlarla şaxələnir və nəticədə Azərbaycandan qaz alan ölkələrin də sayı getdikcə artır.

Təsadüfi deyil ki, bu il sentyabrın 5-də Romada Prezident İlham Əliyevin İtaliya Respublikası Nazirlər Şurasının sədri Ciorcia Meloni ilə görüşündə də enerji sahəsində ikitərəfli əməkdaşlıqdan məmnunluq ifadə edilib. Bu xüsusda TAP layihəsinin əhəmiyyətinə, kəmərin İtaliyanın və Avropa ölkələrinin enerji təhlükəsizliyində roluna toxunulub, xəttin ötürücülük qabiliyyətinin artırılması barədə fikir mübadiləsi aparılıb.

İtaliya Nazirlər Şurasının sədri COP29-un uğurla keçirilməsi üçün ölkəsinin Azərbaycana bütün lazımi dəstəyi göstərməyə hazır olduğunu da vurğulayıb. Söhbət zamanı həmçinin İtaliyanın "Eni S.P.A" şirkəti ilə SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) arasında yeni əməkdaşlıq sahələrinin müəyyən olunması məmnunluqla qeyd edilib, bu şirkətlərin üçüncü ölkələrdə birgə layihələrdə iştirakı məsələsi barədə fikir mübadiləsi aparılıb. Dövlətimizin başçısının "Eni S.P.A" şirkətinin baş icraçı direktoru Klaudio Deskalzi ilə görüşündə də neft-qaz, bərpaolunan enerji və iqtisadiyyatın müxtəlif sahələrində yeni texnologiyaların tətbiqi istiqamətində əməkdaşlığın genişləndirilməsi və şaxələndirilməsi ilə bağlı məsələlər müzakirə edilib.

Qeyd edək ki, "Eni"ni Azərbaycanda yaxşı tanıyırlar. "Əsrin müqaviləsi" çərçivəsində ölkəmizdə aparılan işlərin müxtəlif mərhələlərində bu şirkət fəal iştirak edib. Ən mühüm faktlardan biri də budur ki, "Eni" Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin səhmdarlarından biridir və layihədə 5 faizlik iştirak payına malikdir.

Sentyabrın 5-də Romada Azərbaycan ilə İtaliya arasında imzalanmış sənədlərin mübadiləsi göstərdi ki, bu şirkətlə əməkdaşlıq və tərəfdaşlığımız daha geniş sahələri əhatə edəcək. Belə ki, "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə İtaliya Respublikasının "Eni S.P.A" şirkəti arasında bioyanacaq və bioxammal sahəsində Anlaşma Memorandumu" mübadiləsi olub. "Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə İtaliya Respublikasının "Eni S.P.A" şirkəti arasında enerji təchizatı təhlükəsizliyi məqsədilə hasilat və midstrim sahəsində neft-qaz layihələri üzrə əməkdaşlıq haqqında Anlaşma Memorandumu" da mübadilə edilib. Mübadilə edilən sənədlər sırasında "Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə İtaliya Respublikasının "Eni S.P.A" şirkəti arasında enerji keçidi və istixana qazlarının azaldılması sahəsində Anlaşma Memorandumu" da özünə yer alıb.

Ümumiyyətlə, İtaliya işgüzar dairələri ölkəmizə böyük məbləğdə sərmayələr qoyur, həyata keçirilən bir sıra beynəlxalq əhəmiyyətli layihələrdə iştirak edirlər. Hazırda Azərbaycanda 100-dən çox İtaliya investisiyalı kommersiya qurumu sənaye, kənd təsərrüfatı, nəqliyyat, tikinti, ticarət, xidmət və digər sahələrdə fəaliyyət göstərir. Təqdirəlayiq haldır ki, düşmən tapdağından azad etdiyimiz Qarabağ və Şərqi Zəngəzurda bərpa və quruculuğa start verilən ilk vaxtlatdan bu işlərdə İtaliya şirkətləri də fəal iştirak edirlər. Bu faktın özü də getdikcə inkişaf edən iqtisadi əməkdaşlığın parlaq bir nümunəsidir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## "Azərbaycan-İtaliya münasibətləri yüksək səviyyədədir"

**"Prezident İlham Əliyevin İtaliyaya səfəri Azərbaycan-İtaliya strateji əməkdaşlığında yeni bir səhifə açır və əlaqələrin möhkəmləndirilməsi yalnız iki ölkənin deyil, böyük coğrafiyanın maraqlarının təmin edilməsinə hesablanıb. Son illər ölkələr arasında bütün istiqamətlərdə yaxşı nəticələr əldə edilib ki, bu da xalqların milli mənafeyinə xidmət edir".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında VI çağırış Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev deyib. O bildirib ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan sağlam münasibətlər bu gün strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. "İqtisadi əməkdaşlıq haqqında Birgə Bəyanat", "İnvestisiyanın qorunması və həvəsləndirilməsi haqqında müqavilə" iki ölkə arasında iqtisadi münasibətlərin inkişafına təkan verərək ötən illərdə bir sıra mühüm sazişlərin, sənədlərin imzalanmasına zəmin yaradıb.

Bu əməkdaşlıq cənab İlham Əliyevin rəhbərliyi dövründə daha da genişləndirilib və özünün ən yüksək mərhələsinə qədəm qoyub: "2020-ci ildə dövlət başçısının İtaliyaya rəsmi səfəri zamanı imzalanmış strateji tərəfdaşlığa dair Birgə Bəyannamə əlaqələrin möhkəmləndirilməsində mühüm əhəmiyyət kəsb edir. İtaliya Prezidenti Sercio Mattarella ilə görüşdə İlham Əliyev sağlam əməkdaşlığa böyük önəm verərək, İtaliyanın Avropada Azərbaycanın əsas ticarət tərəfdaşı olduğunu qeyd edib", - deyə müsahibimiz əlavə edib.

T.Rzayev qeyd edib ki, İtaliya ilə son 10 ildə ticarət dövriyyəsinin dəyəri 2 dəfə artaraq 17 milyard dollara çatıb. Keçən il ölkələr arasında ticarət dövriyyəsinin həcmi 15 milyard 685 milyon ABŞ dolları təşkil edib. Hesabat dövründə Azərbaycandan İtaliyaya 15 milyard 208 milyon dollar dəyərində məhsul göndərilib. Enerji sahəsində əməkdaşlığın vacibliyi, neft şirkətləri arasında bağlanan müqavilələrin davamlı olması hər iki ölkə üçün faydalıdır. Bu gün TAP layihəsi həm İtaliyanın, həm də Avropa İttifaqının enerji təhlükəsizliyində mühüm əhəmiyyətə malikdir və Avropanın 10 ölkəsinin enerji təchizatında mühüm rol oynayır. 2021-ci ildə Azərbaycan TAP qaz kəməri ilə İtaliyaya 7 milyard kubmetrə yaxın qaz nəql edib və İtaliyanın qaz bazarında üçüncü tərəfdaş olub. Ötən il isə İtaliyaya təqribən 10 milyard kubmetr qaz ixrac olunub və Avropa İttifaqı arasında əldə edilən razılaşmaya əsasən, 2027-ci ilə qədər Azərbaycan qazının tədarükü ildə ən azı 20 milyard kubmetrə çatmalıdır".

Tahir Rzayev onu da vurğulayıb ki, İtaliya şirkətləri ilə bir çox sahədə - kənd təsərrüfatı, nəqliyyat, turizm, şəhərsalma, ərazilərin minadan təmizlənməsi, yeni texnologiyaların tətbiqi, infrastrukturun bərpası istiqamətində sənədlərin imzalanması perspektivli gələcək əməkdaşlıqdan xəbər verir: "İtaliya etibarlı tərəfdaşdır. Bu, 44 günlük müharibə, 23 saatlıq antiterror tədbirlərində özünü aydın göstərdi və dost dövlət hər zaman Azərbaycanın haqlı mübarizəsinə dəstək verməklə özünün mənəvi köməyini əsirgəmədi. Bu dəstək işğaldan azad olunmuş ərazilərdə görülən işlərdə də ifadəsini tapır. Cənab İlham Əliyevin İtaliyaya budəfəki səfəri iki ölkə arasında münasibətləri yeni müstəviyə yüksəldəcək, həm iqtisadi inkişafımızın, həm milli təhlükəsizliyimizin təmin edilməsi baxımından uğurlu mərhələnin yeni təməlini qoyacaq".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***



# İtaliya və Türkiyə mediaları Prezident İlham Əliyevin bu ölkəyə səfərini geniş işıqlandırıblar




İtaliyanın aparıcı mətbu orqanları Azərbaycan Prezidenti İlham Əliyevin bu ölkəyə işgüzar səfərini geniş işıqlandırıb.

AZƏRTAC xəbər verir ki, "Agenzia Nova", "Giornale Diplomatico", "Agenpress", "Il Sole 24 Ore", "Askanews", "Italpress", "il Giornale", "La Presse", "Agenzia Vista", "Quotidiano Nazionale", "Tutt Oggi", "Borsa Italiana" və digər kütləvi informasiya vasitələrində yayılan məlumatlarda Prezident İlham Əliyevin Romanın "Quirinale" Sarayında İtaliya Prezidenti Sercio Mattarella ilə görüşdüyü bildirilib. Diqqətə çatdırılıb ki, görüşdə iki ölkə arasında münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığı və çoxşaxəli əməkdaşlığı ehtiva etdiyi vurğulanıb.

Bildirilir ki, İtaliya Avropada Azərbaycanın əsas ticarət tərəfdaşıdır, iki ölkə arasında enerji sahəsində əməkdaşlıq xüsusi əhəmiyyət kəsb edir. TAP layihəsinin Avropanın, o cümlədən İtaliyanın enerji təhlükəsizliyində mühüm rol oynadığı qeyd olunur. Humanitar və mədəni əlaqələrin, eyni zamanda İtaliya - Azərbaycan Universitetinin fəaliyyətinin əhəmiyyəti bildirilib.

Noyabrda Azərbaycanın evsahibliyi edəcəyi COP29-un çox əhəmiyyətli tədbir olduğu və İtaliyanın beynəlxalq tədbirdə yüksəksəviyyəli nümayəndə heyəti ilə təmsil olunacağı diqqətə çatdırılır.

Məlumatlarda Prezident İlham Əliyevin həmin gün Romanın "Chigi" Sarayında İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloni ilə görüş keçirdiyi bildirilib. Vurğulanıb ki, görüşdə İtaliya-Azərbaycan ikitərəfli münasibətlərinin gündəliyindəki məsələlərə dair ətraflı müzakirələr aparılıb, iki ölkə arasında yeni əməkdaşlıq istiqamətləri müəyyənləşdirilib. Ölkələrimiz arasında ikitərəfli əlaqələrin bütün sahələr üzrə inkişaf perspektivlərinə dair müzakirələr olub.

Yazılarda qeyd olunur ki, Prezident İlham Əliyevlə Ciorcia Meloninin görüşündə İtaliyanın və Avropa ölkələrinin enerji təhlükəsizliyində mühüm rol oynayan TAP boru kəmərinin ötürücülük qabiliyyətinin artırılması barədə fikir mübadiləsi aparılıb. ADA Universiteti ilə İtaliyanın beş universiteti arasında birgə layihə çərçivəsində yaradılan İtaliya-Azərbaycan Universitetinin xüsusi önəm daşıdığı qeyd olunub.

Diqqətə çatdırılıb ki, Ciorcia Meloni COP29-un uğurla keçirilməsi üçün İtaliyanın Azərbaycana bütün lazımi dəstəyi göstərməyə hazır olduğunu vurğulayıb.

Yazılarda həmçinin qeyd olunub ki, Azərbaycan Prezidenti İlham Əliyev Romada İtaliyanın "Eni S.P.A" şirkətinin baş icraçı direktoru Klaudio Deskalzi ilə görüşüb, SOCAR ilə "Eni" arasında əməkdaşlığın genişləndirilməsinə dair fikir mübadiləsi aparılıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Dünya, Avropa və İtaliya haqqında bilgilər" mövzusuna həsr olunmuş Beynəlxalq Çernobbio Forumunda "Yeni geosiyasi şəraitdə Azərbaycanın rolu" adlı sessiyada çıxışı Türkiyənin aparıcı media qurumları tərəfindən geniş işıqlandırılıb.

AZƏRTAC xəbər verir ki, Anadolu agentliyi, "TRT", "Haber Global, "Sözcü", "Sputnik Türkiyə", "Haberler.com", "Son dakika", "Star.com" kimi bir sıra media qurumları, "Milliyet", "Cumhuriyyet", "Yeni Şafak" qəzetləri, eləcə də bir çox müxtəlif formatda fəaliyyət göstərən media qurumları dövlətimizin başçısının səfərinə diqqət ayırıb.

"Əliyev Ermənistanla sülh sazişinin mətninin 80 faizini razılaşdırdıqlarını bildirib", "Azərbaycan Prezidenti İlham Əliyev: Sülh sazişi mətninin 80 faizi üzrə razılıq əldə olunub", "Əliyevdən "Ermənistan" mesajı: Biz 80 faizlə razılaşdıq", "Əliyev açıqladı: Ermənistanla sülh sazişi mətninin 80 faizi ilə bağlı razılıq əldə edilib" və digər sərlövhələrlə yayımlanan xəbərlərdə Prezident İlham Əliyevin forumdakı çıxışına istinadlar edilib.

Yazılarda Azərbaycan Prezidentinin çıxışından sitatlar gətirilərək "Azərbaycandan İtaliyayadək uzanan, "Cənub qaz dəhlizi" adlanan 3500 kilometrlik inteqrasiya edilmiş boru kəməri sistemi bu gün 10 ölkənin enerji təhlükəsizliyini təmin edir. Hazırda 10 ölkə Azərbaycandan qaz alır və onlardan 7-si Avropa İttifaqının üzvüdür", "biz Cənubi Qafqazda sülhə nail ola bilərik. Bu, mümkündür - Azərbaycan və Ermənistan arasında sülh danışıqları çərçivəsində baş verən hadisələr, sülh müqaviləsinin bəndlərinin təqribən 80 faizinin razılaşdırılması, sərhədlərin delimitasiyası prosesinin başlanması və hətta kiçik addım hesab oluna bilən 13 kilometrlik hissəsinin demarkasiyasının,- halbuki sərhədin uzunluğu 1000 kilometrdən artıqdır, - özü belə düzgün istiqamətdə atılan addımdır", "İtaliya Azərbaycanın dünyada bir nömrəli ticarət tərəfdaşıdır. Ötən il bizim ticarət dövriyyəmiz 16 milyard ABŞ dollarına yaxın olub. Biz artım üçün potensialı yalnız enerji sektorunda deyil, digər sahələrdə də görürük. Azərbaycan İtaliyanın bir nömrəli neft və ikinci ən böyük qaz təchizatçısıdır. Bu da bizim əməkdaşlığımızın vacib hissəsidir", "Bizim beynəlxalq səviyyədə tanınmış ərazilərimiz 30 il ərzində Ermənistanın işğalı altında idi", "O zaman işğal altında olan ərazilərimizin böyük hissəsi 2020-ci ildə 44 günlük Vətən müharibəsi nəticəsində azad edildi. Lakin məsələ bununla bitmədi, çünki separatçılar Azərbaycanın suverenliyinə xələl gətirməyə davam edirdilər.

Bu məsələdə sonuncu nöqtə ötən ilin sentyabrında qoyuldu və Azərbaycanın suverenliyi tam şəkildə bərpa edildi. Münaqişəyə, nəhayət, son qoyuldu və bu, məhz belə də olmalı idi" - kimi ifadələrə xüsusi vurğu edilib.

Xəbərlərdə Avropanın enerji təhlükəsizliyində Azərbaycanın rolu, Azərbaycan ilə İtaliya arasında strateji tərəfdaşlıq, Cənubi Qafqazda daimi sülhün təmini, Azərbaycan və Ermənistan arasında sülh danışıqlarında yeni hadisələr kimi altbaşlıqlardan istifadə edilib.

# İtaliya Azərbaycan ilə uzun perspektivdə siyasi, iqtisadi və mədəni əlaqələrini qoruyub saxlamaqda davam edəcək

**"Azərbaycan-İtaliya siyasi əlaqələri strateji əməkdaşlığa və qarşılıqlı maraqlara əsaslanan uzunmüddətli tərəfdaşlıqla xarakterizə edilir. Prezident İlham Əliyevin 2022-ci ildə İtaliyaya rəsmi səfəri bu əlaqələrin daha da dərinləşməsində mühüm rol oynayıb. İki ölkə arasında mövcud olan strateji tərəfdaşlıq sazişi 2014-cü ildə imzalanıb. Dövlətimizin başçısının 2022-ci ildə İtaliyaya səfəri zamanı bu tərəfdaşlıq daha da gücləndirilib və iki ölkə arasında yeni sahələrdə əməkdaşlıq perspektivləri müzakirə olunub".**

Bu fikirləri AZƏRTAC-a Yəhudi Media Mərkəzinin politoloqu Rüstəm Tağızadə söyləyib.

Politoloq qeyd edib ki, İtaliya Azərbaycanın enerji resurslarının Avropaya çatdırılmasında əsas tranzit və istehlakçı ölkələrdən biridir. Xüsusilə "Cənub qaz dəhlizi" layihəsi çərçivəsində İtaliya Azərbaycan qazının Avropaya nəqlində strateji mövqeyə malikdir. 2022-ci ildə baş tutan səfərdə enerji əməkdaşlığının davam etdirilməsi və genişləndirilməsi üzrə geniş müzakirələr aparılıb.

Prezident İlham Əliyevin İtaliyaya səfəri zamanı iki ölkə arasında ticarət dövriyyəsinin artırılması, yeni iqtisadi layihələrin həyata keçirilməsi və sənaye sahələrində əməkdaşlıq perspektivlərinin müzakirə edildiyini xatırladan R.Tağızadə rəsmi Romanın Azərbaycanın ən böyük ticarət tərəfdaşlarından biri olaraq qaldığını vurğulayıb.

Politoloq İtaliyanın Avropa İttifaqı çərçivəsində Azərbaycanla əlaqələri daha da gücləndirmək niyyətində olduğunu vurğulayıb.

2018-ci ildə iki ölkə arasında kənd təsərrüfatı və təhsil sahələrində mühüm sənədlərin imzalandığını xatırladan politoloq deyib: "İtaliya şirkətlərinin işğaldan azad edilmiş ərazilərdə aktiv fəaliyyəti iki ölkə arasında münasibətlərin nə dərəcədə dərin olduğunun bariz nümunəsidir. Prezident İlham Əliyev Azərbaycanda bərpaolunan enerji, külək, günəş və su-elektrik stansiyalarının qurulmasında daha çox İtaliya şirkətini ölkəmizə dəvət etmək üçün böyük planların olduğunu vurğulayıb. İtaliya şirkətlərinin Azərbaycan tərəfindən maliyyələşdirilən və ölkəmizdə icra etdiyi müqavilələrin dəyərinin 10 milyard dollardan çox olduğu bildirilir", - deyə R.Tağızadə vurğulayıb.



Budəfəki səfərin İtaliya Prezidenti Sercio Mattarellanın dəvəti ilə baş tutduğunu qeyd edən politoloq deyib: "Hesab edirəm ki, budəfəki səfər münasibətlərdə yeni səhifə açacaq. Əsas ticarət tərəfdaşlarımızdan olan İtaliya Azərbaycanla uzun perspektivdə siyasi, iqtisadi və mədəni əlaqələrini qoruyub saxlamaqda davam edəcək. İki ölkə arasında münasibətlər bütün Avropa və Qafqaz ölkələrinin inkişafına töhfə verəcək. Avropada ölkəmizə qarşı qərəzli mövqe tutan dövlətlər bilməlidir ki, Azərbaycan Cənubi Qafqazın inkişaf edən lider dövləti olaraq qalmaqdadır".

# _Bağdad AMREYEV:_ "Azərbaycan xalqının Qələbəsi türk ölkələrinin birliyinin mühüm katalizatoru oldu"

**"Astana Finance Days" (AFD) illik maliyyə konfransı zamanı beynəlxalq münasibətlər və diplomatiya sahəsindəki zəngin təcrübəsinə əsaslanan Türk İnvestisiya Fondunun prezidenti Bağdad Amreyev türk dünyasının və planetimizin gələcəyi, inteqrasiya və inkişaf prosesində yeni investisiya fondunun əsas rolu ilə bağlı öz vizyonunu təqdim edib. Sürətlə dəyişən qlobal mənzərə kontekstində Türk İnvestisiya Fondu türk dünyası ölkələrinin iqtisadi əməkdaşlığı və inkişafı üçün əsas alətə çevrilmək niyyətindədir. Forum çərçivəsində AZƏRTAC-a verdiyi eksklüziv müsahibəsində fondun prezidenti türk ölkələrinin inteqrasiyası və onların dünya miqyasında artan nüfuzu ilə bağlı iddialı planları açıqlayır.**



*- Türk İnvestisiya Fondunun yaradılmasının əsas məqsəd və vəzifələri hansılardır?*

- Yekun məqsəd türk ölkələrinin inteqrasiyasıdır. Biz ilk növbədə bu inteqrasiya yolunda ümumi iqtisadi potensialımızı birləşdirmək, biznes icmalarımız üçün ən əlverişli şərait yaratmaq və əlaqələrimizi ən yaxşı şəkildə gücləndirən birgə müəssisələr təsis etməklə irəliləyirik. Fond türk ölkələrinin iqtisadiyyatına əhəmiyyətli maliyyə resursları axınını stimullaşdırmaqla, xarici investisiyaların cəlb edilməsi istiqamətində fəal iş aparacaq.

*- Türk İnvestisiya Fondunun yaradılması ideyası necə yarandı?*

- Türk İnvestisiya Fondunun yaradılması ideyası 2014-cü ildə Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən irəli sürülüb. Bu gün biz dövlətlərimizin ümumi arzusunu reallaşdırmaqla bu ideyanı həyata keçirmişik.

Biz tez-tez türk mədəniyyətindən, kimliyindən, coğrafiyasından, tarixindən danışırıq, ortaq irsimizi önə çəkirik. Əsas vəzifəmiz bu ümumi irsi gücləndirmək və inkişaf etdirmək, inteqrasiyanı təşviq etmək və türk ölkələrinin qlobal kontekstdə uğurlu tərəqqisinə nail olmaqdır. Türk İnvestisiya Fondunun yaradılması bu istiqamətdə iqtisadi əməkdaşlığın və xalqlarımızın ümumi rifahının stimullaşdırılmasına hesablanmış mühüm addımdır.

*- Fondun hazırkı fəaliyyəti və onun əməli işinin nə vaxt başlanması barədə ətraflı məlumat verərdiniz. Bu qurumun fəaliyyətinə başlamaq üçün hansı addımlar atılıb?*

- Liderlərimiz fonda böyük əhəmiyyət verirlər və bu da səbəbsiz deyil. Fond artıq qanuni olaraq yaradılıb və biz onun əməliyyat fəaliyyətinin cari ilin noyabr-dekabr aylarında başlayacağını gözləyirik.

Bu, dəqiq olaraq nə deməkdir? Layihələrin maliyyələşdirilməsinə başlamağı planlaşdırırıq. Əlbəttə, bu, iddialı hədəfdir, lakin biz ona nail olmaq üçün çox çalışırıq. Bunun üçün biz bütün lazımi hüquqi baza yaratmışıq: normativ sənədlər və normativ əsasnamələrin hamısı qəbul edilib, təşkilati struktur təsdiq olunub.

Qeyd etmək vacibdir ki, biz artıq baş direktor - Azərbaycandan Ramil Babayevi təyin etmişik. Hazırda idarəetmə komandasını formalaşdırır və fəaliyyətimizin əsas istiqaməti olan investisiya siyasətini işləyib hazırlayırıq.

Beləliklə, fond rekord müddətdə formalaşıb və tezliklə tam tərkibdə fəaliyyətə başlayacaq.

*- Hansı sahələr və fəaliyyət istiqamətləri prioritet olacaq? Sizcə, regionun digər maliyyə institutları ilə müqayisədə bu fondu unikal edən nədir?*

- Layihələrə gəlincə, bizim yanaşmamız çoxvektorludur və müxtəlif sahələri əhatə edir. Müxtəlif təşəbbüsləri maliyyələşdirməyi planlaşdırırıq, lakin birgə müəssisələrə xüsusi diqqət yetiriləcək. Kiçik və orta biznes ilkin mərhələdə daha çox dəstək alacaq. Biz ölkələrimizin ümumi potensialının üzə çıxarılmasına kömək edəcək istənilən layihəyə açığıq. Bunlar təkcə birgə müəssisələr deyil, həm də dövlətlərimizin maraqlarına cavab verən digər təşəbbüslər də ola bilər.

Bizim fəaliyyət sahələrimiz sənaye, ticarət, kənd təsərrüfatı, innovasiyalar, elm və texnologiya, rəqəmsallaşma - bir sözlə, ümumi inkişafımıza töhfə verə biləcək bütün istiqamətləri əhatə edir.

Başa düşmək lazımdır ki, fondun məqsədi təkcə maliyyə layihələri ilə məhdudlaşmır. Bunun üçün artıq ölkələrimizin çoxlu fondları, bankları var, hökumətlər xüsusi büdcələr ayırır. Bizim missiyamız ümumi maraqlar üçün çalışmaq, müəssisələr yaratmaq, ümumi potensial formalaşdırmaq və ölkələrimizi gücləndirməkdir.

*- Sizcə, türk dünyasının qlobal geosiyasətdə rolunun güclənməsinə konkret hansı hadisə və ya amillər təsir edib?*

- Son illər türk ölkələrinin artan birliyini müşahidə edirik. Onlar getdikcə daha çox əlaqələndirilmiş hərəkətlər nümayiş etdirir və ümumi problemləri birgə həll edirlər. Vurğulamaq istəyirəm ki, türk ölkələri dünya miqyasında önəmli aktora çevrilir, türk faktoru isə yeni geosiyasi reallıq olur.

Bunu hamı qəbul edir - dostlarımız, rəqiblərimiz, qonşularımız və tərəfdaşlarımız. Türk dövlətləri, həqiqətən də, beynəlxalq münasibətlərin nüfuzlu iştirakçılarına çevriliblər.

Türk ölkələrinin birliyinin mühüm katalizatoru Azərbaycan xalqının Qələbəsi və işğal altında olan Qarabağın azad edilməsi oldu. Bu hadisə birliyə yeni təkan verdi, türk ölkələrinin potensialını gücləndirdi, xalqlarımızı ruhlandırdı və türk dünyasının dünya səhnəsində əsas aktorlardan birinə çevrilə biləcəyinə inamı gücləndirdi.

*- Türk İnvestisiya Fondu Orta dəhliz layihəsində hansı rolu oynaya bilər? Bəs bu dəhliz türk ölkələri arasında iqtisadi əlaqələrin gücləndirilməsi üçün nə dərəcədə vacibdir?*

- Orta dəhlizə gəlincə, bu, bizim əsas prioritetlərimizdən biri olaraq qalır. Türk İnvestisiya Fondu zərurət yarandıqda, şübhəsiz ki, onun inkişaf prosesində iştirak edəcəkdir. Bu dəhliz türk ölkələrinin ümumi potensialının gücləndirilməsi istiqamətində səylərimizin ən mühüm istiqamətlərindən birini təşkil edir. Onun iqtisadi əməkdaşlığımız və inteqrasiyamız üçün əhəmiyyəti çox böyükdür.

Əminik ki, Orta dəhliz təkcə türk dünyasının deyil, bütün Avrasiya regionunun inkişafında mühüm amilə çevriləcək.

# _Polkovnik:_ "Vətən müharibəsindən sonra Ermənistandan Qarabağa alternativ torpaq yolu çəkilmişdi"

*"Vətən müharibəsindən sonra Ermənistandan Qarabağa qanunsuz silah-sursat, şəxsi heyət, yanacaq və minaların daşınması üçün Şuşa şəhərindən yan keçən alternativ torpaq yolu çəkilmişdi. Bir çoxu 2021-ci ildə, yəni Vətən müharibəsindən sonra Ermənistanda istehsal edilmiş minalar əsasən yaşayış məntəqələrinə və qəbiristanlıqlara yaxın ərazilər, meşəliklər və magistral yollarda, həmçinin təmas xəttinin 2 kilometr genişliyində 100 kilometrə yaxın ərazilərdə basdırılmışdı".*

AZƏRTAC xəbər verir ki, bunu Müdafiə Nazirliyinin idarə rəisi polkovnik Anar Eyvazov antiterror əməliyyatının uğurla başa çatmasının birinci ildönümü ilə bağlı nazirliyin saytına müsahibəsində bildirib.

Onun sözlərinə görə, Ermənistan silahlı qüvvələrinin qalıqları tərəfindən erməniəsilli Azərbaycan sakinlərinin məskunlaşdığı yaşayış məntəqələrində döyüş texnikalarının yerləşdirilməsi, həmin yaşayış məntəqələrinin ətrafında uzunmüddətli atəş mövqelərinin qurulması və bölmələrimizin atəşə məruz qalması, hədə-qorxu gəlməklə erməniəsilli mülki sakinlərin silahlanmaya məcbur edilməsi və ordumuzun bölmələrinə qarşı silahlı təxribatlara təhrik edilməsi barədə məlumat əldə edilmişdi.

Polkovnik qeyd edib ki, Qarabağ iqtisadi zonasında fəaliyyət göstərən mühüm strateji infrastruktur obyektlərinin, su anbarlarının, körpülərin, iaşə və istehsal obyektlərinin partladılması məqsədilə təxribat-diversiya planları, dağlarda, meşələrdə və strateji yüksəkliklərdə qeyri-qanuni erməni silahlı dəstələrinin gizlənməsi və tərtiblənərək mövqelər qurması, həmçinin azad edilmiş ərazilərə qayıdan azərbaycanlı ailələrin, həmçinin tikinti-quruculuq işlərində çalışan mütəxəssislərin qeyri-qanuni erməni silahlı dəstələrinin təxribat-diversiya aktlarına və artilleriya atəşinə məruz qalacağı barədə də kifayət qədər məlumatlar var idi. 480 kilometrə qədər təmas xətti boyu bölmələrimizin və mülki sakinlərimizin hərəkətini izləmək məqsədilə Ermənistan silahlı qüvvələrinə məxsus 200-dən artıq müşahidə kamerasının quraşdırıldığı ordumuzun kəşfiyyat vasitələri tərəfindən müəyyən olunmuşdu.

"Narahatlıq doğuran daha bir məsələ isə Ermənistan silahlı birləşmələrinin qalıqlarının qaldığı ərazilərdə "Voma", "Yerkrapah" "Artsiv-30-Ararat" terror təşkilatları və "İşığın ordusu", "Qırmızı beretlilər 5165", "Erməni qartalları", "Aramo 114" könüllü dəstələrinin 11 təlim və tədris mərkəzində döyüş hazırlığı və atış çalışmalarına cəlb edilməsi idi.

Yəni biz düşmənin hər bir addımından xəbərdar idik və münasib məqamı gözləyirdik. İmkan, şərait yarandı, vaxt yetişdi və Ali Baş Komandan tərəfindən tapşırıq verildi. Ali Baş Komandan nəyin nə vaxt ediləcəyini yaxşı bilirdi. Silahlı Qüvvələrimiz isə dövlət başçısının tapşırığını uğurla, inamla və qısa zamanda yerinə yetirdi", - deyə Anar Eyvazov vurğulayıb.

# _Anar EYVAZOV:_ "Ermənistanın təxribatları antiterror əməliyyatının keçirilməsini labüd etmişdi"

**"Özündə kapitulyasiya aktını ehtiva edən üçtərəfli Bəyanatın imzalandığı vaxtdan 2023-cü ilin sentyabr ayınadək olan dövrdə Ermənistan tərəfindən həyata keçirilən təxribatlar antiterror əməliyyatının keçirilməsini labüd etmişdi".**

AZƏRTAC xəbər verir ki, bunu Müdafiə Nazirliyinin idarə rəisi polkovnik Anar Eyvazov antiterror əməliyyatının uğurla başa çatmasının birinci ildönümü ilə bağlı nazirliyin saytına müsahibəsində bildirib.

"Sentyabrın 19-da ölkəmizin dövlət qurumlarına məxsus iki nəqliyyat vasitəsinin qeyri-qanuni erməni silahlı dəstələrinin kəşfiyyat-diversiya qrupları tərəfindən Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda əvvəlcədən quraşdırılmış minalara düşərək partlaması nəticəsində polis əməkdaşları, mülki vətəndaşlarımız və hərbi qulluqçularımız həlak oldu və yaralandı. Ali Baş Komandanın göstərişi ilə üçtərəfli Bəyanatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin bölmələrinin tərk-silah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa və quruculuq işlərinə cəlb olunmuş mülki işçilərin, hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə Silahlı Qüvvələrimiz tərəfindən Qarabağ iqtisadi rayonunda antiterror əməliyyatı keçirildi. Əməliyyat çərçivəsində Ermənistan silahlı qüvvələrinin birləşmələrinin qalıqlarının və qeyri-qanuni erməni silahlı dəstələrinin ön xətt və dərinlikdə olan mövqeləri, uzunmüddətli atəş nöqtələri, eləcə də döyüş vasitələri və digər legitim hərbi hədəfləri yüksək dəqiqliyə malik silahların tətbiqi ilə sıradan çıxarıldı. Qanunsuz silahlı qruplaşmaların tərk-silah edilməsi və separatçı rejimin ləğvi nəticəsində Qarabağ iqtisadi rayonu üzərində Azərbaycanın suverenliyi tam bərpa olundu", - deyə polkovnik diqqətə çatdırıb.

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 394 **QƏRAR** Bakı şəhəri, 5 sentyabr 2024-cü il

## N.Y.Kəngərlinin xatirəsinin əbədiləşdirilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, XX əsr Azərbaycan memarlığının görkəmli nümayəndələrindən biri, əməkdar inşaatçı, SSRİ Dövlət mükafatı laureatı Nəsrulla Yaqub oğlu Kəngərlinin xatirəsini əbədiləşdirmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Bakı Şəhər İcra Hakimiyyəti Nəsrulla Yaqub oğlu Kəngərlinin Bakı şəhərində yaşadığı binaya (İnşaatçılar prospekti ilə Bəsti Bağırova küçəsinin kəsişməsində yerləşən) xatirə lövhəsinin vurulmasını təmin etsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 395 **QƏRAR** Bakı şəhəri, 5 sentyabr 2024-cü il

## “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 7 may tarixli 1145-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi və “Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində ödənişli əsaslarla təhsil alan məcburi köçkünlərin təhsil xərclərinin ödənilməsi ilə bağlı bəzi məsələlər barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 24 yanvar tarixli 12 nömrəli Qərarının ləğv edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 7 may tarixli 1145-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanında dəyişiklik edilməsi və bəzi sərəncamlarının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 30 may tarixli 78 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 18 mart tarixli 50 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 3, maddə 261 (Cild I) ilə təsdiq edilmiş "Rezidentura təhsilinin məzmunu və təşkili Qaydaları"nın 1.5-ci bəndinin üçüncü cümləsi aşağıdakı redaksiyada verilsin və dördüncü cümləsi ləğv edilsin:

"Sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin ali təhsil müəssisələrində ali təhsilin rezidentura səviyyəsində ödənişli əsaslarla təhsil aldıqları müddətdə onların təhsil haqqının dövlət büdcəsinin vəsaiti hesabına ödənilməsi "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 14.8-1-ci və 14.8-2-ci maddələri ilə tənzimlənir.".

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 12 may tarixli 88 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 5, maddə 467 (Cild I); 2024, № 3, maddə 307) ilə təsdiq edilmiş "Magistratura təhsilinin məzmunu, təşkili və "magistr" dərəcələrinin verilməsi Qaydaları"nın 1.7-ci bəndinin ikinci abzası aşağıdakı redaksiyada verilsin:

"Sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin ali təhsil müəssisələrində ali təhsilin magistratura səviyyəsində ödənişli əsaslarla təhsil aldıqları müddətdə onların təhsil haqqının dövlət büdcəsinin vəsaiti hesabına ödənilməsi "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 14.8-1-ci və 14.8-2-ci maddələri ilə tənzimlənir.".

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 24 iyun tarixli 117 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 561 (Cild I) ilə təsdiq edilmiş "Bakalavriat (əsas (baza ali) tibb təhsili) təhsilinin məzmunu və təşkili Qaydaları"nın 1.8-ci bəndinin ikinci abzası aşağıdakı redaksiyada verilsin:

"Sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin ali təhsil müəssisələrində ali təhsilin bakalavriat səviyyəsində ödənişli əsaslarla təhsil aldıqları müddətdə onların təhsil haqqının dövlət büdcəsinin vəsaiti hesabına ödənilməsi "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 14.8-1-ci və 14.8-2-ci maddələri ilə tənzimlənir.".

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 iyul tarixli 129 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 7, maddə 695 (Cild I); 2024, № 2, maddə 209, № 5 (II kitab), maddə 612) ilə təsdiq edilmiş "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları"nın 1.6-cı bəndinin ikinci abzası aşağıdakı redaksiyada verilsin:

"Sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin ali təhsil müəssisələrində ali təhsilin doktorantura səviyyəsində ödənişli əsaslarla təhsil aldıqları müddətdə onların təhsil haqqının dövlət büdcəsinin vəsaiti hesabına ödənilməsi "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 14.8-1-ci və 14.8-2-ci maddələri ilə tənzimlənir.".

5. "Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində ödənişli əsaslarla təhsil alan məcburi köçkünlərin təhsil xərclərinin ödənilməsi ilə bağlı bəzi məsələlər barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 24 yanvar tarixli 12 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 1, maddə 35 (Cild I) ləğv edilsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 396 **QƏRAR** Bakı şəhəri, 5 sentyabr 2024-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Bakı və Gəncə şəhərlərində yerləşən ilk peşə-ixtisas təhsili müəssisələri şəbəkəsinin rasionallaşdırılması və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 15 iyul tarixli 118 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Təhsil Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı”nda dəyişikliklər edilməsi haqqında” 2016-cı il 11 oktyabr tarixli 405 nömrəli və “Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin, İstedadlı Uşaqlarla İş Mərkəzinin yaradılması və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 15 iyul tarixli 118 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Təhsil Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı”nda dəyişikliklər edilməsi haqqında” 2017-ci il 5 iyun tarixli 250 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Bakı və Gəncə şəhərlərində yerləşən ilk peşə-ixtisas təhsili müəssisələri şəbəkəsinin rasionallaşdırılması və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 15 iyul tarixli 118 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Təhsil Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nda dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 11 oktyabr tarixli 405 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 10, maddə 1723 (Cild I) 16-cı hissəsi ləğv edilsin.

2. "Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin, İstedadlı Uşaqlarla İş Mərkəzinin yaradılması və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 15 iyul tarixli 118 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Təhsil Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nda dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 5 iyun tarixli 250 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 6, maddə 1226 (Cild I) 1-ci hissəsindən "peşə liseyi statusu ilə fəaliyyət göstərən" sözləri çıxarılsın.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 397 **QƏRAR** Bakı şəhəri, 5 sentyabr 2024-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Yaşıllıqların götürülməsi Qaydası”nın təsdiq edilməsi haqqında” 2016-cı il 30 avqust tarixli 321 nömrəli Qərarında dəyişiklik edilməsi və “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin balansında olan meliorasiya və su təsərrüfatı obyektlərinin layihələndirilməsi, tikintisi (inşası, cari və əsaslı təmiri, yenidən qurulması, bərpası), idarə olunması, saxlanılması, qorunması üçün icazə alınması tələb olunmayan işlərin Siyahısı”nın təsdiq edilməsi haqqında” 2018-ci il 30 noyabr tarixli 513 nömrəli Qərarının ləğv edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin fəaliyyət istiqamətləri üzrə müvafiq işlərin görülməsi üçün alınması tələb olunmayan icazələrin siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 21 may tarixli 68 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 30 avqust tarixli 321 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 8, maddə 1457 (Cild I); 2024, № 5 (II kitab), maddə 611) ilə təsdiq edilmiş "Yaşıllıqların götürülməsi Qaydası"na aşağıdakı məzmunda 2.12-ci bənd əlavə edilsin:

"2.12. Suvarma və kollektor-drenaj şəbəkələrinin təmizlənməsi, təmiri, bərpası və yenidən qurulması zamanı onların məcrasında, berma və dambasında bitmiş, habelə dövlət ehtiyacı üçün ayrılmış torpaqlarda aparılan meliorasiya və irriqasiya tədbirləri zamanı həmin obyektlərin altına düşən yaşıllığın götürülməsi üçün yaşıllığın götürülməsi vərəqi tələb olunmur.".

2. "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin balansında olan meliorasiya və su təsərrüfatı obyektlərinin layihələndirilməsi, tikintisi (inşası, cari və əsaslı təmiri, yenidən qurulması, bərpası), idarə olunması, saxlanılması, qorunması üçün icazə alınması tələb olunmayan işlərin Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 30 noyabr tarixli 513 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 11, maddə 2460 (Cild I) ləğv edilsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 398 **QƏRAR** Bakı şəhəri, 5 sentyabr 2024-cü il

## “Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində və “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 21 may tarixli 1154-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 21 may tarixli 1154-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 1 mart tarixli 52 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 3, maddə 209 (Cild I) ilə təsdiq edilmiş "Vətəndaşlıq vəziyyəti akt qeydlərində dəyişiklik, bərpa və ləğv qaydalarını müəyyən edən əsas müddəalar"da aşağıdakı dəyişikliklər edilsin:

1.1. 10-2-ci bənddə "maraqlı şəxs müraciət etdikdə ona müvafiq şəhadətnamə və ya arayış verilir" sözləri ", vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya arayış barəsində akt qeydi tərtib edilmiş şəxs, yaxud onun qanuni nümayəndəsi, etibarnamə ilə səlahiyyət verdiyi şəxs, barəsində akt qeydi tərtib edilmiş şəxs öldükdə isə yaxın qohumları müraciət etdikdə verilir" sözləri ilə əvəz edilsin.

1.2. 21-ci bənddə "və maraqlı şəxs müraciət etdikdə ona müvafiq şəhadətnamə və ya arayış verilir" sözləri ", vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya arayış barəsində akt qeydi tərtib edilmiş şəxs, yaxud onun qanuni nümayəndəsi, etibarnamə ilə səlahiyyət verdiyi şəxs, barəsində akt qeydi tərtib edilmiş şəxs öldükdə isə yaxın qohumları müraciət etdikdə verilir" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 31 oktyabr tarixli 145 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 627 (Cild I); 2024, № 1, maddələr 110, 124) ilə təsdiq edilmiş "Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.12-1-ci bənddə "akt qeydi üzrə" sözləri "vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı haqqında" sözləri ilə əvəz edilsin və həmin bəndə "şəxs" sözündən sonra ", yaxud onun qanuni nümayəndəsi, etibarnamə ilə səlahiyyət verdiyi şəxs, barəsində akt qeydi tərtib edilmiş şəxs öldükdə isə yaxın qohumları" sözləri əlavə edilsin;

2.2. 3.2-ci bəndin birinci abzasında "şəxsən yazılı ərizə verirlər" sözləri "ərizə ilə müraciət edirlər" sözləri ilə əvəz edilsin;

2.3. 5.8-3-cü bənd ləğv edilsin;

2.4. 5.9-cu bənddən "həm ər ilə arvadın hər ikisinin, həm də onlardan birinin ərizəsi üzrə" sözləri çıxarılsın;

2.5. 5.9.1-ci yarımbəndin birinci cümləsinə "nikahın pozulmasını" sözlərindən sonra "Azərbaycan Respublikası Ailə Məcəlləsinin 23.3-cü maddəsinə uyğun olaraq "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə daxil olmuş məhkəmə qətnaməsindən çıxarışa əsasən, habelə" sözləri əlavə edilsin;

2.6. 5.9.4-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"5.9.4. məhkəmənin qətnaməsinə əsasən nikahın pozulmasının qeydiyyatı üçün birinci müraciət etmiş ərin (arvadın) ərizəsinə nikahın pozulması barədə məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsindən çıxarış əlavə edilməlidir;";

2.7. aşağıdakı məzmunda 5.9.4-1-ci yarımbənd əlavə edilsin:

"5.9.4-1. nikahın pozulması haqqında məhkəmə qətnaməsində dövlət rüsumunu tərəflərdən hansının ödəməli olduğu göstərilmədikdə nikahın pozulmasının qeydə alınması (qeydiyyat "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə daxil olmuş məhkəmə qətnaməsindən çıxarışa əsasən aparıldıqda şəhadətnamənin verilməsi) haqqında ərizə ilə birinci müraciət etmiş tərəf həmin ərizəyə dövlət rüsumunun ödənilməsi barədə sənəd əlavə etməlidir. Nikahın pozulmasının qeydə alınması (qeydiyyat "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə daxil olmuş məhkəmə qətnaməsindən çıxarışa əsasən aparıldıqda şəhadətnamənin verilməsi) üçün ikinci müraciət etmiş tərəfdən dövlət rüsumunun ödənilməsi barədə sənəd tələb olunmur;";

2.8. 5.9.5-ci yarımbəndə "nikahın pozulması" sözlərindən sonra "Azərbaycan Respublikası Ailə Məcəlləsinin 23.3-cü maddəsinə uyğun olaraq "Elektron məhkəmə" informasiya sistemindən Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin informasiya sisteminə nikahın pozulması barədə qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsindən çıxarış daxil olduqda, habelə" sözləri əlavə edilsin;

2.9. 5.12-ci bəndin birinci cümləsinə "qeydə alınması" sözlərindən sonra "(qeydiyyat Azərbaycan Respublikası Ailə Məcəlləsinin 23.3-cü maddəsinə uyğun olaraq "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə daxil olmuş məhkəmə qətnaməsindən çıxarışa əsasən aparıldıqda şəhadətnamənin verilməsi)" sözləri əlavə edilsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 399 **QƏRAR** Bakı şəhəri, 5 sentyabr 2024-cü il

## “Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, “Vəkillər və vəkillik fəaliyyəti haqqında” və “Təhsil haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 23 fevral tarixli 1099-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Vəkillər və vəkillik fəaliyyəti haqqında" və "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 23 fevral tarixli 1099-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 23 aprel tarixli 75 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 4, maddə 365 (Cild I); 2024, № 3, maddə 315) ilə təsdiq edilmiş "Ali təhsil pilləsinin dövlət standartı və proqramı"nın 2.1-ci bəndinin yeddinci abzası səkkizinci abzas hesab edilsin və aşağıdakı məzmunda yeddinci abzas əlavə edilsin:

"tədris olunan müvafiq fənlərin məzmununa qarşılıqlı hörmət, qarşılıqlı yardım, mübahisələrin qeyri-zorakı yollarla həlli, gender bərabərliyi və şəxsiyyətlərarası münasibətlərə dair mövzular daxil etmək;".

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 23 aprel tarixli 76 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 4, maddə 366 (Cild I); 2024, № 3, maddə 315) ilə təsdiq edilmiş "Orta ixtisas təhsili pilləsinin dövlət standartı və proqramı"nın 2.1-ci bəndinin yeddinci abzası səkkizinci abzas hesab edilsin və aşağıdakı məzmunda yeddinci abzas əlavə edilsin:

"tədris olunan müvafiq fənlərin məzmununa qarşılıqlı hörmət, qarşılıqlı yardım, mübahisələrin qeyri-zorakı yollarla həlli, gender bərabərliyi və şəxsiyyətlərarası münasibətlərə dair mövzular daxil etmək;".

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 mart tarixli 85 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 3, maddə 519 (Cild I) ilə təsdiq edilmiş "Peşə təhsilinin dövlət standartları"na aşağıdakı məzmunda 2.9-cu bənd əlavə edilsin:

"2.9. Peşə təhsili pilləsində tədris olunan müvafiq fənn və modulların məzmununa qarşılıqlı hörmət, qarşılıqlı yardım, mübahisələrin qeyri-zorakı yollarla həlli, gender bərabərliyi və şəxsiyyətlərarası münasibətlərə dair mövzular daxil edilir.".

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 sentyabr tarixli 361 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 9, maddə 1233 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları"na aşağıdakı məzmunda 2.4-cü bənd əlavə edilsin:

"2.4. Ümumi təhsil pilləsində tədris olunan müvafiq fənn və dərsdənkənar məşğələlərin məzmununa təhsilalanların yaş xüsusiyyətləri nəzərə alınmaqla, qarşılıqlı hörmət, qarşılıqlı yardım, mübahisələrin qeyri-zorakı yollarla həlli, gender bərabərliyi və şəxsiyyətlərarası münasibətlərə dair mövzular daxil edilir.".

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Müdafiə Nazirliyinin rəhbərliyi bölmələrin döyüş hazırlığını yoxlayıb

**Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov və müdafiə nazirinin müavini - Quru Qoşunların komandanı general-leytenant Hikmət Mirzəyev şərti sərhəd istiqamətində dislokasiya olunan bölmələrin hazırlığını yoxlayıb.**



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, məruzə edilib ki, bölmələrdə günün nizam qaydalarına uyğun sutkaboyu döyüş növbətçiliyi yüksək səviyyədə təşkil olunur və fasiləsiz xidmət aparılır.

Döyüş növbəsi çəkən şəxsi heyətlə görüşən müdafiə naziri hərbi qulluqçuların döyüş və psixoloji hazırlığını yüksək qiymətləndirib. General-polkovnik Z.Həsənov xidməti-döyüş fəaliyyətinin daha keyfiyyətli təşkili, eləcə də ayıq-sayıqlığın artırılmasına dair aidiyyəti şəxslər qarşısında konkret tapşırıqlar qoyub.




◆ Bakı COP29-a hazırlaşır

# Paytaxtın ilk "yaşıl məkan"ı

## Filarmoniya bağı 194 il öncə tacirlərin gəmilərlə gətirdiyi qara torpaq hesabına böyük çətinliklə salınıb







**Bakı gündən-günə, aydan-aya gözəlləşir: dünya standartlarına uyğun göydələnlər, salınan parklar, istirahət guşələri, yaşıllıqlar, abadlaşan yollar, yol kənarlarına əkilən dekorativ kollar, yaşayış binalarının fasadlarının səliqəyə salınması, bir sözlə, üzünü hansı səmtə çevirirsənsə, göz oxşayır. Bu sıradan qədim Bakının yerli əhəmiyyətli abidələrinə, Şərqlə Qərbin arxitektura vəhdətini özündə əks etdirən tarixi binalara, mülklərə, bağ və gəzinti məkanlarına qayğı ümumilikdə şəhərimizin gözəlliyinə əlavə çalarlar qatıb. Baxdıqca, gəzdikcə insanın ruhu təzələnir. Belə ünvanlardan biri də xalqımızın keçmiş tarixini, şəhərsalma mədəniyyətini və dövrün müasirliyini özündə yaşadan - ötən əsrin əvvəllərindən "Qubernator bağı" kimi tanınan və paytaxtımızın ilk parkı kimi qəbul edilən Filarmoniya bağıdır.**





### Lənkərandan, İrandan gətirilən torpaq

Yolu düşənləri keçmişlə indiki zamanın qovşağında saxlayan bu bağın yaranma tarixi hamıda böyük maraq doğurur. Məxəzlərin məlumatına görə, 194 yaşlı Filarmoniya bağı İçərişəhər hələ iki divar əhatəsində olan vaxtlarda salınıb, uzun müddət Bakının ilk və yeganə bağı olub. Bu status Bakı bulvarının (Milli park) salınmasına qədər davam edib.

Xatırladaq ki, Filarmoniya bağı 1830-cu illərdə Bakı komendantı R.R.Xovenin təşəbbüsü ilə yaradılıb. Məhz qubernatorun təşəbbüsü ilə yaradıldığı üçün əvvəllər "Qubertnator bağı" kimi tanınıb. O, Lənkəran və İrandan gələn bütün gəmi sahiblərinin, tacirlərin qarşısına bir şərt qoyub ki, getdiyiniz yerlərdən bir neçə çuval qara torpaq gətirməlisiniz. Torpaq gətirməyənlər isə cərimələnirdilər. Sahibkarlar tərəfindən Lənkəran və İrandan gətirilən torpaqların sayəsində bağda əvvəlcə meyvə ağacları, sonra bəzək kolları əkilir. Kasıb camaatın bağda dincəlməsinə həftədə bir dəfə icazə verilirdi. Varlıların isə istirahəti limitsiz idi, ürəkləri istədikləri vaxt bağa girib-çıxa bilərdilər. Hətta bağın girişinə xüsusi elan da vurulubmuş: "Əsgərlərin və itlərin daxil olması qadağandır!"

1859-cu ildə bağda bir yenilik edilir. Rəqs meydançası düzəldilir, axşamlar orkestr çalmağa başlayır.

### 112 yaşlı Filarmoniya binası

Monte-Karlodakı Filarmoniyanın eynisini xatırladan indiki Filarmoniya binası 20-ci yüzilliyin əvvəllərində tikilib. Tikili "İctimai iclasların yay evi" adı ilə inşa edilib. Əvvəllər indiki Filarmoniyanın yerində taxtadan "Ağ klub" olub. Bu klub bir gecədə yanğın nəticəsində külə dönüb. Onun əvəzində isə həmin yerdə Bakı Şəhər Dumasının qərarı ilə 1910-cu ildə Filarmoniya binası tikilməyə başlanıb. Binanın inşası 1912-ci ildə başa çatıb. Beləliklə, sahəsi 4,6 hektar olan "Qubernator bağı"nın sonralar







"Filarmoniya bağı" adlanmasına səbəb olacaq bina tikilir.

1936-cı ildə isə Azərbaycan Dövlət Filarmoniyası yaradılır. Vaxtilə Bakı İctimai Məclisinin tikdirdiyi "Yay evi" Filarmoniyaya verilir.

### Niyə məhz bu məkanda?

Filarmoniya binası üçün niyə məhz bu məkan seçilib? Bu sualın cavabı Bakı İctimai Məclisinin adından şəhər upravasına göndərilmiş bir məktubda açıqlanır.

Həmin sənəddə Bakı İctimai Məclisinin rəhbərliyi 1907-ci ildə yanan "Ağ klub"un əvəzinə yeni yay binası inşa etdirmək istəyini bildirir və bu məqsədlə məhz indiki Filarmoniyanın yerinin ayrılmasını xahiş edir. Məktubda yeni binanın tikintisinin onlara baha qiymətə başa gələcəyi göstərilsə də, məhz bu sahənin ayrılmasının vacibliyi vurğulanır: "İctimai Məclisin xərcləri gözə alması səbəbsiz deyildi. Səbəb Bakı şəhərinin müstəsna iqlim şəraitini nəzərə alsaq, yay binası üçün bundan sərin və nisbətən təmiz havası olan yer tapmağın mümkün olmamasıdır".

### Bağın müxtəlif adları olub

Filarmoniya bağının müxtəlif adları olub. "Qorodskoy sad" - "Şəhər bağı" kimi də tanınan ərazi sonralar çar I Nikolayın qardaşı Mixayilin şərəfinə "Mixaylovski bağı" da adlandırılıb.

Mənbələrin məlumatına görə, Bakının general-qubernatoru şəhərin varlılarından olan Hacı Nemətulla Seyidovun bağın kənarında yerləşən evini (o ev sökülüb və yerində "Four Season" - "Dörd Fəsil" hoteli tikilib) kirayəyə götürdüyü üçün buranı şəhər camaatı "Qubernator bağı" - "Qoburnat bağı" adlandırmağa başlayıb. Çünki bağ qubernatorun evi ilə üzbəüz idi. Qubernator hər gün eyvanda oturub çay içə-içə bağı seyr edirmiş.

Sovet dönəmində bağın adı dəyişdirilərək "Pioner" qoyulur. 1990-cı ildə görkəmli qəzəlxan Əliağa Vahidin heykəli burada qoyulduğundan buraya "Vahid bağı" da deyirdilər.

Yenidənqurma və bərpa işləri zamanı böyük şairin heykəli daha məqsədəmüvafiq yerdə ucaldılıb. Hazırda bu tarixi məkan "Filarmoniya bağı" adı ilə əhaliyə xidmət göstərir.

### Bağda ilk dəfə abadlıq işləri Ulu Öndər Heydər Əliyevin tapşırıqlarına əsasən aparılıb

Özündə İtaliya intibahının elementlərini, Şərq memarlığının cizgilərini, eləcə də milli ornamentləri birləşdirən bağı bir-birindən gözəl olan dekorativ ağaclar, güllər, daşlar, fəvvarələr, saatlar bəzəyir.

Demək olar ki, bu məkan yüz illərdir mədəni-kütləvi tədbirlərə, musiqinin təbliğinə, insanların istirahətinə xidmət edir. Bağ salınandan sonrakı dövrdə ilk dəfə burda abadlıq işləri ötən əsrin 70-ci illərində Ulu Öndər Heydər Əliyevin tapşırığına əsasən aparılıb. Təəssüf ki, 1988-ci ildən sonra respublikada gedən məlum ictimai-siyasi proseslər zamanı bağ baxımsızlıqdan ziyan çəkib.

2007-ci ilin mayında əraziyə gələn Prezident İlham Əliyev burada əsaslı abadlıq və yenidənqurma işlərinin aparılması ilə bağlı tapşırıqlar verib. Aparılan işlər nəticəsində bağdakı fəvvarə, pavilyon və köşklər yenidən qurulub. Fransanın "İnter Art" şirkətinin layihələndirdiyi bağda orijinal formada fəvvarə tikilib. Eyni zamanda Bakıda ilk dəfə olaraq bu bağda klassik musiqi səsləndirilir.

Bağda əsasən Türkiyə və İtaliyadan gətirilən qızılgül kolları var ki, onlar bəzi ağaclara yaxın əkilib və ağacların gövdəsinə bağlanılıb. Bu gül kolları ağaca dolanaraq 7-8 metr hündürlüyədək böyüyüb və sarmaşığa bənzəyir. Belə qızılgülə yalnız Filarmoniya bağında rast gəlmək olar. Güllər mayda açır. Ağaclara yaxın əkilən payızgülü isə oktyabrda açır və 2-3 ay solmur. Bağdakı liliya, qardeniya və palmalara qış aylarında xüsusi qulluq göstərilir, soyuqdan qorumaq üçün onları bükürlər. Bundan başqa, burada pixta, iliks, qarağac, daş palıd, kedr, sidr, maqnoliya, yuka, aliyandr, sukas, quşalması, söyüd və başqa bitkilər də mövcuddur.

### Ömrü uzansa da, gəncləşən, gözəlləşən bağ

İllər keçdikcə gözəlliyini, təravətini itirməyən bu bağda olarkən neçə-neçə insanla həmsöhbət olduq. Onlardan biri - AMEA Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli bildirdi: "Bura şəhər sakinlərinin, xüsusən də ətrafda yaşayan insanların ən sevimli yeridir. İş yerim bura yaxın olduğundan demək olar ki, hər gün işdən çıxıb, bəzən də yoldaşlarla yolumuzu burdan salırıq. Yarım saatlığa da olsa dincəlirəm, təmiz və sərin hava, fəvvarələrin nəğmə ahəngi, bu ahəngə əlavə rəng qatan quşların civiltisi... adamın ruhunu təzələyir, əsəbləri sakitləşdirir. Onu da qeyd edim ki, bu parkın gözəgəlimli, ürəyəyatımlı olmasına səbəb həm də Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən, bağda aparılan əsaslı yenidənqurma işləridir. Bunları hər gün müşahidə etmişəm. Bağın özünəməxsus bitki örtüyü olduğu üçün ona xüsusi diqqət yetirilir, qorunub saxlanılır, yaşıllıq zolağının artırılmasına daha çox qayğı göstərilir. Özündə İtaliya intibahının elementlərini, Şərq müsəlman memarlığının cizgilərini, eləcə də milli ornamentləri birləşdirən bağda hamını heyran qoyan gözəl naxışlı daşlar, fəvvarələr, saatlar var. Filarmoniya bağı çox dəyərli və gözəl məkandır. Buna görə dövlətimizə və bu bağın belə gözəl məkana çevrilməsində əməyi olan hər bir insana təşəkkür edib, "çox sağ olun" deyirik".

Yenidənqurma zamanı burada nadir ağac növləri - palıd, sidr və göyrüş ağacları da əkilib, yeni suvarma sistemi quraşdırılıb, ərazi müxtəlif bitkilərlə zənginləşdirilib, gözəl landşaft kompozisiyaları yaradılıb. Ən qədim ağaclardan biri də Xan çinarıdır. 1865-ci ildə burada əkilən dekorativ bitkilər öz gözəlliyi ilə diqqəti çəkir, yeni ağac və gül kolları bağdakı yaşıllıq zolağına, ümumilikdə isə parkın klassikasına əlavə çalarlar qatıb.

Digər müsahibimiz bağda ailəvi gəzintidə olan Əməl xanım, qızı Firuzə və oğlu Üzeyir oldu. Əməl xanım dedi: "Özüm təqaüdçüyəm. Oğlum Mədəniyyət və İncəsənət Universitetində çalışır, qızım isə Almaniyada yaşayır. Hər il yay aylarında qızım istirahət etmək üçün Bakıya gəlir, Dənizkənarı bulvarda, Qız qalasında, bax, bu Filarmoniya bağında olur. Qoy özü desin, görək onda bu istək haradandır, bir də ki, uzaqdan gələnin daha maraqlı təəssüratları ola bilər".

Anasının fikirlərini davam etdirən Firuzə xanım dedi:

- Bu şəhərdə böyümüşəm, amma uzun illərdir Almaniyada yaşayıram. Uzaqdan gələnlər yaxşı görürlər ki, şəhərimiz, parklar, xüsusən də Bakı bulvarı, eləcə də bayaqdan tamaşa etməkdən doymadığımız Filarmoniya bağı nə qədər müasirləşib. Dəfələrlə şahidi olmuşam, bir vaxtlar Bakını hansısa superşəhərlə müqayisə etmək istəyənlər, indi həmin o şəhərləri Bakı ilə müqayisə etməyə çalışanlar sonda etiraf edirlər ki, Bakı daha gözəldir. Filarmoniya bağı elit bağdır, mən Avropanın bir çox şəhərində olmuşam. Amma bu gözəllikdə bağa rast gəlməmişəm...

*Müşahidələr, müsahibələr və son günlər burada aparılan səliqə-sahman işləri əminlik yaradır ki, qızılı payızda bu bağın görkəmi daha diqqətçəkən olacaq. Ümidvarıq ki, noyabrda COP29-a gələn qonaqlar 194 yaşlı Filarmaniya bağında gəzintidən, istirahətdən məmnun olacaqlar.*

***Rəhman SALMANLI,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***











# Bakıda "Hüquq və iqlim" adlı beynəlxalq konfrans keçirilib

**Sentyabrın 6-da Bakıda Azərbaycan Hakimlər İttifaqının və Azərbaycan Respublikası Ali Məhkəməsinin birgə təşkilatçılığı ilə "Hüquq və iqlim" ("Law and climate") mövzusunda beynəlxalq konfrans keçirilib.**

















AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan Hakimlər İttifaqının sədri Ramiz Rzayev, COP29-un müəyyən edilmiş prezidenti, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, Ali Məhkəmənin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov, Beynəlxalq Hakimlər İttifaqının prezidenti Duro Sessa, Azərbaycanın insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva, Türkiyənin Konstitusiya Məhkəməsinin sədr müavini Basri Bağcı, Azərbaycan Vəkillər Kollegiyasının sədri Anar Bağırov, hakimlər, vəkillər, hüquqşünas alimlər və beynəlxalq ekspertlər iştirak ediblər.

Konfransı giriş nitqi ilə açan Azərbaycan Hakimlər İttifaqının sədri Ramiz Rzayev bildirib ki, iqlim dəyişikliyi dünya üçün ciddi bir sınaqdır. Həmin dəyişikliklər insanların hüquqlarına, həyat tərzinə və ümumi rifahına böyük təsir edir. Qeyd edilib ki, Azərbaycan da iqlim dəyişikliyinin qarşısının alınmasında beynəlxalq əməkdaşlıq məsələlərinə ciddi yanaşır. Azərbaycan Respublikası bu il COP29 kimi mötəbər bir beynəlxalq tədbirə evsahibliyi edir və Prezident İlham Əliyevin sərəncamına əsasən Azərbaycan Respublikasında 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" elan olunub. Diqqətə çatdırılıb ki, bugünkü beynəlxalq konfransın da əsas məqsədi Azərbaycanın və dünya ictimaiyyətinin diqqətinin iqlim dəyişikliyi ilə bağlı proseslərə cəlb edilməsi, bu sahədə mövcud beynəlxalq və milli hüquqi tənzimləmə alətləri barədə məlumatlılığın artırılmasından ibarətdir.

COP29-un müəyyən edilmiş prezidenti, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev çıxışında qeyd edib ki, hazırda Azərbaycanda yeni iqlim strategiyasının hazırlanması istiqamətində işlər aparılır. Azərbaycanın iqlim strategiyası həm qlobal öhdəliklərə uyğunlaşmanı, həm də milli prioritetlərin icrasını özündə birləşdirir. Yeni strategiya bütün iqtisadi sektorları əhatə edərək, aşağıkarbonlu inkişafı hədəfləyəcək. Bildirilib ki, Azərbaycanın milli iqlim qanunvericiliyi bəzi sahələrdə beynəlxalq standartlara uyğunlaşdırılsa da, iqlim dəyişikliyi ilə mübarizənin daha təsirli olması üçün əlavə islahatlara ehtiyac var. Qanunvericilikdə iqlim dəyişikliyinə qarşı daha aydın və konkret mexanizmləri tətbiq etməklə həm qlobal iqlim öhdəliklərimizin icrasında, həm də iqlim hüquqpozmalarının qarşısının alınmasında daha güclü hüquqi əsaslar yaradıla bilər.

Ali Məhkəmənin sədri İnam Kərimov isə bildirib ki, iqlim dəyişikliyi təkcə ekoloji, sosial-iqtisadi məsələ deyil, həm də hüquqi məsələdir. Bu proseslər insan hüquqlarının pozulmasına, məhkəmə çəkişmələrinin yaranmasına, məsuliyyət tədbirlərinin tətbiqinə, məhkəmə təcrübəsinin formalaşmasına da səbəb olur. Vurğulanıb ki, baş verən iqlim dəyişikliyi əsasən insan davranışlarının və fəaliyyətinin nəticəsidir. Bu səbəbdən də hüquq təkcə iqlim dəyişikliklərinin fəsadlarına məruz qalan deyil, eyni zamanda onu tənzimləyən və bu proseslərdə preventiv xarakter daşıyan bir vasitədir. Hüquq iqlim dəyişikliyi ilə mübarizədə təbiətin, ətraf mühitin qayğısına qalan, onu qoruyan əsas tənzimləyici və effektiv bir alətdir. Diqqətə çatdırılıb ki, hüququn yaranması hüquqşünasların fəaliyyətindən asılı olduğu kimi, onun tətbiqində də hüquq peşəsinin nümayəndələrinin rolu əsasdır. Bu prosesdə vəkillərin, prokurorların, hakimlərin, ədliyyə işçilərinin, hüquq müdafiəçilərinin, elm xadimlərinin və digər hüquq peşə sahiblərinin əlaqəli fəaliyyəti qəbul edilmiş hüququ səmərəli edir. Bugünkü konfransın da iqlim dəyişikliyi ilə bağlı Azərbaycanın bu sahədə təşəbbüslərinə və dünyada gedən proseslərə hüquq ictimaiyyətinin diqqətini çəkməklə effektiv hüquqi müzakirələrə yol açacağı və bu sahədə görülən işlərə öz töhfəsini verəcəyi xüsusi vurğulanıb.

Sonra çıxış edən Beynəlxalq Hakimlər İttifaqının prezidenti Duro Sessa Bakıda təşkil olunan konfransı yüksək qiymətləndirərək bildirib ki, bu cür tədbirlərin təşkili ətraf mühitin mühafizəsi, iqlim dəyişikliyi ilə mübarizə sahəsində konkret addımların atılmasına imkan yaradır. Təmiz ətraf mühit hüququnun milli deyil, beynəlxalq məsələ olduğu, bu istiqamətdə birgə səy göstərməyin vacibliyi diqqətə çatdırılıb.

Türkiyənin Konstitusiya Məhkəməsinin sədr müavini Basri Bağcı çıxışında qeyd edib ki, hüquq iqlim və ətraf mühitlə bağlı məsələlərdə ən vacib vasitələrdən biridir. Türkiyə Konstitusiya Məhkəməsi iqlim və ətraf mühit mövzularında qərarlar qəbul edib. O bildirib ki, noyabr ayında Bakıda COP29-un keçiriləcəyi ərəfədə belə bir konfransın təşkili təqdirəlayiq haldır.

İnsan hüquqları üzrə müvəkkil (ombudsman) Səbinə Əliyeva çıxışında sağlam ətraf mühitdə yaşamaq hüququnun vətəndaşların sosial mövcudluğu baxımından da mühüm əhəmiyyət kəsb etdiyini bildirib. Qeyd edilib ki, son illər dünyada gedən ictimai-siyasi proseslər, informasiya texnologiyaları sahəsində inqilab cəmiyyətlə təbiət arasında ziddiyyətlərin pik həddə çatmasına səbəb olub. Ekoloji problemlər müharibə problemindən sonra dünyada birinci sırada dayanır. Ekologiyanın qorunub saxlanması vacib şərt olaraq bəşəriyyət qarşısında həllini gözləyən vəzifələrdən biridir.

Azərbaycan Vəkillər Kollegiyasının sədri Anar Bağırov isə çıxışında vurğulayıb ki, hüquq ekosistemi iqlim dəyişikliyi ilə mübarizədə əsas rol oynamalıdır. Çünki iqlim dəyişikliyi müasir dövrün ən ciddi qlobal problemlərindən biridir. Həmin problem təkcə ətraf mühitin və təbiət resurslarının qorunması ilə bağlı deyil, həm də insan hüquqları, iqtisadiyyat və sosial ədalət məsələlərini də əhatə edir. İqlim dəyişikliyi nəticəsində baş verən təbii fəlakətlər, əkin sahələrinin azalması, su qıtlığı və sair problemlər bir çox ölkələrdə insan hüquqlarının pozulmasına səbəb olur. Bu mənada, hüququn iqlim dəyişikliyinə qarşı mübarizədə rolu əvəzolunmazdır. Hüquqi alətlər və qanunvericilik bu sahədə vacib bir mövqedədir və hüquqşünaslar iqlim ədalətinin təmin edilməsi üçün səylərini daha da artırmalıdır.

İki sessiyadan ibarət olan konfransda daha sonra "İqlim dəyişikliyi ilə beynəlxalq hüquqi baza: BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası və Paris Sazişinin əsas tələbləri", "İqlim Dəyişikliyi üzrə məhkəmə mübahisələri: beynəlxalq və milli müstəvidə mövcud olan tendensiyalar və uğurlu nümunələr", "İqlim dəyişikliyi və ekoloji cinayətlər, qlobal tələblər və müasir çağırışlar", "Azərbaycanın evsahibliyi etdiyi COP29 üzrə planlar və gözləntilər", "Beynəlxalq Hakimlər İttifaqının ətraf mühitin hüququ sahəsində rolu" və s. mövzularda çıxışlar dinlənilib.

# COP29-un maliyyə dövriyyəsinə nəzarət ali audit orqanı ilə birgə aparılır

**"COP29-un maliyyə dövriyyəsinə nəzarət ali audit orqanı ilə birgə aparılır". Bu barədə AZƏRTAC-a COP29 Azərbaycan Əməliyyat Şirkətinin Mətbuat xidmətindən məlumat verilib.**




Bildirilib ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un keçirilməsi ilə bağlı hazırlıq tədbirləri davam edir. Hazırlıq çərçivəsində görülmüş işlər və nəzərdə tutulan tədbirlər barədə ictimaiyyətə mütəmadi olaraq məlumatlar təqdim edilir. Konfransın keçirilməsi üçün dövlət büdcəsində müvafiq ayırmalar təsdiqlənib. Ayrılmış vəsaitlər hesabına dünyada ən irimiqyaslı və mötəbər tədbirlərdən biri olan beynəlxalq konfransın yüksək səviyyədə təşkili və zəruri infrastrukturun qurulması üzrə işlərin aparılması nəzərdə tutulur.

COP29-a ayrılmış dövlət vəsaiti üzərində maliyyə nəzarətinin həyata keçirilməsi məqsədilə müvafiq dövlət orqanları ilə birlikdə ölkənin ali audit orqanı tərəfindən konfransın təşkili üzrə maliyyə idarəetməsinin, ayrılmış dövlət vəsaitinin təsdiq edilmiş göstəricilərə, bağlanılmış müqavilə məbləğlərinin aidiyyəti istiqamətdə ayrılmış vəsaitə, habelə müqavilələrin icrasının müqavilə şərtlərinə uyğunluğunun, həmçinin müvafiq sənədləşmənin tamlığının qiymətləndirilməsi aparılır. Məqsəd maliyyə nəzarətinin keçirilməsi zamanı pre-auditə (ilkin auditə) dair müvafiq audit prinsiplərində qeyd olunan məqamlar da nəzərə alınmaqla maliyyə pozuntuları baş verməzdən əvvəl onların qarşısının alınmasıdır.

Eyni zamanda maliyyə nəzarətinin aparılmasında məqsəd hesabatlılıq və şəffaflıqla yanaşı, tədbirin təşkili üçün ayrılmış vəsaitin səmərəli istifadə edilməsi, qənaət olunan məbləğlərin büdcəyə qaytarılmasıdır.

Qeyd olunmalıdır ki, tədbir başa çatdıqdan sonra icra edilmiş bütün xərclərin auditi üzrə müvafiq qaydada həm beynəlxalq təşkilat, həm də Hesablama Palatası tərəfindən hesabatın və auditor rəyinin hazırlanması nəzərdə tutulur.

# "Yaşıl enerji məkanı" İşçi qrupunun növbəti iclası keçirilib

**"Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda nəzərdə tutulmuş tədbirlərin icrasını təmin etmək məqsədilə yaradılmış "Yaşıl enerji məkanı" İşçi qrupunun hibrid formada növbəti iclası keçirilib.**



Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, iclasa sədrlik edən nazir müavini Samir Vəliyev çıxışında strategiyanın icrası çərçivəsində reallaşdırılan layihələrin "Yaşıl dünya naminə həmrəylik ili" üzrə həyata keçirilən tədbirlərlə ahəng təşkil etdiyini vurğulayıb. İşçi qrupun iclaslarının müntəzəm keçirilməsinin hesabatlılığın effektivliyini artırdığını qeyd edib və gündəlikdə duran məsələlərə diqqət çəkib.

İşçi qrupunun sədr müavini, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) icraçı direktorunun müavini Ramil Hüseyn strategiyanın icrası çərçivəsində bu ilin birinci yarısı üzrə aparılmış monitorinqin nəticələrinə dair ilkin qiymətləndirmə hesabatını təqdim edib. "Yaşıl enerji məkanı" məqsədi üzrə tədbirlərin icra göstəriciləri, 6 fəaliyyət istiqaməti üzrə indikatorlar və nəzərdə tutulmuş hədəflər çərçivəsində icra olunan işlər barədə məlumat verilib, qaz təchizatı, istilik təchizatı sahəsində dövlət-özəl tərəfdaşlığının inkişaf etdirilməsi, dənizdə külək enerjisi potensialının araşdırılması, bioenerji və geotermal enerjidən istifadə imkanlarının genişləndirilməsi, bərpaolunan enerji mənbələri üzrə informasiya sisteminin yaradılması, Elektromobillik üzrə Milli Planın hazırlanması, enerji saxlanc sistemlərinin tətbiqi, karbon tutulması, utilizasiyası və saxlanması texnologiyalarının tətbiqi, iqtisadiyyatın müxtəlif sahələrində enerji səmərəliliyinin təmin edilməsi və digər istiqamətlərdə yerinə yetirilmiş tədbirlər müzakirə edilib.

Sonra digər qrup üzvlərinin hesabatla bağlı məruzələri dinlənilib, atılacaq növbəti addımlar, çağırış və tövsiyələr nəzərdən keçirilib. Strategiya sənədi üzrə qarşıdakı dövrdə tədbirlərin effektiv icrası ilə bağlı tapşırıqlar diqqətə çatdırılıb.

Qeyd edək ki, "Yaşıl enerji məkanı" İşçi qrupunda Energetika Nazirliyi və İİTKM ilə yanaşı, İqtisadiyyat, Ekologiya və Təbii Sərvətlər, Kənd Təsərrüfatı, Rəqəmsal İnkişaf və Nəqliyyat, Maliyyə, Fövqəladə Hallar nazirliklərinin, SOCAR, Mərkəzi Bank, Azərbaycan İnvestisiya Holdinqi, Dövlət Statistika Komitəsi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Dövlət Gömrük Komitəsi, Azərbaycan Milli Elmlər Akademiyası, "Azərsu", "Meliorasiya və Su Təsərrüfatı", "Azərenerji", "Azərişıq", "Azəristiliktəchizat" ASC-lərin nümayəndələri təmsil olunurlar.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 12 iyun 2023-cü il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda nəzərdə tutulmuş tədbirlərin tam, vaxtında və effektiv icrasını təmin etmək və aidiyyəti dövlət orqanlarının fəaliyyətlərinin əlaqələndirilməsi məqsədilə 8 işçi qrup yaradılıb. "Yaşıl enerji məkanı" İşçi qrupu da bu çərçivədə "Yaşıl enerji məkanı" məqsədinin yerinə yetirilməsi və aidiyyəti dövlət orqanlarının fəaliyyətlərinin əlaqələndirilməsini həyata keçirir.

# Oktyabrda Azərbaycan PreCOP tədbirinə evsahibliyi edəcək

AZƏRTAC xəbər verir ki, bunu ekologiya və təbii sərvətlər nazirinin müşaviri Rüstəm Həsənov "Hüquq və iqlim" (Law and climate) adlı beynəlxalq konfransın ikinci sessiyasında çıxışı zamanı deyib.




Nazirin müşaviri COP29 tədbirinə hazırlıq prosesi və tədbir çərçivəsində həyata keçiriləcək işlər barədə məlumat verib: "COP tədbirlərinin ev sahibi ölkələrinin müəyyən edilməsi əsasən dövlətlərin BMT-də üzv olduqları coğrafi qruplara əsaslanır. Həmin ardıcıllıqla ev sahibi ölkələr müəyyənləşdirilirlər. Adətən ev sahibi olan ölkə COP tədbirinə evsahibliyi edəcəyini 24 aya yaxın müddət ərzində bilir. Tədbirə hazırlıq üçün kifayət qədər geniş vaxt olur. Seçim şərtlərinin sərtləşməsi və mürəkkəb regionda yer almağımız səbəbindən tədbirin təşkili üçün 11 aydan daha az müddətə sahib olduq. Qısa müddətdə hazırlıq prosesini başa çatdırmaq üçün tərəflərlə birgə səylərimizi davam etdiririk. Tədbirin təşkilati məsələlərinin həll edilməsi ilə bağlı COP29 Sədrliyinin ofisi formalaşdırılıb, həmçinin COP29 Azərbaycan Əməliyyat Şirkəti də təsis edilib. Bakı Olimpiya Stadionu əsas tədbir məkanı olaraq seçilib. COP29 tədbirlərinin Bakı Olimpiya Stadionu ilə yanaşı, digər məkanlarda da keçirilməsi istisna olunmur. Tədbir ərazisi iki zonadan ibarətdir. Bunlardan biri BMT üçün nəzərdə tutulan "Mavi Zona", digəri isə iqlim ictimaiyyəti və şirkətlərin cəlb olunacağı "Yaşıl Zona"dır. Tədbir noyabrın ayında keçiriləcək. Bundan öncə Azərbaycan oktyabrın 10-11-də PreCOP adlanan tədbirə evsahibliyi edəcək. Buraya da COP29-da tərəf qismində iştirak edəcək ölkələrin ekologiya nazirləri qatılacaq və tədbirin gündəliyi, o cümlədən qarşıda duran məsələlər müzakirə olunacaq. COP tədbirləri zamanı müzakirələrin daha effektiv təşkil olunması üçün tematik deyilən günlərdən istifadə olunur. Bu il də 7 tematik gün müəyyən olunub. COP29 zamanı keçiriləcək bütün tədbirlər, məsləhətləşmələr, danışıqlar həmin günlərdə müvafiq qaydada qruplaşdırılacaq. COP29 çərçivəsində 12-13 noyabrda Liderlər Sammitinin təşkil olunması nəzərdə tutulub. Bu, BMT-nin Baş Assambleyasından sonra ən çox dövlət və hökumət başçısının qatıldığı tədbirdir və mahiyyət etibarilə də bütün dünya ictimaiyyətinin diqqətində olur.

COP29 Sədrliyi tərəfindən 14 əsas təşəbbüs irəli sürülüb. Həmin təşəbbüslərin müəyyən olunması zamanı da dünya ictimaiyyətinin gözləntiləri nəzərə alınıb və aktual problemlər diqqətə yetirilib. Builki COP-un əsas mövzusu iqlim maliyyələşməsinin təmin olunmasıdır. Əgər bir mövzuda maliyyə varsa, iki tərəf formalaşır: maliyyəni verən və qəbul edən tərəf. Həmin tərəflər fikir ayrılığında olsalar da, onları adətən bir mövzu birləşdirir ki, bu da həmin proseslərin şəffaf olmasıdır. İqlim maliyyəsi deyəndə onun şəffaf mexanizmlər əsasında tərəflər arasında bölünməsi və maliyyə resurslarının cəlb edilməsi nəzərdə tutulur. Bu, COP Sədrliyinin öndə gələn vəzifələrindən biridir. Şəffaflıq prinsipini artırmaq üçün "Bakı Qlobal İqlim Şəffaflığı Platforması" təsis edilib. Platforma çərçivəsində biz kommersiya tərəfi olan ölkələri təşviq edirik ki, onlar bu il noyabrda keçiriləcək 29-cu sessiyaya kimi öz şəffaflıq hesabatlarını təqdim etsinlər. Bununla bağlı bütün tərəflərlə danışıqlar aparılır. Ən əsası, BMT Baş Assambleyasının Nyu Yorkda keçiriləcək 79-cu sessiyasında da tərəfləri bir daha bu məsələyə diqqətlə yanaşmağa səsləyəcəyik".

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Məkrdən əl çəkə bilməyən Fransa

### Azərbaycana səyahət xəbərdarlığı Parisin çirkin siyasətinin növbəti təzahürüdür

**Neokolonialist, irqçi, islamofob siyasət həyata keçirən Fransa anti-Azərbaycan fəaliyyətini davam etdirir. Ermənipərəst ölkənin Avropa və Xarici İşlər Nazirliyinin Azərbaycana səyahət xəbərdarlığı ilə bağlı əsassız və qərəzli bəyanatı da buna bariz nümunədir. Nazirlik sözügedən absurd bəyanatı Azərbaycanda guya Fransa vətəndaşlarının saxlanıldığı və hədəf alındığı barədə əsassız iddiaları səbəb gətirərək verib.**

Amma bu qərəzli bəyanatın arxasında tamam ayrı mətləblərin yatdığı gün kimi ortadadır. Azərbaycanın Yelisey sarayının həyata keçirdiyi müstəmləkəçi, şovinizm, ksenofobiya və digər mədəniyyətlərə qarşı dözümsüzlük siyasətini dünyaya göstərməsi Parisi çıxılmaz vəziyyətə salıb. Ələləxüsus ölkəmizin torpaqlarını işğaldan qurtarması, ərazilərində suverenliyini bərpa etməsi, separatizmin kökünü kəsməsi Fransanın maraqları ilə qətiyyən üst-üstə düşməyən gerçəklikdir. Buna görə də Paris xüsusilə son dörd ildir ki, Bakıya qərəzini göstərmək üçün ən gülünc üsullara, yollara belə əl atmaqdan çəkinmir.

### Münasibətləri gərginləşdirmək niyyəti

Əslində, Fransanın iç üzü Azərbaycan xalqına çoxdan bəllidir. Onun müstəmləkəçi, əliqanlı tarixini dərindən bilirik və hələ də neokolonial siyasət yürütdüyünü, xalqları əsarətdə saxlayaraq azadlıq səslərini boğduğunu görürük.

Fransa müstəqilliyini qazandığı zamandan etibarən Azərbaycana qarşı qərəzli siyasət yürüdüb. ATƏT-in keçmiş Minsk qrupunun tərkibində vasitəçiliyi dövründə artıq tarixdə qalmış Qarabağ münaqişəsinin həlli istiqamətində heç bir iş görməyib. Azərbaycanın torpaqlarının sonsuzadək işğalda qalmasına səy göstərib. Buna görə də Paris Vətən müharibəsinin regionda yaratdığı yeni reallıqları qəbul edə bilmir. Çünki yalan vədlərlə erməni lobbisindən qopardığı pullar əlindən çıxıb.

Elə Fransanın Avropa və Xarici İşlər Nazirliyinin Azərbaycana səyahət xəbərdarlığı ilə bağlı əsassız və qərəzli bəyanatı da erməni lobbisinin gözünə kül üfürmək cəhdindən başqa bir şey deyil.

Azərbaycan Xarici İşlər Nazirliyinin adıçəkilən qərəzli bəyanatla bağlı şərhində bildirilir ki, Fransa tərəfindən verilmiş bu cür əsassız və qərəzli qərar və bəyanat bu ölkənin Azərbaycanla münasibətləri daha da gərginləşdirmək niyyətindən xəbər verir.

Vətəndaşların əsassız olaraq saxlanıldığı və həbs edildiyi barədə Fransanın Avropa və Xarici İşlər Nazirliyinin iddialarının heç bir əsası yoxdur. Bu əsassız bəyanat reallığın təhrif olunmasıdır.

Bildirilir ki, Azərbaycanda indiyə qədər yalnız Fransa Respublikasının vətəndaşı Martin Rian ötən ilin 4 dekabr tarixində Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 276-cı maddəsində (casusluq) nəzərdə tutulmuş əməlin törədilməsində şübhəli bilinərək tutulub. Bundan əlavə, digər Fransa vətəndaşı Klerk Teo Hüqonun Bakı metrosunda törətdiyi əmələ görə saxlanıldığı məlumdur.

Bunun əksinə, Fransa tərəfindən Azərbaycan jurnalistlərinin Fransaya, hətta digər Şengen ölkəsi ərazilərinə səyahətləri zamanı tətbiq etdiyi maneələr Fransanın təbliğ etdiyi "insan hüquqlarına" tamamilə zidd olduğu aydındır.

### Bütün riyakar cəhdlər boşa gedəcək

Xatırladaq ki, bir müddət əvvəl Azərbaycanda agentura şəbəkəsi aşkara çıxarılan Fransanın müxtəlif ölkələrdə casusluq fəaliyyəti ilə məşğul olması Bakı tərəfindən təkzibedilməz şəkildə sübuta yetirilib. Fransanın xüsusilə keçmiş postsovet ölkələrində dağıdıcı fəaliyyətlə məşğul olması və bu ərazilərdə də müstəmləkəçilik siyasəti yürütmək niyyəti güdməsi ifşa edilib.

İç üzünün Azərbaycan tərəfindən dünyaya göstərilməsindən narahatlıq və qəzəb hissi keçirən Yelisey sarayı buna görə də ölkəmizə qarşı hərtərəfli hücuma keçib. Fransada görkəmli şairimiz Xurşidbanu Natəvanın heykəlinə edilən hörmətsizlikdən tutmuş, XXXIII Yay Olimpiya Oyunlarında, eləcə də "Paris-2024" Yay Paralimpiya Oyunlarında ölkəmizə qarşı təxribata, Azərbaycana səyahət xəbərdarlığına qədər bu ölkə tərəfindən atılan hər bir çirkin və qərəzli addım buna nümunələrdir.

Cənubi Qafqaza yerləşmək istəyən Fransanın Ermənistan ilə Azərbaycan arasında danışıqlara, sülh müqaviləsinin imzalanmasına da birbaşa maneə törətməsi faktdır. Makron hakimiyyəti İrəvanı silahlandıraraq revanşa qızışdırır və bölgədə yeni münaqişə ocağı yaratmağa çalışır.

Lakin neokolonialist ölkənin bütün riyakar cəhdləri boşa gedəcək. Azərbaycan qətiyyətlə milli maraqlarını müdafiə etdiyi kimi, bundan sonra da müstəmləkəçi Fransanın demokratiyaya, insan haqlarına təhqir olan siyasətinin ifşasına davam edəcək.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*



## Yeni baş nazir təyinatı Fransada çaxnaşma yaratdı

### Seçkilərdə qalib gəlmiş solçular kütləvi etirazlara başlayırlar

**Sentyabrın 5-də - növbədənkənar parlament seçkilərindən 60 gün sonra Fransa prezidenti Emmanuel Makron yeni baş nazirin namizədliyi ilə bağlı qərar verib. Keçmiş Avropa komissarı, Brexit danışıqlarında Aİ təmsilçisi, Jak Şirak və Nikola Sarkozi hökumətlərində bir neçə dəfə nazir olmuş 73 yaşlı Mişel Barnye bu posta təyin edilib.**



Beləliklə, son seçkilərdə solçuların qalib olmasına baxmayaraq, prezident sağçı baş nazir seçib. Həmin səbəbdən də solçular bu günə ilk ümummilli etiraz aksiyası təyin ediblər. Makronun bir çox fransız siyasətçiləri üçün gözlənilməz seçimi ölkənin siyasilərinin əhəmiyyətli bir hissəsini laqeyd qoymayıb.

"Emmanuel Makron fransızların səsini tapdalayır və respublikamızın ruhuna ziddir", - deyə Sosialist Partiyası (PS) bəyan edib. Partiyanın lideri Olivye Forun sözlərinə görə, Makron rejimi üçün böhran yaxınlaşır. Onun fikrincə, solçulardan imtina edən prezident sağdan zərbə endirmək qərarına gəlib.

Makronun impiçment proseduruna start verən solçu "Yenilməz Fransa" (LFI) partiyasının lideri Jan-Lük Melanşon "seçkilərin fransızlardan oğurlandıgını" bəyan edərək prezidentin qərarını sərt şəkildə pisləyib. Melanşona görə, Makronun bu addımına cavab yalnız sentyabrın 7-nə planlaşdırılan etiraz aksiyası üçün ən güclü səfərbərlik ola bilər. "Bunun üçün demokratiyaya və hər kəsin şəxsi ləyaqətinə hörmət naminə birləşmək lazımdır", - deyən LFI lideri "X" sosial şəbəkəsindəki səhifəsində yazıb: "Xalq yeganə hökmdardır. Yaşasın Respublika".

Ekoloqların (EELV) lideri Marin Tondelye üçün Barnyenin təyinatı əsl qalmaqala bənzəyir. Onun fikrincə, təklif olunan hökumət başçısı Makronun kursunu davam etdirəcək. "Lakin bu, ekoloqların Yeni Xalq Cəbhəsinin (NFP) baş nazirliyə namizədi kimi Lüsi Kaste uğrunda mübarizəsinə mane olmayacaq", - deyə o bildirib.

Ətraf mühit üzrə qanunverici Sandrin Russoya görə, Emmanuel Makron "demokratiyanı böyük bir tamaşaya çevirmək yolundadır".

Fransa Kommunistlərinin (PCF) milli katibi Fabyen Russel üçün isə Makronun seçimi, "zorla çevriliş" və "demokratiyanın inkarı"dır. Onun sözlərinə görə, fransızlar dəyişiklik istəyirlər. Ona görə də solçu alyans ölkə sakinlərinin buna nail olması üçün hər şeyi edəcək. PCF-nin milli katibi çıxışını bu sözlərlə yekunlaşdırıb: "Biz hökumətin istefasından başlayaraq, Fransanın maraqlarına uyğun olmayan siyasətlərə qarşı mübarizə aparmaq üçün əlimizdə olan bütün vasitələrdən istifadə edəcəyik".

Fransa Milli Assambleyasında RN qrupunun prezidenti Marin Le Pen isə deyib: "Biz yeni hökumət başçısından "Milli Birlik" Partiyasına səs verən 11 milyon fransıza hörmət etməsini, onların şəxsiyyətinə və ideyalarına hörmətlə yanaşmasını tələb edəcəyik".

Politoloq S.Listratov da Mişel Barnyenin təyinatına münasibət bildirib. Onun sözlərinə görə, bu yolla Makron öz hakimiyyətini saxlamağa çalışır: "Bu, Fransada demokratik azadlıqlar və gələcək siyasət üçün tam fiaskodur. Barnyenin təyinatı görünməmiş bir vəziyyətdir. Birincisi, o, son seçkilərdə 7 faiz səs toplayan və dördüncü yeri tutan sağçı Respublika Partiyasını təmsil edir. Bu, parlamentdə hər hansı çoxluğu təşkil edən siyasi qüvvə deyil. Respublikaçılar heç bir koalisiyaya daxil olmayıblar, hətta makronçularla belə..."

Mişel Barnye mürtəce siyasətçidir, antimiqrant mövqe tutur və 1981-ci ildə homoseksuallığı dekriminallaşdıran qanunun əleyhinə səs verib. Xatırladaq ki, Fransanın baş naziri Mişel Barnye 2021-ci il dekabrın 21-23-də Azərbaycan ərazilərinə qanunsuz səfər edib və prezidentliyə namizəd Valeri Pekreslə birgə erməni separatçılarının yerləşdiyi məkanda anti-Azərbaycan təbliğatı aparıblar.

Məlum olduğu kimi, Fransada həmkarlar ittifaqları müəllimləri sentyabrın 10-da tətil etməyə çağırıb. Büdcənin kəsilməsi, qısamüddətli hədəfi olan siyasət, diqqətsizlik və maaşların aşağı olması kimi problemlər arasında müəllim heyəti getdikcə daha çox narahat olur. Həmkarlar ittifaqları bildirirlər ki, dövlət borcu ilə bağlı aparılan qənaət siyasətinə görə təhsil ocaqlarının maliyyəsinin azaldılması onsuz da çətin olan vəziyyəti daha da ağırlaşdıracaq.

Nəzərə alsaq ki, bu gündən Makronun ədalətsiz qərarına qarşı ilk ümummilli etiraz aksiyası başlayır, Fransanı xaosa sürükləyən hadisələrin baş verəcəyi istisna olunmur.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

## "Cücələr" payızda sayılacaq

### Qlobal iqtisadiyyatı çənginə alan savaşlara "davam", yoxsa "tamam" deyiləcək?

**◆ Beynəlxalq icmal**

**Bəşər tarixinin son 200 ilinə nəzər yetirdikdə görürük ki, müharibələrin əsas ziyana saldığı sahə iqtisadiyyatdır. Bunun ardınca gələn yoxsulluq, səfalət, yəni insanların yaşam tərzinin düşməsi səbəbi də savaş zamanı qlobal iqtisadiyyatın çöküşüdür. Təbii ki, bu zaman biz hərbi sənaye sektorunu nəzərdə tutmuruq.**

Təəssüf ki, hazırkı dövr İkinci Dünya müharibəsindən sonra ən çox regional müharibələrin getdiyi bir dönəmdir. Əvvəllər əsasən Asiya və Afrika ölkələrində məhəllə münaqişələri olardı. İndi isə Avropanın mərkəzində qan su yerinə axır. Rusiya-Ukrayna müharibəsi bu "firavan qitə"ni 2 il yarımdır ki, çənginə alıb, bitmə tarixi isə bilinmir. Hətta ABŞ-nin keçmiş prezidenti və prezidentliyə namizəd olan Donald Tramp seçiləcəyi halda qısa müddətə bu savaşa son qoyacağını desə də...

Müharibə isə günü-gündən şiddətlənir, coğrafiyası genişlənir. Qərb Şərqin hərbi gücü olan Rusiyanı diz çökdürmək üçün savaşı onun ərazisinə keçirmək istəyir. Ancaq şimal qonşumuzun başı daşdan-daşa dəyib. Yaxşı anlayır ki, bu savaşda uduzsa, keçmiş SSRİ-nin taleyini yaşayacaq. "Lazım gələrsə, nüvə silahından da istifadə edəcəyik" - xəbərdarlığı da bununla bağlıdır.

İndi dünyada baş verən müharibələrə siyasi, ideoloji, hərbi və təhlükəsizlik kontekstində don geyindirməyə çalışsalar da, onun iqtisadi mahiyyətini gizlətmək mümkün deyil. Məsələn, Rusiya-Ukrayna savaşına Qərbdə müstəqillik, dövlət suverenliyi və ərazi bütövlüyü kontekstində qiymət verilir, Rusiya tərəfi isə onu özünün təhlükəsizlik kontekstindən dəyərləndirir. Ancaq konfliktin kökündə Ukraynanın təbii sərvətlərinin idarə olunması faktı nə Qərb tərəfindən, nə də Rusiya tərəfindən etiraf edilir. Bu yaxınlarda Rusiyanın keçmiş prezidenti, indiki Təhlükəsizlik Şurası sədrinin müavini D.Medvedyev Ukraynanın faydalı qazıntılarının ümumi dəyərinin 14,8 trilyon dollar civarında olduğunu söyləyib və bunun 7,3 trilyon dollarlığının Donetsk və Luqanskının payına düşdüyünü qeyd edib. Üstündən də keçmiş dövlət başçısı Qərbin buna sahib çıxmaq istədiyini bəyan edib.



Bəs, bu qarşıdurma dünya iqtisadiyyatına hansı zərəri vurur? İndiyədək açıqlanan iqtisadi statistikaya diqqət yetirdikdə görürük ki, hərbi sənaye komplekslərindən savayı, milyonlarla insan daxil bu müharibədə hələlik qazanan yoxdur. Dünya üzrə iqtisadi fəallıq azalıb, işsizlik və inflyasiyanın səviyyəsi yüksəlib, insanların sosial rifahı düşüb, yoxsulluğun səviyyəsi artıb. Özü də bu, təkcə yoxsul və inkişaf etməkdə olan ölkələrə aid deyil, inkişaf etmiş ölkələr də tənəzzüldən qaça bilmirlər. Əsas səbəb də tətbiq olunan qarşılıqlı sanksiyalardır. Məsələn, ABŞ-nin sənaye istehsalında iyul ayında iyun ayı ilə müqayisədə 0,6 faiz azalma qeydə alınıb. Ölkə üzrə ümumi məhsulun 78 faizini təşkil edən emal sənayesində də keçən ay 0,3 faiz azalma müşahidə olunub. İlk baxışdan belə azalma mənasız görünə bilər. Əslində, belə deyil. Həmin rəqəmlər ABŞ-də iqtisadi inkişafın artım tempinin dayanmasının göstəricisidir. Yəni bu ölkənin iqtisadi dinamikası artan deyil, azalan xətt üzərində hərəkət edir.

Dünyanın ən böyük istehsalçısı, ABŞ-nin əsas rəqibi olan Çində də bu sahədə vəziyyət ürəkaçan deyil. Belə ki, Çinin istehsalat satınalma menecerləri indeksi avqust ayında 49,1 bəndə düşüb. Ölkə iqtisadiyyatı üçün mühüm olan bu göstərici iyul ayında 49,4 bənd təşkil etmişdi. Məlumat üçün bildirək ki, bu indeks dəyərinin 50 baldan yuxarı olması sənaye sektorunda aktivliyin artmasının, aşağı düşməsi isə azalmasının göstəricisidir.

ABŞ-nin Rusiyanın sanksiyalardan yayınmaqla başqa ölkələrlə apardığı ticarətin qarşısını almaq üçün mübarizəsi də təsirsiz qalmır. Belə ki, ABŞ-nin sanksiya hədələri sayəsində Rusiyanın Qazaxıstan, Özbəkistan və Ermənistan üzərindən həyata keçirdiyi reidxalın gerçəkləşməsinin miqyası xeyli azalıb. Bundan əlavə, Çin, BƏƏ, İsveçrə, Türkiyə, Fransa və başqa ölkələrdə sanksiyalardan yayınmağa imkan verən şirkətlər də hədəfə alınıb. Sözsüz ki, bu qoyulan qadağalar Rusiyanın idxal-ixrac əməliyyatlarına mənfi təsir göstərir.

Rusiya isə bütün bunlara cavab olaraq neft-qaz ixracını artırmaq üçün alıcı axtarır. Şimal qonşumuz dərk edir ki, ona Avropaya əvvəlki həcmdə qaz ixrac etmək imkanı verilməyəcək. Buna görə də üzünü Şərqə tutub. "Qazprom" Çinə qaz nəqlini artırmaq üçün "Uzaq Şərq marşrutu"nun tikintisinə start verib. Məqsəd bu kəmər vasitəsilə Çinə ildə əlavə 10 milyard kubmetrə qədər qaz nəqlini həyata keçirməkdir.

Hazırda dünyanın ümidi Amerikada keçiriləcək prezident seçkilərinə bağlanıb. Donald Tramp vəd verib ki, indiki administrasiyanın əksinə olaraq, dünyada baş verən bütün müharibələri dayandıracaq və ABŞ apardığı aqressiv xarici siyasətdən əl çəkəcək, əməkdaşlığa üstünlük verəcək. Seçkilər bu ilin payızında baş tutacaq. Bu isə o deməkdir ki, "cücələr" payızda sayılacaq.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## Ermənistanda yeni müxalifət formalaşır

### Paşinyan günbəgün mövqelərini və sosial dayaqlarını itirir

**Son günlər Ermənistanda iqtidar və müxalifətin biri-birinə qarşı hücumlarının daha radikal xarakter alması müşahidə edilir. Müharibədəki məğlubiyyətdən sonra Ermənistanda keçmiş hakimiyyətin nümayəndələri baş nazirə qarşı şiddətli hücum başladıblar.**



Paşinyanı hakimiyyətdə olduğu son 5 il ərzində Qarabağa dair "nəsə gizli plan qurmaqda" günahlandırır və yekunda təslimolma aktını imzaladığına görə ona satqın, xain damğası vururlar. Son vaxtlar isə sülh müqaviləsinin imzalanmasının gündəmdə olduğu bir vaxtda baş nazirin Ermənistanı yeni müharibəyə aparacağına dair fikirlər səsləndirirlər.

"Hraparak" qəzeti yazıb ki, artıq Ermənistanda bəzi fiqurlar yeni müxalifət formalaşdırmaq məqsədilə aktiv fəaliyyətə başlayıblar. Qeyd edilib ki, onlar qondarma mərkəzçi qüvvənin formalaşdırılması istiqamətində siyasi məsləhətləşmələr aparırlar: "Bu qüvvə ilk növbədə öz qarşısına Ermənistandakı psevdoqərbçilərin maskasını çıxarmaq, onların Hayastanın düşməni olduğunu və Nikol Paşinyanın maraqlarına xidmət etdiyini cəmiyyətə göstərmək vəzifəsini qoyacaq".

Bildirilib ki, məsləhətləşmələrdə Ermənistanın keçmiş ombudsmanı Arman Tatoyan, İrəvanın keçmiş meri Ayk Marutyan, Erməni Milli Konqresi, "Həyat üçün ölkə" və bir sıra digər qüvvələr iştirak edir. Bu alyans hətta Edmon Marukyanın namizədliyini də nəzərdən keçirib, lakin müzakirələr nəticəsində onun bu namizədliyinin zərərli ola biləcəyi qənaətinə gəliblər. Belə ki, Marukyan Nikol Paşinyana bağlı siyasətçilərdən sayılırmış.

"4rd.am" saytı yazır ki, Nikol Paşinyan hakimiyyəti günbəgün mövqelərini və sosial dayaqlarını itirməyə başlayıb: "Anti-Rusiya siyasəti hakimiyyətin mövqelərini düşündüyümüzdən daha sürətlə sıradan çıxaracaq". Məlumata görə, Rusiya Paşinyana ciddi sürprizlər etməyi planlaşdırır. Nəşr yazır ki, bu sürprizin hansı format və növdə olacağını öyrənə bilməyiblər, çünki proses hələ müzakirə mərhələsindədir və ciddi hazırlıq davam edir.

Qeyd edək ki, Nikol Paşinyan bütün fəaliyyəti müddətində antirus mövqeyi əks etdirir. Dəfələrlə ölkənin Rusiyadan həddən artıq asılılığını qabardıb. Pik nöqtə isə onun rəhbərlik etdiyi blokun Ermənistanın Avrasiya İqtisadi İttifaqından və Gömrük İttifaqından çıxması barədə hazırladığı qanun layihəsi olmuşdu. Elə bunu nəzərə alan qüvvələr də onu hakimiyyətə gətirmişdilər. İndi isə anti-Rusiya mövqeyi sərgiləməsi fonunda Rusiyameyilli qüvvələr onu hakimiyyətdən uzaqlaşdırmaq üçün bütün vasitələrə əl atırlar.

Görünən odur ki, Ermənistanda daxili siyasi vəziyyət tədricən mürəkkəbləşməyə doğru gedir. Bununla da ölkə sonu görünməyən daxili siyasi böhrana qədəm qoyacaq.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# REGİONLAR

## Naftalanda şəhid ailələrinin uşaqları ilə görüşə Türkiyənin Gəncədəki baş konsulu da qatılmışdır



**Naftalanda torpaqlarımızın bütövlüyü uğrunda canını fəda etmiş şəhidlərin, eləcə də bu yolda sağlamlıqlarını itirmiş qazilərin ailələrinə, onların övladlarına yüksək qayğı göstərilir. Onlarla tez-tez görüşlər keçirilir, arzu və təklifləri dinlənilir.**

Bu günlər yeni tədris ilinin başlanması ilə əlaqədar keçirilən görüş də yaddaqalan olmuşdur. Görüşdə Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzovla yanaşı, Türkiyə Cümhuriyyətinin Gəncədəki baş konsulu Recep Öztop və Avropa-Azərbaycan Məktəbinin direktoru Françesko Bançini də iştirak etmişlər.

Ölkəmizdə şəhid ailələrinə, qazilərə göstərilən diqqətdən, onların övladlarının qayğısız böyümələri və təhsil almaları üçün dövlətimizin dəstəyindən söhbətin açıldığı tədbirdə uşaqlara məktəb ləvazimatları, Türkiyə-Azərbaycan bayraqları həkk olunmuş və adları yazılmış xatirə hədiyyələri verilmişdir.

Şəhid valideynləri onlara göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildirmişlər.

## Bu il Göygöl rayonu məzunlarından 12 nəfəri Qarabağ Universitetinə qəbul olunmuşdur



**Göygöl Rayon İcra Hakimiyyətində yüksək balla ali təhsil müəssisələrinə, o cümlədən bu il fəaliyyətə başlayan Qarabağ Universitetinə qəbul olunan gənclərlə görüş keçirilmişdir.**

Görüşü giriş sözü ilə rayon icra hakimiyyətinin başçısı Elvin Paşayev açaraq tələbə adını alan gəncləri təbrik etmiş, onların bu uğurlarında pay sahibi olan valideynlərinə və müəllimlərinə minnətdarlığını bildirmişdir. Ölkəmizdə təhsilə verilən önəmdən danışan RİH-in başçısı vurğulamışdır ki, Ümummilli Lider Heydər Əliyevin genişmiqyaslı fəaliyyətində təhsilin inkişafı hər zaman prioritet sahə kimi əsas yer tutmuşdur: "Onun uzaqgörənliklə söylədiyi konseptual fikirlər və ideyalar, tarixi tövsiyələr bu gün də ölkəmizdə təhsil islahatlarının əsas istiqamətlərinin müəyyənləşdirilməsinə öz töhfəsini verir".

Ümummilli Lider Heydər Əliyev tərəfindən təməli qoyulmuş inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən davam etdirildiyini deyən E.Paşayev onu da diqqətə çatdırmışdır ki, bu gün Azərbaycanın sosial-iqtisadi inkişafında elm və təhsilin rolu böyükdür.

Görüşün sonunda RİH-in başçısı tələbə adını qazanan məzunların milli-mənəvi dəyərlərə sadiq, vətənpərvər, savadlı gənclər olaraq ölkəmizin, o cümlədən Göygöl rayonunun sosial-iqtisadi və mədəni həyatında fəal iştirak etmələrini arzulamış, onlara rayon icra hakimiyyətinin fəxri fərmanlarını və xatirə hədiyyələrini təqdim etmişdir.

Qeyd edək ki, bu il Göygöl rayonu üzrə 16 abituriyent 600-dən yuxarı bal toplayaraq ali məktəblərə, o cümlədən 12 nəfər yüksək balla Qarabağ Universitetnə daxil olmuşdur.

## Qazaxın işğaldan azad edilmiş kəndlərində mina təhlükəsizliyi ilə bağlı maarifləndirici tədbir keçirilmişdir

**Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, iradəsi və uğurlu siyasəti nəticəsində 2024-cü il aprelin 19-u qazaxlıların, xüsusilə Qazax rayonunun uzun illər işğalda qalmış kəndlərin sakinlərinin yaddaşına əlamətdar tarix kimi yazılıb.**

Həmin gün Azərbaycan və Ermənistan arasında aparılan danışıqlar nəticəsində Qazax rayonunun Aşağı Əskipara, Bağanis Ayrım, Qızılhacılı və Xeyrimli kəndlərinin bir güllə belə atılmadan Azərbaycana geri qaytarılması barədə razılıq əldə olundu. Mayın 15-də müvafiq protokol imzalandı, mayın 24-də isə adları çəkilən kəndlərin əraziləri Dövlət Sərhəd Xidməti tərəfindən nəzarətə götürüldü.

Qarabağda və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı abadlıq işləri yaxın zamanda Qazaxın işğaldan azad edilmiş kəndlərində də həyata keçiriləcəkdir. Həmin kəndlər də yenidən qurulacaq, evlər tikiləcək, infrastruktur yaradılacaq, çoxsaylı digər layihələr icra ediləcək ki, bu da sakinlərin doğma yurdlarına qayıtmağına imkan verəcək. Hazırda isə işğaldan azad olunmuş torpaqlarda minalardan təmizlənmə işləri həyata keçirilir. Mina təhlükəsizliyi tədbirlərinə əməl etmək isə hər bir vətəndaşın borcudur və bu sahədə onların üzərinə böyük məsuliyyət düşür.

Elə bu məqsədlə Qazax şəhərində məskunlaşan məcburi köçkünlərlə maarifləndirici görüş keçirilmişdir. Görüşdə rayon icra hakimiyyətinin başçısı, rayon polis şöbəsinin rəisi və Dövlət Sərhəd Xidməti "Qazax" Əlahiddə Sərhəd diviziyasının komandiri iştirak etmişlər. RİH-in başçısı Rəcəb Babaşov çıxış edərək Qazaxın 4 kəndinin bir güllə belə atılmadan geri qaytarılmasını dövlətimizin və ölkə başçısının növbəti qələbəsi kimi dəyərləndirmişdir. Görüşdə minaların təmizlənməsi işlərinin təkcə Qarabağ və Şərqi Zəngəzur istiqamətində deyil, eyni zamanda həmin kəndlərdə aparıldığı bildirilmişdir. İndiyədək aparılan minatəmizləmə prosesi nəticəsində kəndlərin xeyli sayda mina və partlamamış hərbi sursatlardan təmizləndiyi vurğulanmışdır. Bildirilmişdir ki, təhlükəsizlik tədbirləri görülmədən və rəsmi icazə verilmədən həmin ərazilərə getmək qadağandır və bunun məsuliyyətini hər bir vətəndaş, hər bir kənd sakini dərk etməlidir.



***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Aqrar sektorda inkişafın iki şərti - yeni texnologiya, peşəkar kadr

**Hər bir sahənin inkişafı kadr hazırlığından başlayır. Yeni texnologiyaları yaradan, onu inkişaf etdirən də yüksəksəviyyəli kadrlardır. Elə həmin texnologiyaların istehsalata tətbiqi də peşəkar mütəxəssislər tərəfindən həyata keçirilir.**



Bu məlum reallıq aqrar sektora da aiddir. Dünyada "Hollandiya möcüzəsi" deyilən bir həqiqət var. O da bundan ibarətdir ki, Niderland dünyada ilk dəfə aqrar sektoru inkişaf etdirmək üçün yüksək texnologiyalara və hazırlıqlı mütəxəssislərə üstünlük verdi. Həm də fərqinə vardı ki, bu iş maliyyəsiz mümkün deyil. Bu üç problemi həll edən Niderland məhsuldar torpağı və əlverişli iqlimi olmasa da, bu gün ABŞ-dən sonra dünya bazarına ən çox kənd təsərrüfatı məhsulları çıxaran ölkədir. Biz hələ şimal ölkəsi olan Hollandiyanın dünya gül bazarını "zəbt" etdiyini demirik.

Niderlandda fermer dövlətdən maliyyə almaq istəyirsə, onun məşğul olduğu sahə üzrə mütləq təhsili olmalıdır. Bunun üçün isə dövlət fermerlərin mütəxəssis kimi yetişməsi üçün kurslar açıb. Həmin kurslarda fermer anlayır ki, yaxşı məhsul yetişdirməyin və qazanmağın yolu elmi biliklərə yiyələnmək və yeni texnologiyalardan istifadə etmək bacarığından keçir. O üzdən Niderland fermerləri bu gün dünyanın ən bilikli peşəkarları sayılırlar.

Azərbaycanda da son illər dövlət aqrar sektorda yeni texnologiyaların tətbiqinə və fermerlərin peşə hazırlığına xüsusi diqqət göstərir. Bu məqsədlə xarici dövlətlərlə əməkdaşlıq genişlənir, ölkəyə yeni texnologiyalar gətirilir, onlardan istifadə edən fermerlər üçün kurslar təşkil edilir və s. Xaricdə mütəxəssislərin hazırlanması da diqqət mərkəzindədir. Bu yolla yerli mütəxəssislərin aqrar elmin son nailiyyətləri ilə tanış olmaları üçün imkanlar yaradılır.

Yeri gəlmişkən, qeyd edək ki, bu günlər ADA Universitetinə ilk dəfə olaraq İtaliya-Azərbaycan Universiteti layihəsi çərçivəsində Kənd təsərrüfatı və qida elmləri fakültəsinin bakalavr pilləsinə tələbə qəbulu həyata keçirilib. ADA Universitetində yeni tədris ilinin başlanması münasibətilə fakültəyə qəbul olunan tələbələr və onların valideynləri ilə görüş təşkil edilib.

Tədbiri açan ADA Universitetinin rektoru Hafiz Paşayev bildirib ki, rəhbərlik etdiyi təhsil müəssisəsində ölkə iqtisadiyyatının tələblərinə uyğun ən mühüm ixtisaslar üzrə peşəkar kadrlar hazırlanır. Kənd təsərrüfatının ölkə iqtisadiyyatının ən vacib sahələrindən biri olduğunu deyən rektor diqqətə çatdırıb ki, müasir dövrdə aqrar sahədə rəqabətədavamlı kadrların yetişdirilməsi müasir dövrdə mühüm əhəmiyyət kəsb edir. İtaliya-Azərbaycan Universiteti layihəsi çərçivəsində təsis edilən Kənd təsərrüfatı və qida elmləri fakültəsində yüksəkixtisaslı kənd təsərrüfatı mütəxəssislərinin yetişdiriləcəyini deyən Hafiz Paşayev onu da əlavə edib ki, İtaliyanın Bolonya Universiteti ilə əməkdaşlıq bu sahədə təhsil alan gənclərə beynəlxalq səviyyəli təhsil və bacarıq qazanmasına imkan yaradacaq.

Tədbirdə iştirak edən kənd təsərrüfatı naziri Məcnun Məmmədov ölkəmizdə aqrar inkişaf strategiyasının əsas istiqamətləri, aqrar sahəyə dövlət dəstəyi, nazirliyin fəaliyyəti, həyata keçirilən innovativ layihələr barədə tələbələrə ətraflı məlumat verib. Aqrar sahədə innovasiyalar və müasir texnologiyaların tətbiqinə, davamlı inkişaf prinsiplərinə önəm verildiyini deyən nazir tələbələrin bu sahədəki yenilikləri mənimsəməsinin və gələcək fəaliyyətlərində tətbiq etməsinin cəmiyyət üçün faydalı olacağını vurğulayıb.

Yeni açılmış fakültənin dekanı Matteo Vittuari rəqabətədavamlı kadr hazırlığı, tədris prosesinin təşkili, ADA-Bolonya Universiteti arasında əməkdaşlıq, aqrar sahədə təcrübə mübadiləsi ilə bağlı tədbir iştirakçılarına ətraflı məlumat verib. ADA Universitetinin aqrar sahədə fəaliyyət göstərən dövlət və özəl qurumlarla sıx əməkdaşlıq etdiyini deyən Matteo Vittuari söyləyib ki, Bolonya Universiteti ilə qarşılıqlı bilik və təcrübə mübadiləsinin aparılması tələbələrin peşəkar kadr kimi yetişməsinə zəmin yaradır.

Bu yöndə başqa bir tədbir də keçirilib. Aqrar Tədqiqatlar Mərkəzində (ATM) Türkiyənin Ankara Universitetinin Kənd təsərrüfatı fakültəsinin kənd təsərrüfatının iqtisadiyyatı bölümünün rəhbəri professor İlkay Dellalla ilə görüşdə mərkəzin tədqiqatçılarının Ankara Universitetində, Ankara Universitetinin tədqiqatçılarının isə ATM-də qarşılıqlı təcrübə mübadiləsinə cəlb olunmaları təklif edilib. Tərəflər hər iki qurumda çalışan alimlərin müxtəlif iqtisadi modellərin tətbiqi və yeni modellərin yaradılması istiqamətində əməkdaşlıq imkanlarını müzakirə ediblər.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Şəki şəhərinin daxili yolları təmir edilir

**Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən, Şəki şəhərinin daxili avtomobil yollarının təmiri ilə bağlı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən genişmiqyaslı təmir-tikinti işləri aparılır.**

Sərəncamda Şəki şəhərində ümumi sahəsi 36,1 km olan mərkəzi küçələrin təmiri nəzərdə tutulur. Artıq bu çərçivədə yenidənqurma işlərinə bir müddətdir ki, start verilib.

Təmir-tikinti işləri zamanı küçə və yollarda köhnə örtük sökülür, zəruri olan yerlərdə yol yatağının yararsız qruntu qazılaraq çıxarılır və əks dolğu işləri aparılmaqla yeni yol yatağı, optimal qırmadaş və qum-çınqıl qarışığından yeni yol əsası inşa edilir. Sadalanan işlərin ardınca iri və xırda dənəli olmaqla yeni asfalt-beton örtüyünün döşənməsi işləri icra olunur.

Layihə çərçivəsində zəruri olan yerlərdə vətəndaşların yol kənarı ilə rahat və təhlükəsiz hərəkətini təmin etmək məqsədilə mövcud piyada səkiləri bərpa olunur, yeni piyada səkiləri inşa edilir, kənarlarına səki daşları düzülür.

Bu işlərə paralel olaraq, şəhərin relyefinə uyğun prospekt və küçələrin hərəkət hissəsinin kənarlarında səth sularının kənarlaşdırılması üçün suötürücülük qabiliyyəti nəzərə alınaraq müxtəlif ölçüdə arx və kanalların yenidən qurulması, tikintisi və təmiri işləri aparılır.

"İnşaat Norma və Qaydaları"na uyğun olaraq asfaltlanma işləri bitən küçələrdə hərəkətin normal təşkili üçün yolcizgi və yolgöstərici xətlərinin, həmçinin piyada zolaqlarının çəkilişi icra olunacaq, küçə və yollara zəruri yol nişanları, məlumatverici lövhələr quraşdırılmaqla müasir yol infrastrukturu yaradılacaq.

Ümumilikdə yol infrastrukturunun yenidən qurulması və müasirləşdirilməsi istiqamətində Şəki şəhərində aparılan təmir-tikinti işləri vətəndaşların hərəkətinin təhlükəsizliyinə zəmin yaratmaqla yanaşı, rahat gediş-gəlişi təmin edəcək.



## Ağstafa qışa hazırlaşır

**Ağstafa Rayon İcra Hakimiyyətində qışa hazırlığın vəziyyəti müzakirə edilmişdir. İclasda aidiyyəti üzrə idarə, müəssisə və xidmət təşkilatlarının rəhbərləri iştirak etmişlər.**

Yığıncağı giriş sözü ilə rayon icra hakimiyyətinin başçısı Seymur Orucov açaraq qışa hazırlıqla bağlı görülən işlərdən və qarşıda duran vəzifələrdən danışmış və bu vəzifələrin qısa vaxt ərzində başa çatdırılması üçün tapşırıq və tövsiyələrini vermişdir.

Sonra xidmət təşkilatları rəhbərlərinin hesabatları dinlənilmişdir. Şəmkir Regional Qaz İstismar İdarəsinin Ağstafa Xidmət Sahəsinin rəisi Anar Qocayev, Ağstafa Su Meliorasiya Sistemləri İdarəsinin rəisi Fərid Eyyubov, Ağstafa Elektrik Şəbəkəsinin rəisi Tural Həsənov, 27 saylı Yol İstismar MMC-nin direktoru Alı Mərdalıyev, Təcili və təxirəsalınmaz tibbi yardım şöbəsinin müdiri Həcər Namazova və başqaları çıxış edərək görülən və görülməsi vacib olan işləri diqqətə çatdırmışlar.

Yığıncaqda həmçinin rayondakı epizodik vəziyyət təhlil edilmiş, vaksinasiya və zoobaytar tədbirlərin həyata keçirilməsi istiqamətində görülən işlərə dair Rayon Heyvan Sağlamlığı Baytarlıq Xidmətləri İdarəsinin rəisi Şəfayət Bağırovun, aqrar sahədə, xüsusilə taxıl sahələrinin yanğın təhlükəsindən qorunması ilə bağlı maarifləndirmə işlərinin aparılması barədə FHN Gəncə Dövlət Nəzarəti İdarəsinin inspektoru Xaliq Omarovun məlumatları dinlənilmişdir.

Aparılan geniş müzakirələr zamanı görülən müsbət işlərlə yanaşı, mövcud çatışmazlıqlarla bağlı aidiyyəti üzrə məsul şəxslərə iradlar tutulmuş və problemlərin ən qısa zamanda aradan qaldırılması istiqamətində konkret tapşırıqlar verilmişdir.

***S.YUNİSOĞLU,***
***"Azərbaycan"***

## Naxçıvanın iaşə obyektlərində qaz-toztutucu qurğular quraşdırılır

**Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi atmosferin çirklənməsinin qaşısını almaq üçün tədbirlər görür.**

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, bu məqsədlə Naxçıvan şəhərində yerləşən bir neçə ictimai-iaşə obyektinə və Babək rayonunda yerləşən gəc sexlərinə baxış keçirilib. Baxış zamanı qaz-toztutucu qurğu quraşdırılan ictimai-iaşə obyektlərinin sahibkarları ilə qurğulara texniki xidmət göstərilməsi, filtrlərinin vaxtında təmizlənməsi üçün zəruri tədbirlərin görülməsi barədə söhbətlər aparılıb, gəc sexlərinin sahibkarlarına isə ətraf mühitin mühafizəsi sahəsində pozuntuların aradan qaldırılması barədə tələb sənədinin icra müddəti ərzində qaz-toztutucu qurğuların quraşdırılmasının vacibliyi bildirilib.

Məlumat üçün bildirək ki, ilin əvvəlindən indiyədək qaz-toztutucu qurğu olmadan fəaliyyət göstərən ümumilikdə 100 olmaqla 95 ictimai-iaşə obyektinə və 5 gəc sexinə "ekoloji tələb" qoyulub. Nəticədə "ekoloji tələb"lərin icra müddəti ərzində 51 ictimai-iaşə obyekti qaz-toztutucu qurğu quraşdırılmasını təmin edib.

# Məktublar: problemlər, rəylər, təkliflər...



● QÜRUR

## Qəlbimiz fərəhlə doludur



**Bərdədə doğulub boya-başa çatsam da, əslən şuşalıyam. Uzun illər dövlət qulluğunda çalışmışam. Artıq beş ildir təqaüddəyəm.**

Bu günlər oğul-uşaqlarımla, nəvələrimlə işğaldan azad edilmiş ərazilərə səfər etdik. Bərdə-Ağdam yolunun rahatlığı, müasir tələblərə cavab verməsi adamda xoş ovqat yaradır. Erməni faşistlərinin viran qoyduğu Ağdamın xarabalıqları üzərində yeni şəhər salınmasını, burada genişmiqyaslı tikinti-quruculuq işlərinin aparılmasını görəndə ürəyimiz dağa döndü. 30 ilin həsrətindən sonra doğma yurda qovuşan bu torpağın əsl sahibləri Xocalıda, Şuşada, Laçında sözün həqiqi mənasında xariqələr yaradırlar.

Xankəndidə qələbəlik yaşanır. Respublikamızın müxtəlif bölgələrindən bura səfər edən soydaşlarımızın üz-gözündən sevinc yağır. Hər kəs bu sevinci bizə yaşadan qəhrəman Azərbaycan əsgərinə, Müzəffər Ali Baş Komandan İlham Əliyevə minnətdarlığını hər məqamda dönə-dönə vurğulayır.

Xankəndidə, Şuşada, Turşsuda, Laçında olduq, Cıdır düzünü gəzdik. Hamı bəxtəvər idi. Adamlar bir-birini tanımasalar da, köhnə tanışlar kimi hal-əhval tutur, gözaydınlığı verir, böyük yaradana şükürlər edirdilər.

Qarabağı ziyarət qəlbimizi qürurla doldurdu. Böyük zəfərdə haqqı olan hər kəsə minnətdarlıq borcumuz, təşəkkürlərimiz, məhəbbət və ehtiramımız sonsuzdur.

**Aydın SƏFƏROV,**
**Bərdə şəhər sakini**

● DİQQƏT

## Xahişimizə əməl olundu



**Oğlum Qəhrəman Məmmədov 44 günlük Vətən müharibəsində şəhid olub. Müharibədən keçən müddət ərzində ailəmiz dövlət qurumları və rayon ictimaiyyəti tərəfindən heç vaxt unudulmamışdır. Hər il oğlumun doğum günündə rayon rəhbərliyi evimizə gələrək dərdimizə şərik olur, problemlərimizlə maraqlanır.**

Bu yaxınlarda yenə də oğlumun anım günü idi. Rayon icra hakimiyyətinin başçısı müxtəlif qurumların rəhbərləri ilə bizə gəldi. Söhbət zamanı RİH-in başçısı arzu və təkliflərimizi dinlədi. Dedim ki, sahibkarlıqla məşğul olmaq istəyirəm. Amma bunun üçün torpaq sahəsi lazımdır. Başçı tapşırıq verdi ki, müraciəti araşdırıb, torpaq sahəsi ayrılması üçün tədbirlər görsünlər. Artıq müraciətim öz müsbət həllini tapıb. Şəhid ailəsinə göstərdikləri diqqətə görə sağ olsunlar!

**Qürbət MƏMMƏDOV,**
**Goranboy rayonunun**
**Yolqullar kənd sakini,**
**şəhid atası**

● BİGANƏLİK

## Tarixi mədəniyyət abidələrimizi göz bəbəyimiz kimi qorumalıyıq

**Azərbaycanın hər bölgəsi, o cümlədən Abşeron yarımadası tarixi və mədəni abidələrlə zəngindir və demək olar ki, onların hamısı dövlət mühafizəsi altındadır.**





Təəssüf ki, tarix və mədəniyyət abidələrimizə bəzən biganəlik göstərilir, onlar ya dağıdılır, ya da yaxşı qorunmur.

Götürək dövlət qeydiyyatında və mühafizəsində olan Bakının Sabunçu rayonu Ləhiş bağlar massivinin ərazisindəki 4483 nömrəli bağ sahəsinin cənub-qərbində, 35-ci dalanın sonunda yerləşən tarixi qəbirlər, qədim yaşayış yeri və kurqan abidələr kompleksini. Həyəcanla bildirmək istəyirik ki, bu arxeoloji abidələr bir qrup şəxs tərəfindən mütəmadi dağıntılara məruz qalır. Əgər belə davam etsə və ciddi tədbirlər görülməsə, abidələr tamamilə məhv olacaq. Nəticədə ərazi öz tarixinin bir çox fraqmentini itirəcək.

Tarixi abidələr təkcə mənəvi dəyər daşımır, arxeoloji ərazilərdəki bu artefaktlar həm də mühüm məlumat mənbəyidir. Unutmayaq ki, bir xalqın konkret coğrafi məkanda əsrlərdən bəri təşəkkül tapdığını, kimliyini isbat edən əsas fakt məhz belə tarixi-mədəni abidələr sayılır. Bu yadigarlar həm də keçmişdən gələcəyə bir körpüdür. Odur ki, tarixi mədəniyyət abidələrini qorumaq hər bir şəxsin borcudur. Gəlin abidələrimizi, tarixi irsimizi göz bəbəyimiz kimi qoruyaq, onları gələcək nəsillərə layiqli şəkildə ötürək.

***Fəxrəddin GÖZƏLOV,***
***"Qəsr" Mədəni İrsi və Tarixi Abidələri Qoruyaq" İctimai Birliyinin İdarə Heyətinin sədri***

● Fotofakt

*Ekoloji vəziyyətin yaxşılaşması, ətraf mühitin qorunması istiqamətində ölkəmizdə həyata keçirilən layihələr ürəkaçandır. "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində görülən işlər təqdirəlayiq olsa da, bu işlərə kölgə salanlar da var. Şəkildə gördüyünüz İsmayıllı rayonunun Qalacıq kəndindən olan görüntülər yalnız bir məkanın nümunəsidir. Belə zibilliklərin bir çox istirahət mərkəzinin ətrafında mövcudluğu heç kəsə sirr deyil. İstirahət etmək üçün meşələrə, çay kənarlarına üz tutanlar ətraf mühitə qayğıkeşliklə yanaşsalar, ekologiyanı çirklənmədən müəyyən qədər qorumuş olarlar. Meşələrin və yaşıllıqların qorunması ilə bağlı vətəndaşlar arasında, tullantılarla təbiətə zərər vuran, çirkləndirən iaşə obyektləri sahibləri ilə maarifləndirmə işi gücləndirilməli, əlaqədar təşkilatlar təbiətin mühafizəsi işinə diqqəti artırmalıdırlar. Gözəlliyi ilə insanı valeh edən təbiətə qarşı belə münasibət göstərənlər unutmamalıdırlar ki, təbiətin, onun sərvətlərinin qorunması elə sağlamlığımızın mühafizəsi deməkdir.*

***Fotolar İlham BABAYEVİNDİR***



● UĞUR

## 687 bal toplayan Fəridə bütün astaralıların fəxridir



**Astara şəhər M.Ə.Sabir adına 1 saylı tam orta məktəbin məzunu Fəridə Vüqar qızı Əliyeva buraxılış imtahanında yüksək nəticə göstərib. O, ali məktəblərə qəbul zamanı test imtahanlarında 687 bal toplayıb.**

Azərbaycanın nüfuzlu ali təhsil müəssisəsi olan Bakı Ali Neft Məktəbinin İnformasiya təhlükəsizliyi ixtisasının əyani şöbəsinə dövlət sifarişi ilə qəbul olan Fəridə burada ingilis dilində təhsil alacaq.

Fəridə təhsil aldığı müddətdə bütün fənləri əla qiymətlə oxuyub, dəfələrlə bilik yarışlarında, müsabiqə və olimpiadalarda uğur qazanıb. Həmçinin 9-cu və 11-ci siniflərdə fərqlənmə attestatı alıb.

Astaralılar Fəridənin uğurlarına çox sevinirlər. Ən əsası ali təhsil aldıqdan sonra onun öz xalqı üçün layiqli işlər görəcəyinə ürəkdən inanırlar.

**Zəfər ORUCOĞLU**

● SƏNƏTKARLIQ

## Dulusçu Zahid usta: "Sevinirəm ki, şagirdlərim var"



**Azərbaycanda xalq sənətinin bir növü olan dulusçuluğun tarixi çox-çox qədimlərə gedib çıxır. Neolit dövründə meydana gələn dulusçuluqla ilk vaxtlar əsasən qadınlar məşğul olublar. İnkişaf edərək müstəqil sənət sahəsinə çevrilməsi isə Orta əsrlərin sonlarına gedib çıxır.**

Saxsı qablara tələbat dulusçuluq mərkəzlərinin yaranmasına səbəb olub. Bu da demək olar ki, Azərbaycanın bütün vilayətlərini əhatə edib. XVIII əsrin sonu - XIX əsrin əvvəllərində dulusçular əsasən məişətin müxtəlif sahələrində işlədilən çoxlu gil məmulatı hazırlayıblar. Bunlar məişətdə istifadə olunmaqla təyinatlarına görə bir neçə qrupa bölünüb. Daha çox səhəng, cürdək, bardaq, kuzə, küp, sürahi, dolça, parç qablarına üstünlük verilib. Dulusçular hər növ qab-qacaq istehsal etməyi bacarıblar.

Azərbaycan sənətkarlıq tarixində dulusçuluq və saxsı qablar istehsalı haqqında məlumat ən çox Naxçıvan xanlığının tarixində yer alıb. Şamaxı, Gəncə şəhərlərində, eləcə də Şəki xanlığının bir çox qəsəbəsində bu sənət digər yerlərə nisbətən yaxşı inkişaf edib. Eyni zamanda ətrafı gil yataqların zənginliyinə görə seçilən Bakı şəhərinin dulusçuları da düzəltdikləri gözoxşayan saxsı qablarla tanınıblar.

Nə yaxşı ki, qədim xalq sənətini indinin özündə də yaşadanlar var. Onlardan biri Lənkəranın Separadi kəndindən olan Zahid Əkbərovdur. Ömrünün 60-cı ilini yaşayan Zahid usta uşaqlıqdan dulusçuluğa könül verib. İllər keçdikcə ata-baba sənətinə daha ürəklə bağlanıb, düzəltdikləri yalnız ona hörmət qazandırıb.

Zahid usta iş vaxtı babasından ona yadigar qalan 120 yaşlı dulusçuluq çarxından istifadə edir. Həyatda ən qiymətli nemət bildiyi çarxa motor qoşaraq onun sürətini bir qədər nizamlayıb. Nəticədə indi işi asan görməklə həm də istehsal tez başa gəlir. Elə yeniliyin hesabına lazım gələrsə bir gündə 100 piti qabı hazırlamaq olar.

Ustanın düzəltdiyi təndirlər də keyfiyyətli alınır, sifarişçilər tərəfindən razılıqla qarşılanır. Bundan əlavə, ustanın ərsəyə gətirdiyi saxsı qablar xarici turistləri heyran qoyur, hətta alıb öz ölkələrinə aparırlar.

Söhbət zamanı Zahid usta bildirdi ki, bu yaxınlarda düzəltdiyi qablardan Laçına apardılar: "Bu sənətin sirlərini gənc nəslə öyrədirəm. İndi şagirdlərim var. Sevinirəm ki, qədim tarixə malik dulusçuluq sənəti itmir..."

**Z.ƏLİYEV**

● PROBLEM

## Qaş düzəltdikləri yerdə göz çıxarıblar

**Təxminən 10-15 il əvvəl kəndimizə içməli su verildi. Kəndimizi ikiyə bölüb üzü cənuba doğru axan Akkuşa çayının sahilində xarici ölkədən gətirilmiş sudurulducu qurğu quruldu. Buradan isə kəndin ayrı-ayrı yerlərinə yeraltı polietilen borularla xətlər çəkildi, bulaqlar tikildi.**



Mənbəyini Kür çayından götürən Akkuşa çayının boz-bulanıq suyu tam təmizlənərək həmin bulaqlara ötürülürdü. Əhali ekoloji cəhətdən təmiz olan bu sudan istifadə edərək dövlətimizə, belə savab işi görənlərə dua edirdi. Axı bu yerlərin sakinləri yüz illər boyu bulanıq sudan istifadə etmişdilər.

Lakin bəzi səhlənkar və məsuliyyətsiz adamların günahı üzündən biz yenə əvvəlki vəziyyətə düşmüşük. Bulaqlarımız quruyub. Yenə bulanıq sudan istifadə etməli olmuşuq. Yaranan vəziyyətlə əlaqədar dəfələrlə "Azərsu" ASC-nin 3 saylı Regional Su-Kanal İdarəsinin Salyan rayonundakı sahəsinin rəhbərliyinə müraciət etmişik. Cavab veriblər ki, yaranmış vəziyyəti bilirik. Səbəb 48 saylı Lənkəran Yol İstismarı İdarəsinin 2023-cü ilin iyul ayında kəndarası yollarda asfalt çəkilişi zamanı Şorsulu kəndində 11 bulağı və 46 saylı Cəlilabad Yol İstismarı İdarəsinin həmin nümayəndəliyə daxil olan Boranıkənd kəndində 15 bulağa gedən yeraltı boru xətlərini zədələyərək sıradan çıxarmalarıdır.

Yol çəkmək, asfalt işi görmək savab iş sayılır. Ancaq, necə deyərlər, gərək elə edəsən ki, qaş düzəltdiyin yerdə vurub göz çıxarmayasan. Belə bir yarıtmaz işin nəticəsidir ki, bir ildən çoxdur içməli su üzünə həsrət qalmışıq. Su işçiləri isə deyirlər ki, yol idarələrinə dəfələrlə yazılı və şifahi şəkildə müraciətlər etmişik. Cavabları bu olub ki, gəlib xətləri bərpa edəcəyik. Amma gün keçir, ay dolanır, il dəyişir, ortada heç bir nəticə yoxdur.

**İlyas KƏRİMOV,**
**Məhərrəm ABIŞOV,**
**Salyan rayonu, Şorsulu inzibati ərazi nümayəndəliyinin Boranıkənd kənd sakinləri**

● NARAZILIQ

## İşığımız nə yanan kimi yanır, nə də sönən kimi sönür

**Son vaxtlar rayonumuzda, eləcə də bizim Xanərəb kəndində işıqların tez-tez sönməsi sanki adət olub. Kimlərsə buna adi hal kimi baxa bilər. Amma biz rayon elektrik şəbəkəsinin bu "adət"indən çox əziyyət çəkirik.**




Sanki əsəblərimizlə oynayırlar. Bir də görürsən yaxşı havadı - nə külək əsir, nə yağış yağır. Amma hansı səbəbdənsə işıq bir saat ərzində az qala beş dəfə yanıb-sönür. Bu isə ciddi problemlər yaradır. Yaxın günlərin söhbətidir. Rayon elektrik şəbəkəsi işçilərinin "məharət"i sayəsində kəndimizdə bir neçə subartezian quyusunun nasosu yanıb sıradan çıxdı. Kənd camaatı bir həftədən çox susuzluqdan əziyyət çəkdi. Neçə dəfə su idarəsinə gedib gəldik. Öyrəndik ki, başqa kəndlər də bizim günümüzdədir. Elektrik şəbəkəsinin yarıtmaz fəaliyyəti rayonun ayrı-ayrı kəndlərində 51 subartezian quyusunun nasosunun sıradan çıxmasına səbəb olub. Şəbəkənin bu "rejim"i ailə büdcəmizə də çox ziyan vurur. Nə qədər soyuducu, kondisioner, televizor yanıb sıradan çıxıb.

Hörmətli redaksiya, xahiş edirik üzləşdiyimiz durumu nəzərə alıb vəziyyəti aidiyyəti dövlət qurumları qarşısında qaldırasınız. Bəlkə onlar bizə kömək etdilər.

**Asif QULİYEV,**
**Bərdə rayonunun Xanərəb kənd sakini**





# Mədəniyyət





Keçmişdən bu günə

# Rənglərin su üzərində rəqsi

## Saf su, torpaq boya, dananın ödü, mərmər tozu... və min il öncə Təbrizdən dünyaya yayılan ebru sənətinin əsrlər boyu yaşayacaq nümunələri

**"Qəribə görünsə də, öz əslimlə, həyatımla sevib-seçdiyim, cani-könüldən bağlandığım ebru sənəti arasında yaxınlıq görürəm. Özbəkistanın Buxara şəhərində dünyaya göz açdım. Atamın işi ilə əlaqədar ailəmiz orda yaşayırdı. Atam da, anam da qədim Azərbaycan şəhərlərindən biri olan İrəvanda doğulub, boya-başa çatıblar. Anam əslən irəvanlı, atam isə təbrizlidir. Ata babam İrəvana Təbrizdən gedib. Bildiyimə görə, ebru sənəti də VIII-IX əsrlərdə Buxarada "doğulub". Bu sənəti yaşadan, inkişaf etdirən türk xalqları, o cümlədən Təbriz xəttatları olub. Yəni mənim kimi, ebru sənətinin də bir tərəfi təbrizlidir..."**



**Ebruçu Sevinc Əliyeva ilə emalatxanasında görüşüb söhbətləşirik. Rəssamlığa həvəs göstərməsinin səbəbini izah etməyə çətinlik çəkir: "Nə ana, nə də ata tərəfimdə heç kim rəssam olmayıb. Rəssamlığa məndə maraq oyadan bəlkə də sözlə ifadə edə bilmədiyim duyğularım oldu".**

### Ebrunu canlı görmək arzusu...

Çoxumuz sonralar həyat yolumuza yoldaşlıq edən sənəti uşaq yaşlarından, bəzən elə Sevinc Əliyeva kimi fərqinə varmadan seçirik. Kiçik yaşlarında onu ən çox heyran edən, ecazkar təsir bağışlayan rənglər, naxışlar olub. Kədərlə, dərdlə, ayrılıqla üzləşməsi ən çox sevdiyi şəhərdə - İrəvanda başlayıb: "Səkkiz yaşım olanda İrəvana döndük. Əslində, mənim uşaq təsəvvürümdə heç nə dəyişmədi. Buxara xalqın tarixi ənənələrini, milli-mənəvi dəyərlərini qoruyub saxladığı yerdir. İrəvanda da həmin ruhu gördüm. Türk xalqının qədim adət-ənənələrinə bağlılıq İrəvanda çox yüksək idi..."

Deyir ki, biz Zəngibasar mahalının Uluxanlı elindənik, Uluxanlı İrəvana çox yaxındı, evimizin eyvanından şəhəri izləyirdik. Amma Sevinc ikicə il yaşaya bilib o gözəl, o doğma yerlərdə: "Buxarada orta məktəbdə rus dilində oxuyurdum. İrəvanda Azərbaycan məktəbinə getdim. 1988-ci il idi. Vəziyyətin ağır olduğunu əvvəl ailə böyüklərimin danışıqlarından eşitdim, sonra da gözlərimlə gördüm. Erməni quldurları azərbaycanlıların evlərinə hücum çəkir, insanlara işgəncə verir, onları qətlə yetirir, ya da şikəst edirdilər. Atamın valideynləri çoxdan vəfat ediblər. Onu nənəsi böyüdüb. Anamın ata-anası sağ idi. Onların məni, balaca qardaşımı, hamilə anamı qorumağa çalışmaları, bizə görə qorxmaları, canımızı götürüb evdən qaçmağımız, qamışlıqda gizlənməyimiz indi də gözlərimin önündən çəkilmir. Çox böyük çətinliklə Gürcüstana getdik. Orda qısa müddət qaldıq. Sonra Bakıya gəldik, burda məskunlaşmalı olduq".

Sevinc Bakıda 80 saylı orta məktəbdə təhsilini davam etdirib. Doqquzuncu sinfi bitirib sənədlərini Bakı Mədəni Maarif Texnikumuna (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdində Humanitar Kollec) verib. Texnikumda həmin il açılan xalçaçı rəssam şöbəsinin tələbəsi olub. Xalçaçı rəssam Mətanət Aslanovadan, Xalq rəssamı Arif Hüseynovdan dərs alıb. O, müəllimlərindən minnətdarlıqla danışır...

Texnikumu bitirdikdən sonra emalatxana açmaq arzusunu gerçəkləşdirə bilməyib. Uzun illər ixtisasına aid olmayan işlərdə çalışıb. "Görünür sənət ruhu bizi tərk etmir. Sosial şəbəkələrdə ebru sənəti üzrə ustad dərsi elanına rast gəldim. Mən isə ebru sənətini yaxından, canlı görmək istəyirdim. Ebru ilə məşğul olan Umruzər xanımla tanış oldum, daha sonra dərslərinə qatıldım. Ebru sənətini canlı görəndən sonra ona aşiq oldum. O gündən bu sənətdən ayrıla bilmirəm... Bir neçə dərsdən sonra Umruzər xanım Azərbaycandan getdiyi üçün dərslərə davam edə bilmədim. Ebru sənəti ilə bağlı yenə videoları izləyirdim. İnternet vasitəsilə boyalar sifariş verdim. Öyrəndiklərimi tətbiq etməyə çalışırdım, gah alınırdı, gah da alınmırdı... Ebru sənətinə bağlandıqca onun çətinliklərini görürdüm. Amma öyrənmək, tətbiq etmək marağım üstün gəldi. Öyrəndim ki, ən yaxşı ebru ustaları Türkiyədədir. Mən türkiyəli ebru ustası Bəkir Özsu ilə tanış oldum. Otuz ilin ebruçusudur, bu sənətin ustadıdır. Türkiyədə öz sözünü demiş ebru ustalarından biridir. Ona internet vasitəsilə ebrularımın fotolarını, videolarını göndərirdim. Bəkir Özsu əl işlərimə baxırdı: "Təkbaşına bu qədər bacarmısansa, halal olsun, amma sən mütləq canlı görüb tətbiq etməlisən" deyirdi. Türkiyəyə getməli oldum, ustanın özü ilə görüşdüm. Bursanın Qaracabəy qəsəbəsində yaşayır. Orda emlatxanası var. Bir həftə ərzində ustanın tətbiq etdiklərini izlədim və öyrənməyə səy göstərdim. Çalışırdım ki, heç nəyi unutmayım. Geri döndükdən sonra onları tətbiq etməyə çalışdım... Bəkir Özsu indi də mənə internet vasitəsilə dəstək olur".





### Türklərə xas sənət...

Söhbətimizi Sevinc Əliyeva, necə deyərlər, iş başında davam etdirir. O, yeni bir ebru əsəri yaratmaq üçün hazırlıqlara başlayır: "Bəziləri ebru sözünün "suyun üzü", bəziləri "üz üçün su"... mənalarını ifadə etdiyini deyiblər. Heç biri doğru deyil. Ebru fars dilindəki əbri sözündən götürülüb. Əbir bulud, əbri buludvari deməkdir".

Ebruçu suyun üstünə kağız sərir, onu səliqə ilə hamarlayır. Sonra kağızı çıxarıb atır. Fırçanı götürüb yaşıla çalan boyaya batırır və suyun üstünə səpir. Boya yayıldıqca suyun üzərində buludabənzər forma yaranır. Sevinc Əliyeva danışır: "Ebru, əslində, xəttatların yaratdıqları kağız boyama, kağız bəzəmə sənətidir. Məsələn, keçmişdə bir xəttat digərinə deyə bilərdi ki, mənə ebrulu, yəni buludvari, yaxud bulud naxışlı kağız ver. Sadəcə, alınan formaya görə belə deyiblər. Xəttatlar ebru qaydasında boyadıqları kağızlardan kitabların üzlüyü kimi və ya onların içərisində istifadə ediblər. Açıq rəngdə olubsa, xəttatlar onun üzərində yazılar yazıblar".

Bu sənətin tarixindən söz salırıq. Ebru sənətini daha çox cığatayların adı ilə bağlayırlar. Ancaq başqa fərziyyələr də var. Sevinc Əliyeva deyir ki, Hindistanın, Çinin və digər ölkələrin də adlarını çəkənlər olub:



"Əsas fərziyyəyə görə, bu sənət VIII-IX əsrlərdə Buxarada yaransa da onu yaşadan ən mükəmməl xəttatlar Təbrizdə olublar. Təəssüf ki, türkiyəli ustalar ebruya İrandangəlmə bir sənət kimi yanaşırlar. Bu sənətdən farsların istifadə etmədikləri hamıya məlumdur. Ebru sənətini Təbriz xəttatları yaşadıblar. Altı əsrə yaxındır ki, Osmanlı türkləri ebruya sahib çıxıb yaşatdıqlarına görə, bu sənət günümüzə qədər gəlib çatıb. Elə ebru sənətinin XVI əsrə aid olan ən qədim nümunəsi də İstanbulda Topqapı sarayında saxlanılır".

Sevinc Əliyeva bildirir ki, ümumiyyətlə, ebru sənətini yalnız türk xalqları tətbiq ediblər. Bu günə qədər də belə davam edir. Başqa ölkələrdə, digər xalqlar arasında bu sənətlə məşğul olanlar var. Amma heç biri naxışlarını, tətbiqolunma qaydalarını, boyalarını tam şəkildə yerinə yetirə bilmir: "Sanki türklərə xas bir sənət olduğuna görə biz bu sənəti doğru-dürüst yaşada bilirik".

Sevinc Əliyeva diqqətimizə çatdırır ki, çinlilərdə suminaqaşi sənəti var, ebru sənətindən daha qədimdir: "Çində bizim xəttatlar kimi gözəl yazı yazanlar sabunla mürəkkəbi yuyarkən suyun üzərində təsadüf nəticəsində alınan formanı kağıza köçürüblər. Suminaqaşi sənəti belə yaranıb. Suminaqaşi ustaları bir rəngdən, bir mürəkkəbdən və adi yağış suyundan istifadə edirlər. Amma ebruçular nə adi sudan, nə sabundan, nə də mürəkkəbdən istifadə edirlər. Ebru üçün şirin su olmalıdır. Çeşmədən su alıb istifadə edə bilmərik. Cod suyun üzərində boya çat verir. Şirin sudan da necə varsa, elə də istifadə etmirik. Keçmişdə selik yaradan məhlullar kimi heyvanın çeyirdəyindən, kətan toxumundan, gəvən otunun kökündən istifadə ediblər və onun ömrünün azlığına, tez xarab olmasına görə sonralar dəniz yosununa keçiblər. İndi ebruçular suya dəniz yosunu qatır".

Əvvəllər boyanın hazırlanmasında saqqız ağacından alınan şirədən istifadə ediblər. O da keyfiyyətli olmayıb. Sonra dananın ödünü fikirləşib tapıblar. Ebruçu deyir ki, öddəki turşuluq həm boyanı incəldir, həm də yapışqanlıq yaradır və suyun üzərində genişlənir. Dananın ödü ilə torpaq boyaların birləşməsi sayəsində ebru sənəti nümunələri yaranır.

Ebru sənətində süni heç nədən istifadə olunmur. Sevinc Əliyeva əlindəki fırçanı göstərərək deyir: "At quyruğundandır, ebruçunun su üstündə saldığı naxış, ebrunun ilk forması battaldır. Sonra ebruçu son dərəcə səliqə ilə, ehtiyatla su üzərinə fırça ilə yaşıl, sarı, çəhrayı boyalar qoyur. Və onları biz aləti ilə formaya salır. Su üzərində boyaları şəkilləndirməyə başlayır".

### Ən yaxşı ebru ustaları belə özlərini mükəmməl hesab etmirlər...

Masanın üstündəki digər boyalara da baxırıq. Rəngarəngliklər göz oxşayır. Hamısı təbiidir. Ebrunun rəngləri də torpağın bağrından süzülür. Sevinc Əliyeva bizi məlumatlandırır: "Torpaqdan alınma piqment və oksid boyalarıdır. Ebru sənətində yalnız təbii boyalardan istifadə olunur. Çünki süni boyaların keyfiyyəti olmur, uzunömürlü də deyil. Süni boyaların tərkibinə öd qatılanda da dərhal büruzə verir. Boyalar palçıq, daha doğrusu, toz şəklində satılır. Böyük mərmər daşın üzərində mərmər əl daşı ilə, o toz halında olan boya su ilə saatlarla əzilərək o qədər incəldilməlidir ki, axa bilsin. Sonra damlalarla öd və saf su qatırıq".

Sanki su üzərində çiçək "açır". Ebruçu tələsmədən ağ kağız götürüb suyun üstünə sərir. Ebrulu kağızı qaldırıb havada saxlayır və ehtiyatla masanın üstünə qoyur. Biz elə bilirik ki, əsər artıq hazırdır və ebruçunun işi bununla bitir. Sevinc Əliyeva deyir ki, ebrulu kağız quruyundan sonra ebruçu onun üzərinə "ahər" dedikləri yumurtanın ağından hazırlanan və zəy daşı ilə qarışdırılan mayeni sürtür, kağızın üzü hamarlanır: "Əlinizi sürtsəniz belə boya əlinizə çıxmayacaq. Zəy daşının sayəsində kağızı qurd yeməyəcək. Ahərdən sonra xüsusi yapışdırılma qaydası var. O da təbii olmalıdır. Buğdanın nişastası ilə yapışqan hazırlayıb kartona yapışdırırıq. Karton üzərində olan ebru əsrlər boyu yaşaya bilir. Yalnız təbii fəlakət olarsa, sel aparарsa, dənizdə, çayda batarsa, korlanar, ya da odda yana bilər. Başqa heç bir təhlükəsi yoxdur".

Sevinc Əliyeva kağız, taxta, şüşə üzərində də digər sənət növlərində əsərlər yaradır. Deyir ki, onların hər birində ölçünü özüm müəyyənləşdirirəm: "Amma suyun üzərində işləyəndə onu ebruçudan çox su təyin edir. Su canlıdır, yaddaşı var. Elmi tədqiqatlar da bunu təsdiq edib. Ebruçu suyun üzərinə boyanı qoyduğu zaman bilmir ki, o nə qədər açılacaq. Ebruda siz Su ilə Yaradan arasında olan sənətin vasitəçisi olursunuz. Sizin vasitənizlə ebru ərsəyə gəlir".

Ruha yaxın sənətdir ebru. İnsanı sakitləşdirir. Ebruçu danışır: "Kağız, taxta, şüşə üzərində işləyəndə heç vaxt beynim susmur. Hətta yaddaşımdan silinənlər belə geri qayıdır. Amma ebru işləyəndə bir də işim başa çatdıqdan sonra fərqində oluram ki, mən heç nə düşünməmişəm. Ebru yeganə sənətdir ki, beyni susdurur, heç nəyi - içərisində olduğun zamanı, məkanı hiss etmirsən. Yorulmursan. Bu sənət sevgi və səbir tələb edir. Sevgi və səbriniz varsa, bu sənətlə bütünləşdinizsə, nə zamanın, nə dünyada baş verən pisliklərin fərqində olursunuz. Heç bir hadisə artıq sizə o dərəcədə təsir eləmir. Mən bunları öz təcrübəmdən deyirəm. İllər əvvəl çox böyük bir stress yaşadım. Ebru sənətinə gəldikdən sonra həyata baxışım dəyişdi. Ebru məni sakitləşdirdi, həyatı sevdirdi. Deyə bilərəm ki, ebru sənəti sayəsində ikinci dəfə həyata gəldim. Ebrunun sayəsində ayaq üstəyəm. Mən bu sənəti yaşatmağa çalışdığım qədər də o məni yaşadır".

Əslində, Sevinc Əliyeva müəllimsiz başlamayıb bu sənətə. Umruzər xanımın sayəsində ebru sənətini yaxından tanıyıb. Bəkir Özsudan isə bu sənətin dərinliyini öyrənib. "Nə qədər içərisində çabalasam da, ustam olmasa, bunları edə bilməzdim", - deyir. - Özüm də müəlliməm. Dərs dediklərim Azərbaycanda artıq ebruçu kimi tanınırlar". İstəyi odur ki, tələbələri şöhrət xatirinə onun əməyini yerə vurmasınlar. Bir də heç zaman ebru sənətinə qarşı nankor olmasınlar.

"Mən Cənubi Azərbaycandan Türkiyəyə getmiş bir sənətin adını yaşatmağa çalışıram. Bütün dünyaya hayqırmaq istəyirəm ki, baxın, bu sənət bizdə yaranıb. Dahi Nizami Gəncəvi "Xosrov və Şirin" poemasında ebrudan bəhs edərək:

*Zirək, şəkil çəkən, qələmi iti,*
*Xəyalən çəkərdi min bir surəti.*
*İncə, zərif işdə xeyli pərgardı,*
*Suların üstündə naxış salardı.*

- yazıb. Bəzi araşdırmaçıların məlumatına görə, dahi Azərbaycan şairi özü də bu sənət növü ilə məşğul olub". Azərbaycanda ebrunun artıq XI-XII əsrlərdə yayıldığını təsdiq edən faktlardan biri də budur. Ebruya yalnız şöhrət naminə yox, xalqımızın tarixi keşmişinə ehtiramımız olaraq sahiblənib, onu yaşatmalı və tanıtmalıyıq.

Emalatxananın divarından iri çərçivədə "Xarıbülbül" rəsmi asılıb. Sevinc Əliyeva söhbətimizin sonunda bu əsərin yaranmasından danışır: "Azərbaycan Ordusunun Şuşa zəfərindən sonra Mədəniyyət Nazirliyi tərəfindən Şuşa yaradıcılıq emalatxanası yaradıldı. Ora bəstəkar, şair, rəssam və digər sənət sahələri üzrə yaradıcı insanlar dəvət olundu. Onlardan biri də mən idim. Hər birimiz öz sahəmiz üzrə bir əsər təqdim etməli idik. Mən "Xarıbülbülü" seçdim. Zatən üzərində uzun zaman idi işləyirdim. Ebruda ən çox çəkmək istədiyim xarıbülbül idi, onu da iki il qabaq çəkdim. Ancaq ebru sənətində öyrənmək, tətbiq etmək istədiyim işlər hələ çoxdur. Mən özüm-özümə hələ usta yox, ebruçu deyirəm. Bu elə sənətdir ki, ən yaxşı ebru ustaları belə özlərini bu işdə mükəmməl hesab etmirlər. Ebru sənətində nə qədər usta olsan belə öyrənəcəklərin öyrəndiklərindən çoxdur"...

***Zöhrə FƏRƏCOVA,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

# Mədəni sərvətlərimiz dünyaya tanıdılır

## Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti ilə Türk Mədəniyyəti və İrsi Fondu arasında anlaşma memorandumu imzalanıb



Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və nazirliyin müvafiq qurumları tərəfindən zəngin tarixi-mədəni irsimizin qorunması, bərpası, gələcək nəsillərə çatdırılması üçün mütəmadi tədbirlər həyata keçirilir. Möhtəşəm Zəfərimizdən sonra Qarabağ və Şərqi Zəngəzurun əsl sahiblərinə qovuşması ilə əlaqədar bu missiya daha da genişlənib. 30 il ərzində erməni vandalizminə tuş gələrək vəhşicəsinə dağıdılmış, Yer üzündən silinmiş, özgələşdirilmiş abidələrimizin nəinki müəyyənləşdirilməsi, əvvəlki simasına qaytarılması, bu barədə beynəlxalq aləmin məlumatlandırılması da prioritet məsələyə çevrilib.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli 132 nömrəli Qərarına əsasən, işğaldan azad olunmuş ərazilərdə 705 tarix və mədəniyyət abidəsi dövlət qeydiyyatına alınmışdır. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 29 oktyabr tarixli 1170 nömrəli Fərmanının 7.8-ci bəndinə uyğun olaraq işğaldan azad olunmuş ərazilərdə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən 542 abidənin, eləcə də 368 tarixi, memarlıq və arxeoloji əlamət kəsb edən obyektin inventarlaşdırılması həyata keçirilib. Dövlət mühafizəsində olan 705 abidədən 163 abidədə inventarlaşdırılma işlərinin aparılması mümkün olmayıb. İnventarlaşdırılmayan abidələrin əksəriyyəti mina təhlükəsi baxımından riskli, yaşayış məntəqələrindən kənar, yüksək dağlıq və meşəlik ərazilərdə yerləşir. Həmçinin arxeoloji abidələrin yerlərinin müəyyənləşdirilməsi üçün yetərli məlumatların olmaması, eləcə də işğaldan əvvəlki dövrlərə aid siyahılarda abidələrin ünvanlarının dəqiq göstərilməməsi inventarlaşdırılma işlərinin aparılmasında çətinlik yaradır.

Bununla belə, Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti sadalanan işlərin öhdəsindən böyük məsuliyyət, peşəkarlıq və əzmlə gəlir, fəaliyyətini günün tələbləri istiqamətində qurur. Tarixi-mədəni sərvətlərimizə münasibətdə əsl diqqət, qayğı göstərməklə yanaşı, onların təbliği, sərhədlərimizdən kənarda, türk dünyasında tanıdılmasından ötrü müvafiq qurumlarla işgüzar əlaqələr yaradır, görüşlər keçirir. Belə görüşlərdən biri də Türk Mədəniyyəti və İrsi Fondunun rəhbərliyi ilə keçirilib və geniş müzakirələr aparılıb. İki qurum arasında "Azərbaycan Respublikası ərazisində yerləşən tarix və mədəniyyət abidələrinin qorunması və bərpası sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu" imzalanıb. Sənədi Dövlət Xidmətinin rəisi Səbinə Hacıyeva və Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova imzalayıblar.

Anlaşma memorandumunun imzalanması ölkəmizin ərazisində yerləşən və dövlət mühafizəsinə götürülmüş tarix və mədəniyyət abidələrinin qorunub saxlanılması, bərpa və konservasiyası, müvafiq istiqamətdə təlimlərin təşkili, eləcə də mədəni irs sahəsində əməkdaşlığın daha da genişləndirilməsi məqsədi daşıyır. Sözügedən sənəd əsasında ilk olaraq Füzuli rayonunun işğaldan azad olunmuş Qoçəhmədli kəndində yerləşən məscidin bərpasına dəstək göstərilməsi planlaşdırılır.

İmzalanma mərasimində qardaş türk respublikaları ilə bütün sahələrdə münasibətlərin inkişafı, xüsusilə də mədəni əlaqələrin möhkəmlənməsinin sevindirici hal olduğu bildirilib. Qeyd olunub ki, Türk Mədəniyyəti və İrsi Fondu da bu istiqamətdə fəal rol oynayaraq, türk xalqlarının mədəniyyətinin və mədəni irsinin qorunması, təbliği və tanıdılması sahəsinə töhfələr verməkdədir. Azərbaycanın da bu sahəyə xüsusi dəstək göstərdiyi vurğulanaraq, qarşıdakı illərdə əməkdaşlığın daha da dərinləşəcəyinə inam ifadə olunub. Tədbirdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***Qurban MƏMMƏDOV,***
***"Azərbaycan"***

# Polad Bülbüloğlu II Ermitaj Mükafatının laureatı olub

Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı səfiri Polad Bülbüloğlu Sankt-Peterburq Beynəlxalq Birləşmiş Mədəniyyətlər Forumunun təşkilat komitəsi və Dövlət Ermitaj Muzeyi tərəfindən təsis edilən II Ermitaj Mükafatının laureatı olub.

AZƏRTAC xəbər verir ki, bu barədə Rusiya Federasiyası Hökuməti sədrinin müavini Tatyana Qolikova məlumat verib.

Rusiya rəsmisi mətbuat konfransında deyib: "Xarici mədəniyyət xadimi kimi sizlərin də yaxşı tanıdığı, Sovet İttifaqının qızıl səsi, Azərbaycanın Rusiya Federasiyasındakı səfiri Polad Bülbüloğlu, Rusiya tərəfdən isə tanınmış ad Boris Yakovleviç Eyfman II Ermitaj Mükafatının laureatlarıdır".

Azercell

# abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən təqdim olunan xidmətlərin keyfiyyətinin daha da yüksəldilməsi, müştərilərə təklif olunan xidmət və tariflərin optimallaşdırılması məqsədilə 8 oktyabr 2024-cü il tarixindən etibarən Fakturasız (SimSim) xətt sisteminə aid "Turist" tarif paketləri və nömrələri üzrə 15 günlük istifadə müddəti artırılaraq 30 gün müəyyən edilməklə abunəçilərə daha rahat istifadə imkanı təmin ediləcək. Həmçinin "Turist" tarif paketləri çərçivəsində təqdim edilən WhatsApp, Facebook, Instagram, Snapchat və TikTok istifadəsi üçün təqdim edilən internet həcmi və ümumi internet istifadəsi ilə bağlı nəzərdə tutulan internet həcmi birləşdirilərək daha rahat və əlverişli istifadə imkanı yaradılır.

Azərbaycan Respublikasına qısamüddətli səfər edən xarici ölkə vətəndaşlarının fakturasız (SimSim) xətt sistemində yalnız "Turist" tarif paketlərinə qoşulma imkanı təmin edilməklə digər tarif paketlərə qoşulmalara məhdudiyyət qoyulacaq. Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazəsi olan əcnəbi vətəndaşlar "Turist" tarif paketi üzrə 30 gün istifadə müddəti bitdikdən sonra nömrədən istifadəni davam etdirmək üçün müvafiq sənədi təqdim etməklə "Turist" paketlərindən və ya digər tarif paketlərindən istifadəni davam edə biləcəklər.

| Turist tarif paketlərinin adı | Qiymət | Danışıq | İnternet |
|---|---|---|---|
| Xoş gəldin | 39 AZN | 100 ölkədaxili və beynəlxalq dəqiqə | 30 GB |
| Super | 59 AZN | 200 ölkədaxili və beynəlxalq dəqiqə | 60 GB |
| Maks | 79 AZN | 300 ölkədaxili və beynəlxalq dəqiqə | 120 GB |

**Qeyd:** Abunəçilər göstərilən dəyişikliklər, tarif və internet paketlərinin şərtləri, sifarişi, başqası ilə əvəzetmə və imtina qaydası barədə, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən (**www.azercell.com**), həmçinin Müştəri Xidmətlərinə (MX ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.



OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" *qəzetinə*

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Şuşada Beynəlxalq Qastronomiya Gününə həsr olunan "dəyirmi masa" təşkil olunub

**Dövlət Turizm Agentliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi və Milli Kulinariya Mərkəzinin birgə təşkilatçılığı ilə sentyabrın 6-da Şuşa şəhərində Beynəlxalq Qastronomiya gününə həsr olunan "dəyirmi masa" keçirilib.**



AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycanla yanaşı, islam ölkələri arasında əsas turizm bazarları hesab olunan Türkiyə, Özbəkistan, Pakistan, Səudiyyə Ərəbistanı və İrandan olan kulinariya nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edən 1 saylı Şuşa şəhər məktəbinin direktoru Səbinə Gözəlova Şuşa şəhərinin yaranma tarixindən, Azərbaycanın tarixi mədəniyyət mərkəzi olan şəhərin yetişdirdiyi görkəmli musiqi xadimlərindən danışıb. Bildirib ki, Şuşa şəhəri Qarabağ xanlığının paytaxtı olaraq Azərbaycan tarixində çox böyük siyasi, mədəni və strateji yerə malikdir. S.Gözəlova diqqətə çatdırıb ki, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusu Şuşanı işğalçılardan azad edib. Qısa müddət ərzində mədəniyyət paytaxtı Şuşa şəhərinin yenidən qurulması, tarixi-mədəni və dini abidələrin bərpa edilərək istifadəyə verilməsi istiqamətində aparılan işlər təqdirəlayiqdir.

Azərbaycan Turizm Bürosunun Qastronomiya şöbəsinin müdiri Səkinə Əsgərovanın təqdimatında "Azərbaycan bir turizm destinasiyası kimi" mövzusunda videoçarx nümayiş olunub.

Tədbirdə Pakistanın Kənd Təsərrüfatı Universitetinin dekanı, professor Umar Faruq "Pakistan qastronomiyası və milli mətbəx" mövzusunda çıxış edib. İranlı ekspert Mona Şahbazi islam ölkələrində qastroturizmin imkanlarından, Özbəkistanın Dövlət Turizm Komitəsinin nümayəndəsi Cahongir Azamov isə zəngin özbək mətbəxi, mədəniyyəti və adət-ənənələrindən danışıblar.

Türkiyənin Afyon Kocatepe Universitetinin Turizm fakültəsinin müəllimi, professor Hüseyin Pamukçu türk mətbəxinin təamlarından bəhs edib, bölgənin ləzzətli yeməkləri ilə bağlı məlumat verib. H.Pamukçu həmçinin islam ölkələrinin qastronomiya sahəsində olan sıx əməkdaşlığı barədə də ətraflı danışıb. Bildirib ki, bu sahəyə uyğun həyata keçirilən müxtəlif layihələr atılan ən vacib addımlardan biridir.

"Dəyirmi masa" ekspertlərinin iştirakı ilə sual-cavabla davam edib.

# Vikipediyanın Türk dili bölməsində "Azərbaycan xalçası" səhifəsi istifadəyə verilib




**Azərbaycan milli mədəniyyətinin təbliği məqsədilə Türkiyədəki səfirliyimizin nəzdindəki Azərbaycan Mədəniyyət Mərkəzi Türkiyə türkcəsində "Vikipediya" Beynəlxalq Elektron Ensiklopediyasında "Azerbaycan halısı" adlı bölmə istifadəyə verib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Mədəniyyət Mərkəzi yanında vikipediya könüllüləri tərəfindən hazırlanan bölmədə Azərbaycan tətbiqi sənətinin bir qolu olan xalçaçılığın ölkəmizin qədim tarixi, zəngin mədəniyyəti, xalqın dərin istedadını əks etdirdiyi qeyd olunur.

Bildirilir ki, Azərbaycan xalqının milli mədəniyyət tarixində özünəməxsus yer tutan və xalq sənətinin ən geniş yayılmış növü olan xalçaçılıq sənəti Azərbaycan xalqının simvollarından birinə çevrilib.

Məqalədə Azərbaycan xalça sənətinin tarixi ilə əlaqədar maraqlı faktlar öz əksini tapıb.

Yaradılmış bölmədə orta əsrlərdə Şamaxı, Təbriz və Bərdə şəhərləri Azərbaycanda xalçaçılığın mərkəzləri olduğu vurğulanır, "Kitabi-Dədə Qorqud" dastanında, habelə Azərbaycan klassik ədəbiyyatının tanınmış şairləri Əbülla Gəncəvi, Nizami Gəncəvi, Əfzələddin Xaqaninin yaradıcılığında xalçaların vəsf edildiyi vurğulanır.

Qeyd olunur ki, xalçaçılıq böyük mədəniyyətə və qədim tarixi ənənələrə malik xalqlara məxsus sənətdir və Azərbaycan xalçaçılıq sənəti 2010-cu ildə UNESCO-nun Qeyri-maddi Mədəni İrs Siyahısına daxil edilib.

Yaradılmış "Azərbaycan xalçasının dünya mədəniyyətinə təsiri", "Azərbaycan xalçaçılıq məktəbləri", "Azərbaycan xalça muzeyi", "Xarici rəssamların əsərlərində yer alan Azərbaycan xalçası", "Xalçaların naxışları" və s. altsərlövhələrdə maraqlı məlumatlar, fotoşəkillər, bu mövzuda çoxsaylı ədəbiyyat siyahısı yer alıb.

Azərbaycan Mədəniyyət Mərkəzindən verilən məlumata görə, türk dilində Azərbaycan xalçası ilə bağlı bölmənin istifadəyə verilməsi bu istiqamətdə maraqlanan internet istifadəçiləri, habelə tədqiqat aparan mütəxəssislərin informasiya tələbatını təmin edəcək və mühüm mənbə olacaqdır.

# "Euronews" telekanalı "Formula-1" Azərbaycan Qran-prisi ilə bağlı reportaj hazırlayıb

**"Euronews" telekanalı Bakıda keçiriləcək "Formula-1" Qatar Airways Azərbaycan Qran-prisi 2024-ə dair reportaj hazırlayıb. AZƏRTAC xəbər verir ki, Bakı Şəhər Halqası (BHŞ) Əməliyyat Şirkətinin baş direktoru Maqsud Fərzullayevin müsahibəsinin də yer aldığı reportajda yarışa hazırlıqlarla bağlı məlumat verilib.**




Qurum rəsmisi "Formula-1"in qlobal miqyasda genişlənən və inkişaf edən bir idman növü olduğunu qeyd edib: "Bu yarışa evsahibliyi etmək ölkəmizin beynəlxalq nüfuzunu artırmaqla yanaşı, həm də ona böyük iqtisadi imkanlar qazandırır. Turizmdən əldə edilən gəlirlər, xarici qonaqların şəhərə olan marağı və iqtisadiyyata verdiyi töhfə 2016-cı ildən bəri hər il daha da artmaqdadır".

Reportajda yarış həftəsində paytaxt Bakıda böyük sayda turist axını və azarkeş kütləsinin gözlənildiyi, ötən illə müqayisədə tribunaların tutumunun 35 faiz artdığı vurğulanıb. Bundan başqa, Qran-prinin təşkilinə 1500-ə yaxın əməkdaşın, 2000 könüllü və 1400-dən çox marşalın cəlb olunması, şəhərdəki hotellərin tam tutumu faktı, Bakı Halqasının ərsəyə gəlməsində istifadə olunan ən son texniki yeniliklərin tətbiqi, yol infrastrukturundakı müsbət dəyişikliklər, təhlükəsizlik və ətraf mühitin qorunması məsələləri də yer alıb.

Qeyd edək ki, "Formula-1" üzrə Azərbaycan Qran-prisi sentyabrın 13-15-də keçiriləcək.

# Şuşada 32 ildən sonra ilk toy mərasimi keçirilib

**Şuşada 32 ildən sonra ilk dəfə toy mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, 44 günlük Vətən müharibəsi veteranı Elmir Məmmədlinin toy mərasimi "İsa bulağı" istirahət kompleksində təşkil olunub. Toy məclisində gənclərin ailə üzvləri, qohum-əqrəbaları, Şuşa sakinləri və rəsmi şəxslər iştirak ediblər.**



Bəyin valideynləri bu xoş gündə təəssüratını AZƏRTAC-la bölüşüblər. Bəyin atası Elman Məmmədov deyib: "Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin. Allah Ali Baş Komandan başda olmaqla Ordumuzu, xalqımızı qorusun. Çox fərəhli, xoş gündür. Çox həyəcanlıyam. 32 ildən sonra doğma yurdumuzda toy sədaları eşidilir. Bu gün oğlum - 44 günlük Vətən müharibəsinin qazisi Elmirin toyudur. Allah xalqımıza hər zaman belə xoş, sevincli günlər nəsib eləsin".

Bəyin anası Mehriban Məmmədova bildirib: "Çox həyəcanlıyıq. Sevinc və fəxr hissləri bir-birinə qarışıb. Şuşamızın toylu-büsatlı günləri başlayıb. Allah bir də bizə pis günlər göstərməsin".

Toyu olan Elmir Məmmədov şad gününün Şuşada keçirildiyi üçün özünü xoşbəxt hesab etdiyini bildirib: "Sevincliyəm, 32 ildən sonra Şuşada ilk toy sədaları mənim üçün səslənir. Şükür bu günümüzə, Ali Baş Komandanın rəhbərliyi ilə bütün torpaqlarımız azad edildi. Mən də 44 günlük Vətən müharibəsində Füzuli, Xocavənd istiqamətlərində gedən döyüşlərdə iştirak etmişəm. Toy mərasimim Şuşada keçirildiyi üçün özümü çox xoşbəxt hesab edirəm".

Qeyd edək ki, Şuşa şəhərində indiyədək 177 ailənin, yəni 672 nəfərin daimi məskunlaşması təmin edilib.

# Azərbaycan Moskvada beynəlxalq festival çərçivəsində keçiriləcək konsertdə təmsil olunacaq

**Moskvadakı Rusiya Rəssamlıq Akademiyasının muzey-sərgi kompleksində sentyabrın 15-də "Dütar sədaları" VIII festivalına doğru" adlı konsert keçiriləcək. Konsertdə Azərbaycandan incəsənət ustaları iştirak edəcəklər.**




AZƏRTAC konsertin təşkilatçılarına istinadla xəbər verir ki, bu tədbirdə festivalın münsiflər heyətinin üzvləri və müxtəlif illərdə musiqi müsabiqələrinin laureatı olmuş musiqiçilər çıxış edəcəklər. "Dütar sədaları" VIII Moskva Beynəlxalq İncəsənət Festivalı oktyabrın 28-dən noyabrın 3-dək təşkil olunacaq.

Keçən festivallarda Azərbaycan, Qvatemala, Almaniya, İran, Qazaxıstan, Çin, BƏƏ, Rusiya, Sloveniya, ABŞ, Türkmənistan, Türkiyə, Özbəkistan, Fransa, Cənubi Koreya, Yaponiya və digər ölkələrdən 1000-dən çox ifaçı-musiqiçi, o cümlədən xoreoqrafiya və xor kollektivləri iştirak edib.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60, 434-55-58
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4091
Sifariş 2007

Qiyməti 60 qəpik